Xalqın qəzeti!

# Xalq qəzeti

№ 56 (30750) 14 mart 2025-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# Qlobal Bakı Forumunun dünya düzəninə töhfəsi ilbəil artır

## “Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi” mövzusunda XII Qlobal Bakı Forumu

*Prezident İlham Əliyev Forumun açılış mərasimində çıxış edib*




**Martın 13-də Bakıda, “Gülüstan” sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə “Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi” mövzusunda XII Qlobal Bakı Forumu işə başlayıb.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Forumun açılış mərasimində iştirak edib.

Əvvəlcə xatirə fotosu çəkdirildi.

XII Qlobal Bakı Forumunu açıq elan edən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri **İsmail Serageldin** tədbir iştirakçılarını salamladı, Forumda aparılan müzakirələrin xüsusi əhəmiyyət daşıdığını vurğuladı. Sonra çıxış üçün sözü Prezident İlham Əliyevə verdi.

***

Dövlətimizin başçısı açılış mərasimində çıxış etdi.

**(ardı 2-ci səhifədə)**

## XİN-in Azərbaycan–Ermənistan danışıqlarının yekunlaşmasına dair bəyanatı



**Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan və Ermənistan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında Saziş layihəsinin mətni üzrə danışıqların yekunlaşmasına dair bəyanat yayıb.**

Bəyanatda deyilir:

“Azərbaycan və Ermənistan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında Saziş layihəsinin mətni üzrə danışıqların yekunlaşdığını məmnunluqla qeyd edirik.

Bununla yanaşı, danışıq aparılmış mətnin imzalanması üçün əsas şərtin Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı iddiaların aradan qaldırılması məqsədilə Ermənistanın konstitusiyasına dəyişiklik edilməsi olduğu barədə Azərbaycanın uzunmüddətli və prinsipial mövqeyini bir daha diqqətə çatdırırıq. Eyni zamanda, ATƏT-in köhnəlmiş və qeyri-funksional Minsk qrupunun və aidiyyəti strukturların rəsmi şəkildə ləğv olunmasının zəruriliyini vurğulayırıq.

İki ölkə arasında normallaşma prosesi ilə bağlı bu və digər məsələlər üzrə ikitərəfli dialoqu davam etdirməyə hazırıq”.

***XQ***

## Azərbaycan Milli Elmlər Akademiyası: İnkişaf mərhələləri və müasir dövr

Səhifə ⇨ 11

## Azərbaycan–Ermənistan: sülh müqaviləsindən danışmaq tezdir

*Amma nikbinlik müsbət qarşılanmalıdır*



**Azərbaycan Xarici İşlər Nazirliyi Azərbaycan və Ermənistan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında Saziş layihəsinin mətni üzrə danışıqların yekunlaşdığını bildirib. Əlbəttə, bu, çox müsbət haldır. Amma...**

Bəzi prinsipial məsələlər açıq qalmaqdadır. Bu, onu deməyə əsas verir ki, sülh müqaviləsinin mətni hələ yekunlaşdırılmayıb. Nəzərə alaq ki, barış fundamental mahiyyət daşımalıdır. Fundamentallıq isə qarşılıqlı inam və etimad mühitinin formalaşmasından asılıdır.

Əlbəttə, Ermənistan son illərdə Azərbaycanla danışıqlar prosesində bir sıra zəruri güzəştlərə gedib. Amma məsələni güzəşt kontekstində dəyərləndirməyin tərəfdarı deyilik. Çünki ölkəmizin məqsədi güzəştə nail olmaq yox, haqq və ədalətin bərpasıdır. Rəsmi İrəvan mövcud istiqamətdə səmimiyyət nümayiş etdiribmi? Təəssüf ki, yox!

**(ardı 7-ci səhifədə)**

## Gözlənilən qərəzin nümayişi

### Avropa Parlamentinin anti-Azərbaycan qətnamələri saxta, əsassız ittihamlardır

**Avropa Parlamenti Azərbaycana qarşı hərbi cinayətlər törətməkdə təqsirləndirilən erməniəsilli şəxslərin azad olunması barədə qətnamə qəbul edib. Bu faktın özü açıq-aşkar onu nümayiş etdirir ki, Parisin dirijorluğu ilə hərəkət edən Brüssel indiki mərhələdə Ermənistan və Azərbaycanın sülhə yaxınlaşmasına hər vəchlə mane olmağa çalışır. Emmanuel Makron Fransası Cənubi Qafqazın bu iki qonşu ölkəsi arasında sabitliyə səbəb olacaq sülh prosesini ləngitməkdən ötrü bütün resurslarını səfərbər edib. Avroparlamentarilərin növbəti anti–Azərbaycan təxribatını məhz Parisin yeritdiyi ermənipərəst siyasətin tərkib hissəsi kimi qiymətləndirmək lazımdır.**



**(ardı 7-ci səhifədə)**

## Niderlandın Azərbaycan qərəzi nədən qaynaqlanır?

Səhifə ⇨ 8



## Ukrayna böhranı: Savaş meydanda, barış dalandadır



Səhifə ⇨ 14

## ÜDM-də özəl bölmənin payı çoxalır



Səhifə ⇨ 10

# "Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi" mövzusunda XII Qlobal Bakı Forumu







(əvvəli 1-ci səhifədə)

## Prezident İlham Əliyevin çıxışı

– Xanımlar və cənablar!

Sabahınız xeyir, Bakıya xoş gəlmisiniz.

Mən bütün qonaqlarımızı illik Qlobal Bakı Forumunda salamlayıram. Əvvəlcə, mən bizimlə olduğunuza görə sizə təşəkkürümü bildirirəm. Mən, eyni zamanda, Nizami Gəncəvi Beynəlxalq Mərkəzini təbrik edirəm ki, bu illər ərzində çox əla işlər görmüşdür və belə bir mühüm beynəlxalq tədbiri təşkil edir.

Biz çox fərəhlənirik ki, Qlobal Bakı Forumu qlobal gündəlikdəki mühüm məsələlərin həllində aparıcı beynəlxalq platformalardan birinə çevrilib. Mən dünən İdarə Heyətinin üzvləri ilə görüşdüm.

Bu gün söyləmək istərdim ki, biz Mərkəzin bütün üzvlərinə, onun İdarə Heyətinə, həmsədrləri – xanım Vayra Vike Freyberqaya, cənab İsmayıl Serageldinə Mərkəzin həqiqətən böyük transformasiyasına verdikləri töhfəyə və dünya miqyaslı fəaliyyətinə görə minnətdarıq. Mən, həmçinin söyləmək istəyirəm ki, biz Beynəlxalq Mərkəzin üzvlərinin Azərbaycanda ötən ilin noyabrında keçirilmiş COP29 tədbirində fəal iştirakını görməkdən çox məmnun olduq. Mərkəzin bəzi üzvləri Məşvərət Komitəsində iştirak edirdilər. Mərkəz 16 panel müzakirəsi keçirdi. Əslində, onlara ev sahibliyi etdi, onları təşkil etdi və öz pavilyonu ilə daha çox panel müzakirələrdə iştirak etdi. Bir sözlə, həqiqətən, bu, COP29-un uğuruna böyük töhfə idi. Bu, ötən il Azərbaycanda əsas beynəlxalq tədbir idi.

Biz həqiqətən çox fərəhlənirik ki, təxminən 200 ölkənin yekdil qərarı ilə seçildik. Bu, bizə olan hörmətin, etimadın təzahürü, eləcə də yaşıl keçid üzrə fəaliyyətimizə verilən qiymət idi. Baxmayaraq ki, biz faydalı qazıntılarla zənginik, gündəliyimizdə bərpaolunan enerjiyə diqqət yetirilir. Bu gün artıq qərara alınıb ki, gələn illərdə Azərbaycanın bərpaolunan enerji imkanları faydalı qazıntıdan olan enerji istehsalına demək olar ki, bərabər olacaq. Bu gün Azərbaycanda yaradılmış enerji istehsalı imkanları 8 giqavatdır. 2030-cu ilə qədər bizim bərpaolunan enerjidən, əsasən Günəş və küləkdən, o cümlədən Azərbaycanın azad edilmiş ərazilərdəki hidroresurslardan əlavə 6,5 giqavatlıq enerji güclərimiz olacaq. Beləliklə, biz bu günə olan potensialımızı demək olar ki, iki dəfə artıracağıq.

Bunun sayəsində biz nəinki neft və qazı, o cümlədən yaşıl enerjini də ixrac edə biləcəyik. Bu rəqəmlər tamamilə realdır. Onlar artıq imzalanmış müqavilələrə və anlaşma memorandumlarına əsaslanır.

Biz artıq həmin layihələrin icrasını görürük. Beləliklə, düşünürəm ki, Azərbaycanda COP29-u təşkil etmək qərarı Azərbaycanın öz enerji sərvətlərinə çox məsuliyyətli yanaşmasından irəli gəlir.

Bir daha qeyd etmək istəyirəm ki, ölkə enerji təchizatı baxımından qıtlıqla üzləşmir. Əksinə, bu gün Azərbaycan ondan artıq ölkənin enerji təhlükəsizliyinə töhfə verir. Onların 12-si Azərbaycandan təbii qaz alır. Bu 12 ölkədən 10-u Avropa ölkəsidir.

Təsadüfi deyil ki, Avropa Komissiyası Azərbaycanı etibarlı tərəfdaş və Pan-Avropa enerji təchizatçısı kimi tanıyır. Bir sözlə, bu gün Azərbaycandan nəql olunan neft və qaz bir çox ölkələrin enerji təhlükəsizliyində və əslində, onun möhkəmləndirilməsində həqiqətən böyük dəyişiklik yaradır. Buna yaşıl enerji mənbələrimizi, o cümlədən Azərbaycandan Avropaya gedən, qismən Qara dənizin dibi ilə çəkilən yeni enerji kabelini əlavə etsək, bu, məsuliyyətimizin digər təzahürü və bir çox ölkələrlə sıx tərəfdaşlıq münasibətlərimizin nümayişidir. Təkcə enerji sərvətlərinin olması kifayət deyil. Siz gərək qonşularınızla, onların qonşuları ilə yaxşı münasibətdə olasınız ki, enerji, təhlükəsizlik və bağlantı layihələrini icra edə biləsiniz.

Bağlantı məsələlərinə gəldikdə, mən demək istəyirəm ki, son geosiyasi dəyişikliklərdən irəli gələrək Azərbaycandan keçən yüklərin daşınması həcmi kəskin şəkildə artmışdır. Biz bunun üçün yaxşı hazırıq, çünki biz üzərimizə düşən işi artıq icra etmişik. İndi isə biz, sadəcə, dəniz limanı, dəmiryolu infrastrukturunun buraxılış qabiliyyətini artırmalıyıq ki, son illər ərzində Azərbaycana istiqamətləndirilmiş bütün yükləri qəbul edə bilək. Beləliklə, əlbəttə ki, bölgəmizin – Cənubi Qafqaz bölgəsinin geosiyasi əhəmiyyəti artır və həmin bölgədə biz sülhün bərqərar olunması üçün hələ də çalışırıq.

COP-la bağlı əlavə daha nəyi deyə bilərəm? Birincisi, çox çətin idi, çünki biz tədbiri bir ildən az olan müddətdə təşkil etməli idik. Adətən, ölkələrə hazırlaşmağa iki il vaxt verilir. Bu, yekdil rəy əsasında uğurla həyata keçirildi.

İkincisi, biz nəticələrə nail olmalı idik. Burada, bizə şaxələndirilmiş xarici siyasətimiz kömək etdi. Dörd il ərzində 120 ölkəni birləşdirən təşkilatda – Qoşulmama Hərəkatında sədrlik etdik və fərqli durumda olan üzv dövlətlərə, o cümlədən COVID vaxtlarında 80-dən artıq ölkəyə humanitar və maliyyə yardımı göstərməklə onlara fəal dəstək verdik. Eyni zamanda, biz Avropa tərəfdaşları ilə fəal əlaqədə olaraq Qlobal Cənub ilə Qlobal Şimal arasında körpü salan tərəf kimi öz rolumuzu gördük. Düşünürəm ki, biz uğur qazandıq, çünki COP29 zamanı bir sıra mühüm məsələlər üzərində razılığa gəlmək asan deyildi.

Əsas mərhələlərdən, nailiyyətlərdən biri 10 ildən artıq keçilməz nöqtə olan Paris Sazişinin 6-cı maddəsi üzərində konsensus idi. On ildən artıq idi ki, tərəflər razılığa gələ bilmirdi. Lakin biz burada konsensus əldə



edə bildik və karbon bazarını işlək etdik. Bir sözlə, bu, prosesin gələcəkdə inkişafı üçün çox əhəmiyyətlidir. Digər mühüm nailiyyət ondan ibarət idi ki, Bakıda COP29-da biz bərpaolunan enerji layihələri üçün maliyyələşmənin əvvəlki 100 milyarddan 300 milyard dollara qədər artırılmasına nail olduq. Bəli, bilirik ki, bəzi ölkələr bundan tam razı qalmadı. Onlar daha böyük artım istəyirdilər. Lakin, düşünürəm ki, bizdə maliyyələşmənin üç dəfə artırılması lazımınca qiymətləndirilməlidir. Buna görə, Bakıdakı COP29 "Bakı sıçrayışı" adlandırıldı və bu, mühüm irsdir.

Deməliyəm, əfsuslar olsun ki, bu qlobal beynəlxalq tədbir bəzi Qərb medialarında kampaniya ilə müşayiət olundu. Prezident Tramp onları yalan, saxta xəbər adlandırır və onunla tam razıyam. Bu, Azərbaycanı gözdən salmaq, bizi qaralamaq, şayiələr və müxtəlif dezinformasiya yaymaq kampaniyası idi. Bizi ittiham edirdilər ki, neft və qaz hasil edən ölkəyik. Lakin bizdən əvvəl bir sıra ölkələr, o cümlədən Avropada nefti və qazı olan ölkələr var idi. Lakin dırnaqarası media tərəfindən buna məhəl qoyulmaması normal bir hal kimi qəbul olunmuşdur. Azərbaycanın neft hasilatı, məsələn, Kanadanın hasilatından on dəfə azdır. Bizim qlobal qaz emissiyalarında payımız cəmi 0,1 faizdir. Biz isə qlobal qaz emissiyalarına ən böyük töhfə verənləri bilirik.

Amma bununla belə, dövri əsaslarla bəzən gün ərzində ondan artıq məqalə Azərbaycanın bir neft dövləti kimi təsvir edilməsinə yönəlirdi. Yəni deyirdilər, bir ölkə kimi biz qlobal, beynəlxalq tədbirin keçirilməsinə layiq deyilik. Bütün bunlar bir neçə mərkəzdən, əslində, ikisindən qaynaqlanırdı. Onlardan biri – ABŞ-ın Dövlət Departamenti idi. "Vaşinqton Post", "Nyu-York Tayms", "Politico", "Newsveek" və "Assoşieyted Press" kimi yalan xəbər mənbələri, sadəcə, ABŞ Dövlət Departamentinin təlimatlarını icra edirdilər.

İkinci mənbə isə Fransa prezidentinin ofisi, cənab Makron, onların "Le Monde", "Fiqaro" və digər bu kimi saxta xəbər mətbuatı idi. Bir sözlə, bu, COP29-un boykot edilməsinə yönəlmiş qarayaxma və böhtanın əlaqələndirilmiş kampaniyası idi.

Bunun da müxtəlif səbəbləri ola bilər. Lakin onlardan biri ondan ibarətdir ki, onlar bizə öz iradəsini yeridə bilmədilər. Onlar suverenliyimizin, ərazi bütövlüyümüzün tam bərpasına yönəlmiş siyasətimizi dəyişə bilmədilər. Onlar o faktla razılaşa bilmirdilər ki, burada, Qafqazda öz milli maraqlarını güdən ölkə, yəni böyük bosslar qarşısında hər zaman "bəli, cənab" deməyən ölkə var. Əfsuslar olsun ki, Fransa hökuməti hətta COP29-u boykot etmək üçün bir çox ölkələri təhrik edərək, daha uzağa getdi. COP29-da iştirak etmiş dünya liderlərindən etibarlı informasiyamız var və onlar bizə bu haqda məlumat verdilər. Hətta gəlməyən rəhbərlər mesaj göndərdilər ki, şəxsən Fransa prezidenti COP29-a qarşı kampaniya aparırdı.

Bu, elə bir siyasətdir ki, heç bir kəsə başucalığı gətirmir. Buna baxmayaraq, böyük tərkibdə iştirak oldu. Qeydiyyata alınmış 77 min iştirakçı oldu. Onların sırasında 197 ölkədən təmsilçilər, 70 dövlət və hökumət başçısı var idi. COP29-u boykot edən yeganə ölkə Ermənistan idi.

Ermənistan–Azərbaycan prosesinə gəldikdə, biz işğal illərini, o cümlədən Ermənistanın işğalı və təcavüzü nəticəsində Azərbaycan xalqının çəkdiyi əzab-əziyyətləri yaddan çıxara bilmərik və çıxarmayacağıq. Azad olunmuş ərazilərə səfər edənlər barbarlıq səviyyəsini görə bilər. Bütün şəhərlərimiz xarabalığa çevrilib. İndi isə biz onları yenidən tikirik. Hər bir şey yerlə-yeksan olunubdur və bu, kəndlərimizə, şəhərlərimizə qarşı bilərəkdən urbisid idi, dinimizə və tarixi irsimizə qarşı bilərəkdən zərbə idi. 65 məscid dağıdılıb və nəinki azərbaycanlıların, o cümlədən bütün dünya müsəlmanlarının hisslərini təhqir etmək üçün orada donuz və mal saxlayıblar. Biz bunu yaddan çıxarmayacağıq.

Biz 613 insanın, onlardan 60-dan çox uşağın və 100-dən artıq qadının ermənilər tərəfindən qətlə yetirildiyi Xocalı soyqırımını yaddan çıxarmayacağıq. Lakin, eyni zamanda, biz gələcəyə nəzər salmalıyıq. Biz Cənubi Qafqazda sülhə nail olmalıyıq. Bu baxımdan, Azərbaycan sülh prosesinin təşəbbüskarı olub. Əslində, Azərbaycan hətta bu gün Ermənistanla müzakirə olunan və əsasən razılaşdırılmış sülh sazişi layihəsinin, həmin sülh müqaviləsinin müəllifidir. Bəndlərin əksər hissəsi razılaşdırılıbdır.

Mübarizəmiz ədalət, beynəlxalq hüquq və ləyaqətimiz üçün mübarizə idi. BMT-nin Təhlükəsizlik Şurasının 27 il kağız üzərində qalan qətnamələrini icra etdik. Əgər torpağımızı güclə azad etməsəydik, onlar növbəti 27 il də kağız üzərində qalardı. Burada biz mühüm meyara gəlib çıxırıq ki, bəzən sülhə nail olmaq və ədaləti bərpa etmək üçün siz gücdən istifadə etməlisiniz. Bu gün biz bunu görürük. Görürük ki, Avropa, Avropa İttifaqı güclü hərbi potensial qurmaq üçün bu gün öz siyasətini necə dəyişməyə çalışır. Görürük ki, digər ölkələr öz resurslarını hərbi potensialına və infrastrukturunun qurulmasına yönəldir. Biz bunu ən azı 20 ilə etdik, 2005-ci ildən etibarən etdik və ərazimizi azad edən, separatçılığa, separatçılara son qoyan güclü ordu yaratdıq.

Bir sözlə, bu gün ərazi bütövlüyü və suverenliyin tam bərpası nəinki Azərbaycan xalqının güclü iradəsinin təzahürüdür, o cümlədən beynəlxalq ədaləti nümayiş etdirir. Eyni zamanda, əlbəttə, artıq qeyd etdiyim kimi, bizim yaddaşımız yaxşıdır. Hamımız xatırlayırıq ki, İkinci Qarabağ müharibəsindən əvvəl Ermənistanın cari hökuməti özünü necə aparırdı. Hamımız "Qarabağ Ermənistandır" söyləyən Ermənistan rəhbərinin bəyanatlarını xatırlayırıq. Bu, Xankəndidə deyilmişdir. Hamımız işğal olunmuş Şuşa şəhərində onun davranışını xatırlayırıq. Bunu internetdə tapa bilərsiniz. Çox maraqlı videodur.

Bu gün bəzi Avropa bürokratları Ermənistanı sülh göyərçini kimi təqdim etməyə çalışırlar. Lakin onlar həmin hökumətin keçmişdə nəyi etdiyini yaddan çıxarırlar. Onlar yaddan çıxarırlar ki, İkinci Qarabağ müharibəsində ermənilər bizim şəhərlərimizi, kəndlərimizi atəşə tuturdu. Yüzdən artıq vətəndaşımızı həmin raketlərə, ixracı qadağan olunmuş "İsgəndər M" raketinə görə itirdik. Biz hələ də suala cavab almamışıq: Ermənistan ordusu "İsgəndər M" raketini necə əldə edib? Çünki Rusiyada bu raketin ixracı yasaqdır. İnanmayanlar isə, - buradan cəmi 5-10 dəqiqəlik yoldur, - getsinlər Hərbi Qənimətlər Parkına və Şuşada tapdığımız "İsgəndər M" raketini görsünlər. Biz onu artıq 2021-ci ilin yazında tapdıq, çünki o, qarın altında qalmışdı. Biz Şuşanı azad etdiyimiz zaman o, şəhərə atılmışdı.

Bu, Ermənistanın baş nazirinin əmri ilə edilmişdi. Gəncə, Tərtər, Bərdə, Mingəçevir, Ağcabədi və bir çox digər şəhərlər dövri olaraq Ermənistanın atəşinə tutulurdu. Biz isə bunu etmədik. Biz Ermənistan ordusuna, işğalçı Ermənistanın ordusuna qarşı mübarizə aparırdıq. Onlar isə mülki şəxslərlə mübarizə aparırdı. Fərq bundadır. Bu, Birinci Qarabağ müharibəsində də eyni idi. Onlar bir növ bufer zonası yaratmışdılar. Belə adlandırırdılar. Əslində isə bu, işğal olunmuş ərazilər idi. Onlar yüz minlərlə azərbaycanlını qovdular və etnik təmizləmə apardılar. Biz bunu heç vaxt yaddan çıxarmayacağıq. Sizə bir məsələni də deyə bilərəm ki, Ermənistana etimad səviyyəsi sıfra bərabərdir. Beləliklə, biz onların hər hansı bir sözünə inanmırıq.

Çünki onlar elə insan deyillər ki, biz inana bilək, o cümlədən onların indiki hökuməti. Bir daha bütün bunlar göstərir ki, onların dediyi bizim üçün sıfır məna kəsb edir. Bizə sənədlər, yazılı kağızlar lazımdır. Bizə lazımdır ki, onların Konstitusiyasında Azərbaycana qarşı ərazi iddiaları olmasın. Orada Azərbaycana qarşı ərazi iddiaları hələ də qalır. Bizə lazımdır ki, ATƏT-in Minsk qrupu buraxılsın. Biz bu mesajı Ermənistana çatdırırıq və deyirik ki, Minsk qrupunun saxlanılmasında məntiq yoxdur. O, Qarabağ məsələsinin həlli üçün yaradılmışdı. İndi Qarabağ məsələsi həll olunub. Ermənistan Qarabağı Azərbaycanın ərazisi kimi tanıyır. ATƏT-in həmin qrupunun buraxılması üçün ümumi müraciətdə siz bizə niyə qoşulmursunuz? Onlar istəmirlər. Belə çıxır ki, onlar bir ayağını ərazimizdə yer saxlamaq üçün edir. Əlbəttə ki, virtual olaraq. Onların silahlanması – bu, nəyi göstərir?

Bu göstərir ki, onlar yeni müharibəyə hazırlaşırlar. Kim onları yenidən müharibəyə sürükləyir? Fransa və onun Prezidenti. Onların Ermənistanı təchiz etdiyi məhvedici silahlar bizə qarşı yönəlir. Bu gün başqa yerdə lazım ola biləcək "Sezar" haubitsaları Ermənistana göndərilir. Əslində, Avropa İttifaqının kəşfiyyat missiyası olan dırnaqarası Avropa monitorinq missiyası gecə-gündüz casus kimi sərhədlərimizdə dayanır və baxırlar ki, bəlkə haradan, bir yerdən girə bilsinlər. Bizim də həmin dırnaqarası monitorinq missiyası barədə kifayət qədər kəşfiyyat məlumatımız var. Avropanın Sülh Fondu milyonlarla dolları Ermənistanı silahlandırmaq üçün ona verir. Bəli, onlar deyir ki, bu pul qeyri-məhvedici hərbi qurğular üçündür.

Birincisi, bunu kim yoxlaya bilər? İkincisi, siz onlara 10 milyon verirsiniz və sonra isə digər 10 milyon planlaşdırılır. Beləliklə, Ermənistana silah almaq üçün pula qənaət imkanı yaranır. Nəinki Fransa onlara məhvedici silahlar göndərir. Onda onlar bunu niyə edir? Onlar nəyə hazırlaşır? Əgər sülh istəyirlərsə, buna ehtiyac yoxdur. Dəfələrlə biz bu məsələni erməni nümayəndələrinin və onların Brüsseldəki yeni ağalarının qarşısında qaldırmışıq. Çünki onlar indi böyük qardaşını dəyişiblər. Bu gün bu, Brüsseldir. Prezident Trampın qələbəsinə qədər bu, Dövlət Departamenti, USAID idi. Məhz indi ciddi problemlərlə üzləşən Menendes kimi rüşvətxor Amerika siyasətçiləri idi. Menendes siyahıda hələ sonuncu deyil. Necə deyərlər, bir qaranquşla bahar olmur. Xeyli digərləri var ki, erməni pulunu ciblərinə qoyurlar. Mən onların adını çəkə bilərəm, adları məlumdur: cənab Adam Şif, cənab Frenk Pallone, xanım Nensi Pelosi və bir çox digərləri var. Onlar onilliklər ərzində Azərbaycana hücum çəkmək və onu gözdən salmaq üçün Birləşmiş Ştatlarda erməni diaspor təşkilatlarından pullar alıblar.

Beləliklə, biz Prezident Trampa bataqlığın qurudulmasında uğurlar arzu edirik. Bu, asan deyil. Lakin edilməlidir. Həmçinin, biz USAID-in Azərbaycanda qeyri-qanuni fəaliyyəti ilə bağlı Amerikanın orqanları ilə məlumat mübadiləsinə hazırıq. Onlar insanlara necə rüşvət verirdilər?! Onlar qeyri-qanuni maliyyə kanallarından necə istifadə edirdilər?! Onlar Azərbaycanın qanunlarını və normalarını necə pozurdular?! İndi məsuliyyətli olmaq vaxtı yetişib. Biz əlimizdə olan bütün informasiyanı təqdim etməyə hazırıq.

Birmənalı olaraq, Forumda yeni geosiyasi vəziyyət müzakirə olunacaqdır. Siz, yəqin, mənim şərhlərimdən təsəvvür edirsiniz ki, biz hazırda Amerikada nə baş verirsə, ona çox böyük maraq göstəririk. Nəyə görə? Səbəb çox sadədir. Çünki cənab Antoni Blinkenin Azərbaycana aid siyasəti, əslində, 30 il qurduğumuz ABŞ–Azərbaycan münasibətlərini heçə endirdi. Biz hər zaman ABŞ-ın çox etibarlı, yaxın tərəfdaşı olmuşuq. Biz onlara lazım olanda onlarla idik. Biz onlara İraqda lazım olanda, qoşunla onlarla idik. Biz onlara Əfqanıstanda lazım olanda, 2001-ci ildə Əfqanıstanda əməliyyatlara qoşulan ilk qeyri-NATO ölkələrindən idik və oradan sonuncu çıxdıq. Lakin biz çıxandan sonra onlar bizə sanksiya tətbiq etdilər.

Xatırlayıram ki, bu, Azərbaycanda böyük məyusluq yaratdı. Mən onların bəzi nümayəndələrinə söylədim ki, biz sizə necə inana bilərik? Biz sizə lazım olanda sanksiyanı dayandırırsınız. Biz sizə artıq lazım olmayanda, sanksiyanı yenidən tətbiq edirsiniz. Onda uzunmüddətli münasibətləri sizinlə necə qura bilərik? Beləliklə, çox maraqla baxırıq. Birincisi, ona görə ki, biz Azərbaycanda Dövlət Departamentinin bütün səylərinə baxmayaraq, ABŞ–Azərbaycan münasibətlərini uçurumdan tam xilas etdik. İkincisi, ümid edirik ki, yeni Administrasiya ilə Cənubi Qafqaz, sülh, təhlükəsizlik, antiterror əməliyyatları, regionumuzun müasir inkişafı üçün hər zaman vacib olmuş güclü tərəfdaşlığımızı yenidən quracağıq.

Birmənalı olaraq, bu gün Forumda bütün natiqləri dinləmək çox maraqlı olacaq. Həmişə olduğu kimi, əminəm ki, Forum və onun üzvləri xüsusən də indi, kəskin geosiyasi dəyişikliklərdən sonra keçirilən tədbirdə ideya və yanaşmalar irəli sürəcəklər.

Bir daha bizimlə olduğunuza görə təşəkkür edirik. Dəvətimizi qəbul etdiyinizə görə minnətdarıq və Foruma uğurlar arzu edirəm.

(ardı 3-cü səhifədə)

# “Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi” mövzusunda XII Qlobal Bakı Forumu

(əvvəli 2-ci səhifədə)

Albaniya Respublikasının Prezidenti **Bayram Beqay** çıxış edərək dedi:




-Təşəkkür edirəm. Sabahınız xeyirli olsun.

Hörmətli Prezident Əliyev, icazə verin, fikirlərimi təşəkkür sözləri ilə başlayım. Dəvətə görə minnətdaram və qonaqpərvərliyə görə təşəkkür edirəm. Sizi əmin edirəm ki, COP29 ölkə üçün böyük nailiyyət idi.

Hörmətli Prezident Əliyev, dəyərli qonaqlar, hörmətli dostlar.

Sizinlə birlikdə olmaq bizim üçün çox böyük şərəfdir. Biz çoxtərəfli dialoqa sadiqliyimizi nümayiş etdiririk. Bu günün şüarı çağırışların fürsətlərə çevrilməsidir. Bu, sadəcə, məqsəd deyil, həmçinin ehtiyacdır. Qlobal Bakı Forumu çox mühüm bir Forumdur və qeyri-müəyyənlik dünyasında ümid yaradan bir Forumdur. Pandemiyadan əvvəl dünyada baş verən silahlı münaqişələr artıq dünyanı dəyişib və müəyyənlik qeyri-müəyyənliklə əvəz olunub. Böhran genişlənir və dünya səviyyəsində qeyri-sabit vəziyyət inkişaf edir, müxtəlif bölgələrdə münaqişələr davam edir və tarixin kölgələri bəzi hallarda müasir dünyanı üstələyir. Çağdaş dünyamız yalnız siyasi böhranla üzləşməyib, eyni zamanda, iqtisadi tənəzzül də baş verir. Bu gün dünya keçid dövründədir və azadlıq, demokratiya, insan ləyaqəti, ədalət və təhlükəsizlik kimi məfhumlar bu keçidin sınağından keçməkdədir. Dünyada münaqişələr var, kibertəhlükələr, mütəşəkkil cinayətkarlıq və saxta məlumatlar dominantlığa çevrilir və beləliklə, bizdən cəsarət, birlik tələb olunur. Gücdən istifadənin ədaləti əvəzlədiyi bir dövrdə cəmiyyətlər, nəsillər iflasa uğrayır və düşünürük ki, çağırışların məqsədi yeni imkanlar yaratmaqdır. Çağırışlar yeni dünya düzəni üçün sınaqdır. Ukraynadakı münaqişə və digər münaqişələr təhlükəsizliyi sarsıdır, kontinental və qlobal səviyyədə əməkdaşlığa böyük təhdiddir. Biz sülhün bərpasına nail olmalıyıq, biz sərhədlərin və dövlət suverenliyinin qorunmasına çalışmalıyıq. Milli çağırışlardan məqsəd mütəşəkkil cinayətkarlıqla və kibertəhlükələrlə mübarizədən ibarətdir. Bunlar sözsüz ki, regional və beynəlxalq səviyyədə əməkdaşlığımızı tələb edir.

Qeyri-qanuni miqrasiyanın Avropaya axını bir daha onu göstərdi ki, sərhədlərdə nəzarət bu baxımdan kifayət deyil. Çünki bu, bütövlükdə həmin axının qarşısını ala bilmir və mexanizm tam işlək deyil. COVID-19 pandemiyasının idarə edilməsi təcrübəsi onu göstərdi ki, ən səmərəli həllər vahid reaksiya mexanizmindən irəli gəlir, elm və texnologiyaya uzunmüddətli investisiyalar yatırılmalıdır. Biz texnoloji inkişafa dəstək olmalıyıq, süni zəkanı inkişaf etdirməliyik. Bu, fərdlərə, icmalara və xalqlara yeni fəslə, yeni mərhələyə keçməyə imkan yaradacaq. Beləliklə, bu, həyatımızın hər bir sahəsinə aid olacaq. Biz öz dəyərlərimizə sadiq qalmalıyıq. Çağdaş dünya hazırda ən çox texnoloji inkişaf dövrünü yaşayır və bu da heç asanlıqla mümkün olmayıb. Bir çox çağırışlardan keçmişik. İndi cəsarət və aydın bir baxış lazımdır ki, sülhü və təhlükəsizliyi, iqtisadi inkişafı və siyasətləri vətəndaşlarımızın xeyrinə çevirək. Bizə elə bir dünya lazımdır ki, iqtisadiyyat dayanıqlı olsun, münaqişələr həll edilsin və cəmiyyətlərimiz güclənsin, parçalanmasın, daha çox həmrəy olsun, sülh çox tutarlı və möhkəm əsaslarda qurulsun. Bu, sözsüz ki, sabahkı dünyanı yaşamaq üçün daha da məqbul edəcək.

Xanımlar və cənablar, öz ölkəmin təcrübəsindən deyə bilərəm ki, o, çətin və çağırışlı, qalmaqallı dövrlər keçib, Albaniya bunu yaşayıb. Totalitarizmdən demokratiyaya keçib. Təhlükəsizlik olmayan dövrdə NATO üzvlüyünə, mərkəzləşdirilmiş iqtisadiyyatdan azad iqtisadiyyata və təcrid olunmuş ölkədən ildə 10 milyona qədər turist cəlb edən ölkəyə çevrilmişik. Hazırda biz Avropa İttifaqına üzv olmağa yaxınıq. Albaniya demokratiyaya üstünlük vermişdir.

Albaniya ABŞ ilə tərəfdaşlığına sadiqdir, biz Avroatlantik dəyərlərə inanırıq. Biz Avropa İttifaqına üstünlük veririk. Bu, sülhün, təhlükəsizliyin və firavan yaşamın zəminidir. Albaniya həm ölkə daxilində, həm də ölkə xaricində olan albanları birləşdirərək çağırışları fürsətlərə çevirib. Bizim gənc nəslimiz iddialıdır və bu prosesdə mühüm rola malikdir.

Hörmətli iştirakçılar, hörmətli dostlar. Albaniya tam şəkildə inanır ki, əməkdaşlıq və dialoq fövqələhəmiyyətli məsələlərdir və onlar bizə gələcəyi gətirəcək. Biz düşünürük ki, sülh və təhlükəsizlik olmadan nəyəsə nail olmaq mümkün deyil. Buna görə biz dialoqa və demokratik sabitliyə sədaqətimizi bir daha ifadə edirik.

Çıxışımın sonunda istərdim Albaniya ilə Azərbaycan arasında dostluq haqqında söz açım. Bizim uzunmüddətli dostluğumuz qarşılıqlı əməkdaşlıqda öz əksini tapır, ələlxüsus iqtisadiyyat və infrastruktur layihələrini nəzərdə tuturam. Mən bu əməkdaşlığa və onun inkişafına sadiqəm. Bu, bizim xalqların marağına cavab verir və baxmayaraq ki, biz coğrafi baxımdan yaxın deyilik, xalqlarımızla, qonşularımızla, tərəfdaşlarımızla gələcəyi birgə qura bilərik.

Bu Forum çox gözəl bir platformadır. Sülh, təhlükəsizlik və inkişaf naminə qurulan çox gözəl bir müstəvidir.

Hər birinizə uğurlar diləyirəm və xoş gün arzulayıram. Təşəkkür edirəm.

***

Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri **Jelka Tsviyanoviç** çıxış edərək dedi:




-Təşəkkür edirəm. Sabahınız xeyir, cənab Prezident.

Hörmətli iştirakçılar.

Bu mühüm müzakirəyə dəvətə görə təşəkkür edirəm. Biz dünyadakı bir çox qalmaqallı və çətin bölgələr haqqında danışırıq. Doğrudan da bu çağırışlar fürsətlərə çevrilə bilərmi? Mən də belə bir ölkəni təmsil edirəm ki, bizdə 30 il ərzində konstitusion və siyasi böhran olub. Biz bu uzunmüddətli böhranın bir çox fəsadlarını yaşamışıq. Ümumi yanaşsaq, hamı gözləyir ki, beynəlxalq münasibətlər hansı duruma çatacaq və hazırda Tramp administrasiyası bunu necə dəyişəcək? Deməliyəm ki, Amerikanın dərin hökuməti bir çox hallarda Bosniya və Herseqovinanı da qurban kimi seçmişdi. Burada müəyyən proseslərə təsir etməyə və onu mərkəzləşmiş dövlətdən təmərküzləşdirilmiş dövlətə çevirməyə çalışırdı. Bununla da biz uğursuz bir dövlət olacaqdıq və vahid bir milli mənsubiyyəti olmayan xalqlara çevriləcəkdik. Əsas alətlərdən biri məhkəmə sistemindən silah kimi istifadə etmək idi. Bizim Konstitusiya Məhkəməsində üç xarici hakim və digər hakimlər də var idi ki, onlar sülh sazişinə öz mənfi təsirlərini göstərirdilər. Bu Konstitusiya Məhkəməsi bizim Konstitusiyanı dəyişərək, mövcud konstitusiyanı müdafiə etmirdi. Digər nümunə isə Bosniya və Herseqovina məhkəməsidir. Bu siyasi məhkəmə bir qətnamə qəbul edir ki, nəticədə Bosniya və Herseqovina zorakılıq mənbəyinə çevrilir. Serbiya Prezidenti çalışmışdır ki, öz konstitusion hakimiyyətini həyata keçirsin və orada öz iradəsini tətbiq etsin. O, bu konstitusional öhdəliklər çərçivəsində səlahiyyətlərinə təsir etmişdir və onları pozmuşdur. Beləliklə heç bir digər prezident buna oxşar bir hərəkət etməyib. Bu, ona görə baş verir ki, xaric Kristian Şmidti yüksək elçi adlandırırdı. O, hakimiyyəti mənimsəmişdir və beynəlxalq hüquqa, Deytona prinsiplərinə və Bosniya və Herseqovinanın Konstitusiyasına və Serbiya Respublikasının Konstitusiyasına laqeyd yanaşaraq, öz iradəsini, qeyri-qanuni və avtokratik qərarlarını yeritməyə çalışırdı. Konstitusiyaya, qanunvericiliyə zidd olaraq qərar vermişdir ki, bizim cinayət məhkəməsi sistemi dəyişsin və Herseqovinanın seçilmiş şəxslərinə qarşı cəza mexanizminə çevrilsin. Bu, müharibənin bir nümunəsidir, müasir hüquqi sistemin yanlış istifadəsidir və bu, siyasi müxalifətin ədalət adı altında irəli çəkilməsidir. Bizim gördüyümüz odur ki, hesablanmış bir yanaşma var: demokratik seçilən şəxslərin yerindən tərpədilməsi və sosial dəyərləri sarsıtmaq üçün Bosniya və Herseqovina bu proseslərdən çıxmalıdır. Həqiqətən də demokratik sistem qurulmalıdır ki, yalnız demokratik yolla seçilmiş şəxslər, nümayəndələr siyasəti müəyyənləşdirsin və qanun insanlara xidmət etsin. Seçilməmiş və heç bir seçicinin səsini almayan şəxslərə xidmət etməsin. Məhkəmə sistemindən sui-istifadə, seçilmiş Serbiya nümayəndələrinin Deytona sazişlərinə qarşı addım atması bizim respublikaya və bizim insanlara, ümumiyyətlə hamıya qarşı təhdiddir. Beləliklə, Almaniyanın cavabı və münasibəti bizim daxili siyasətimizdə münaqişəni daha da dərinləşdirir və biz yalnız və yalnız bunun mənfi təsirlərini görürük. Biz Bosniya və Herseqovinada bunun şahidi olmuşuq. Beləliklə, demokratiya, yeni dünya düzəni, əhalinin hüquqlarını qorumaq üçün həqiqi mexanizmlər haqqında danışanda Bosniya və Herseqovina bir müstəmləkədir və bəlkə də mövcud olan yeganə müstəmləkədir. Təəssüf ki, Bosniya və Herseqovina haqqında tam mənada danışmaq, tam vəziyyəti başa düşmək istəmirlər. Xaricilərin yanlış addımları beynəlxalq ictimaiyyətdən gizlədilir. Mən iştirak etdiyim bütün forumlarda bu məsələ, bu ədalətsizlik, səhv addımlar haqqında danışıram və xaricilərin fəaliyyətlərini tənqid edirəm. Düşünürəm ki, bu, Forumda çox gözəl imkandır. Bosniya və Herseqovina yalnız və yalnız daxili dialoq vasitəsilə irəli gedə bilər. Ölkənin üç əsas xalqının nümayəndələri məsələləri birlikdə müzakirə etməlidirlər. Bu ölkə Kristian Şmidtin deyil, Avropa İttifaqının deyil, ABŞ-ın deyil və yaxud digərlərinin deyil, bizim ölkəmizdir. Odur ki, burada yeganə çıxış yolu dialoqdur, ünsiyyətdir, bizim indi və gələcəkdə birgə yaşayışımızdır.

Təşəkkür edirəm, cənab Prezident. Təşəkkür edirəm ki, biz öz hekayələrimizi və fikirlərimizi burada paylaşa bilirik.

***




Şimali Makedoniya Prezidenti **Qordana Silyanovska-Davkova** çıxış edərək dedi:

-Hörmətli Prezident Əliyev, Zati-aliləri.

Xanımlar və cənablar.

Fürsətdən istifadə edib bizim çox gözəl ev sahibinə təşəkkürümü bildirmək istəyirəm. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə dəvətə görə minnətdarlığımı bildirirəm. Bizi Azərbaycanda XII Qlobal Bakı Forumunda iştirak üçün dəvət ediblər. Coğrafi məsafəyə baxmayaraq, bizim iki dost ölkəmiz dərin bağlara malikdir. Bu iki ölkə bəşəriyyətin qovuşduğu nöqtələrdə yerləşir və burada çoxmillətli, çox dinlərə malik xalqlar birgə yaşayır. Hər iki ölkə 1991-ci ildə müstəqilliyini bərpa edib, öhdəlik olaraq çoxtərəflilik və əməkdaşlıq kimi dəyərləri seçib. Həmçinin digər bir məsələ var ki, bizim iki ölkə üçün oxşardır – Azərbaycan Odlar yurdudur, mən isə Günəş ölkəsini təmsil edirəm. Bizim makedon şairlərdən biri demişdir ki, Günəş insanın qazana bildiyi ən qədim odlardan biridir. Son bir neçə gün ərzində dost Azərbaycan Respublikasına rəsmi səfər çərçivəsində çox geniş müzakirələr aparmışıq.

Möhtərəm Prezident Əliyev, qonaqpərvərliyə görə təşəkkür edirəm. Azərbaycanın qonaqpərvərliyi, həmçinin beynəlxalq səviyyədə Qlobal Bakı Forumu vasitəsilə daha da tanınır. Son illərdə Forum dünyada ən qabaqcıl platformalardan birinə çevrilib, bura bir neçə nəsil liderlərin müdrik, dərin fikirlərinin və ideyalarının paylaşıldığı bir yerdir. Bu, regional və beynəlxalq məsələlər ətrafında qurulan bir Forumdur.

Hörmətli qonaqlar, bu məsələlər 2025-ci ildə xüsusilə əhəmiyyətlidir. Çünki bu ili hamı keçid ili, dəyişikliklər ili kimi düşünür. Günbəgün yeni suallar ortaya çıxır, lakin onların cavabları yoxdur. Dünya çox fərqli bir məkana çevrilir. Çoxtərəflilik qütbləşməyə, siyasi mübarizəyə yol açıb və birgə təhlükəsizlik sistemini sarsıdır. Birləşmiş Millətlər Təşkilatı qütbləşən bir quruma çevrilir. Lazım olan vaxtda istənilən nəticəni vermir və dünyada konsensus artıq sual altındadır. Biz yeni mərhələdə - beynəlxalq sistemə əsaslanan qərarların dəyərdən düşdüyü dövrdə necə yaşamalıyıq?

Bir müddət əvvəl Almaniya Prezidenti Ştaynmayer Münxen Təhlükəsizlik Konfransında qeyd etmişdir ki, güc yeni dünya düzəninin aparıcı dəyəri olmamalıdır. Çünki bu, bəşəriyyətin əldə etdiyi nailiyyətləri, 80 il əvvəl BMT-nin təsis olunduğu günlərdə qərara gəldiyi və bizi birləşdirən dəyərləri heçə endirəcək. Yeni qaydalar nədən ibarət olacaq, nəyə əsaslanacaq? “Pacta Sunservanda” prinsipinə, yoxsa güc prinsipinə əsaslanacaq? Bu, dəyərlərin, reallığın, yoxsa maraqların toqquşmasıdır? Ümumiyyətlə, bu böhranın öhdəsindən gələ biləcəyikmi? Qarşımızdakı bu çağırışların öhdəsindən birgə qaydalarla gələ biləcəyikmi? Ümumiyyətlə, gələcək nəsillər üçün biz hansı dünyanı qoyub gedəcəyik? Düşünürəm ki, bu il Qlobal Bakı Forumunda müzakirə edəcəyimiz suallar sırasında bunlar da var. Mənim üçün böyük şərəfdir ki, Forumun Birləşmiş Millətlər Təşkilatının gələcək naminə fəaliyyətinə həsr olunmuş üçüncü panelində çıxış edib fikirlərimi bildirəcəyəm.

Bildiyiniz kimi, vaxtilə ABŞ Dövlət Departamentinin Dövlət katibinə Nobel Sülh Mükafatı verilmişdir. Sırf 80 il əvvəl BMT-nin təsis olunmasına görə müraciətində Dövlət katibi qeyd etmişdir ki, insanlar və xalqlar üçün əsas məsələ odur ki, onlar kifayət qədər əziyyət çəkiblərmi, ibrət dərsi çıxarıblarmı ki, şübhələri, yanlış təsəvvürləri arxada qoyub, birləşib vahid dəyərlər, vahid maraqlar naminə inkişaf etsinlər. Burada vahid maraqlar uzunmüddətli sülhə yol açır. İnsanların yaratdığı texnologiyanın açdığı yeni imkanlardan istifadə edib bəşəriyyətin inkişafına, təkamülünə yönəltməliyik, nəinki onun dağıdılmasına.

Mən səmimi-qəlbdən inanıram ki, Qlobal Bakı Forumu yeni düşüncələr üçün gözəl məkan, bu fikirləri, bu ali maraqları qorumaq və yaşatmaq üçün gözəl bir imkan olacaq.

***

Sonra Latviyanın sabiq Prezidenti **Vayra-Vike Freyberqa** çıxış edərək, XII Qlobal Bakı Forumunun fikir müxtəlifliyini




təmsil edən insanları neytral və mehriban mühitdə bir araya gətirdiyini bildirdi. Sabiq Prezident Forumun dünyanın qlobal çağırışları ilə bağlı fikir mübadiləsi aparılmasına imkan yaratdığını vurğulayaraq dedi: “Çıxışıma Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin Məşvərət Şurasının və həmkarım İsmail Serageldinin adından Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə həm bu təşəbbüsün başlanmasına, həm də onun davamlı şəkildə inkişafına verdiyi dəstəyə görə təşəkkür sözləri ilə başlamaq yerinə düşər. Cənab Prezident dünyanın müxtəlif dövlətlərindən artan sayda liderlərin, fərqli fikir daşıyan insanların birləşməsi üçün çox neytral və dostcasına bir mühit yaratmağa dəstək göstərmişdir, qapıları açmışdır”.

***

Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru **Tedros Adhanom Qebreyesus**




çıxışında COP29 kimi mühüm beynəlxalq tədbirə ev sahibliyi etdiyinə görə Azərbaycana təşəkkürünü bildirərək dedi: “Mən buraya bir neçə ay öncə COP29 üçün gəlmişdim və qısa müddət sonra bu cür yaxşı təşkil olunmuş tədbirə ev sahibliyi etdiyinə görə Prezident Əliyevi təbrik edirəm. Lakin Zati-aliləri, ən vacibi isə mən əldə edilmiş əhəmiyyətli nəticələrə görə Sizi təbrik edirəm. Hamımız bilirik ki, danışıqlar asan deyildi, lakin nəticədə iqlim maliyyəsi, qabaqlayıcı və uyğunlaşma tədbirləri üçün mühüm öhdəliklər müəyyən olundu. Qısa desək, bu, elə çoxtərəflilikdir. Ümumi problemlərlə bağlı dövlətlər ümumi həll variantlarının tapılmasında bir araya gəldilər”.

***

BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi **Migel Anxel Moratinos** dünya düzənini təhdid edən problemlərin müza-




kirəsi və həlli baxımından XII Qlobal Bakı Forumunu mühüm platforma adlandıraraq bildirdi: “Yenidən Bakıda olmaq hər zaman böyük məmnuniyyət hissi doğurur və mən bu fürsətə görə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə təşəkkür edirəm.

Mən çıxışıma dünən məni qəbul etdiyinə və bir çox mühüm məsələlərin konstruktiv müzakirəsinə görə Zati-aliləri Prezident İlham Əliyevə təşəkkürümü bildirməklə başlamaq istərdim. Zati-aliləri, bu dəfə Bakıya səfərimin qısamüddətli olmasına baxmayaraq, iş cədvəlinizin sıxlığına vaxt taparaq məni qəbul etdiyinizə görə təşəkkür edirəm”.

***

BMT-nin Ticarət və İnkişaf Konfransının (UNCTAD) Baş katibi **Rebeka Qrinspan** son dövrlər sürətlə inkişaf edən süni zəkanın, yeni innovasiyaların qeyri-bərabər paylanma-




sına diqqət çəkdi və Azərbaycan hökumətinin bu istiqamətdə də dialoq üçün dəstəyinə görə minnətdarlığını ifadə edərək dedi: “Dəyərli həmkarlar, xanımlar və cənablar. Əvvəlcə cənab Prezident, belə bir Forumu təşkil etdiyinizə görə təşəkkürümü bildirirəm. Cənab Prezident, bu gün bizimlə burada olmağınıza görə Sizə təşəkkürümüzü bildiririk. Biz, əslində, Sizin, hökumətinizin güclü dəstəyini hiss etdik. Biz, həmçinin burada ticari sahədə də bəzi addımların atılmasını birgə düşündük. Düşünürük ki, ümumiyyətlə, problemlərin aradan qaldırılmasında da, ticarətdə də bu sahədə addımların atılması vacib olar. Buna görə Sizə təşəkkürümüzü bildiririk və burada olmağımıza çox məmnunuq”.

***

BMT-nin Cenevrədəki ofisinin Baş direktoru **Tatyana Valovaya** vurğuladı ki, XII Qlobal Bakı Forumu beynəlxalq sülh və təhlükəsizliyin təmini üçün mühüm tədbirdir. O




qeyd etdi: “Mən səmimi-qəlbdən Zati-aliləri Prezident Əliyevə bizə göstərilmiş qonaqpərvərliyə, verdiyi dəstəyə və qlobal dəyişikliklər üçün bu dialoq platformasını qurduğuna görə təşəkkürümü bildirirəm. Gözəl Bakı şəhərində olmaqdan məmnunuq. Mən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə də XII Qlobal Bakı Forumunu təşkil etdiyinə görə minnətdaram və bildiyimiz kimi bu tədbir hər il keçirilir”.

***

Beynəlxalq Enerji Agentliyinin icraçı direktoru **Fatih Birol** çıxışında enerji təhlükəsizliyi və iqlim dəyişmələri məsələlərinə




diqqət çəkdi və Azərbaycanı Avropanın, eləcə də digər ölkələrin enerji böhranının həllində etibarlı tərəfdaş adlandıraraq bildirdi: “Bir çox ölkələr enerji böhranı zamanı bir daha anladılar ki, Azərbaycan etibarlı və etimadı doğuran tərəfdaşdır. Bu, bir daha sübuta yetirildi. Mən ümid edirəm ki, Azərbaycandan Avropaya qaz ixracı gələcəkdə artacaq. Mən, həmçinin ümid edirəm ki, Azərbaycanın “yaşıl” dəhliz gündəliyi – Qara dənizin dibi ilə Avropaya gedən elektrik enerji kabeli layihəsi uğurlu olacaqdır”.

***

Sonda çıxış edən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri **İsmail Serageldin** bildirdi ki, XII Qlobal Bakı




Forumu dünyanın aparıcı liderlərini, beynəlxalq təşkilatların nümayəndələrini və alimlərini açıq, məzmunlu diskussiyalar üçün bir araya gətirən mühüm platformadır. “Biz burada çox müxtəlif mövzular ətrafında bir-birindən fərqlənən rəyləri eşitdik və eşidəcəyik. Dəyərli iştirakçıların burada olması bizə körpüləri salmaq, bu məsələləri təhlil etmək imkanı yaradacaqdır. Əlbəttə ki, ənənəvi Qlobal Bakı Forumu hər zaman öz rəylərinin şaxələndirilməsi ilə seçilmişdir, o cümlədən rasional arqumentlərin irəli sürülməsi ilə yadda qalmışdır”, - deyə İ.Serageldin fikirlərini yekunlaşdırıb.

***

Qeyd edək ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi qlobal problemlərin həlli yollarını araşdıran və bu barədə dünya ictimaiyyətini məlumatlandıran mühüm beynəlxalq platformaya çevrilib. Məhz bunun nəticəsidir ki, Mərkəzin təşkil etdiyi tədbirlərə maraq ildən-ilə artmaqdadır.

“Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi” mövzusuna həsr olunan budəfəki Forumda dünyanın müxtəlif regionlarından 400-ə yaxın nüfuzlu siyasi xadim, o cümlədən azı 50 fəaliyyətdə olan və sabiq prezident, Baş nazir, həmçinin BMT strukturlarının rəhbərləri, alimlər və ekspertlər iştirak edirlər.

Martın 15-dək davam edəcək XII Qlobal Bakı Forumunda “Geosiyasi dəyişmələr: Məsuliyyətli tərəfdaşlıq rəqabətə qarşı”, “Çoxqütblü dünya üçün multilateralizmə yenidən baxılması” və “Gələcək üçün BMT paktı: Yeni qlobal konsensusun yaradılması” mövzularında panellər təşkil olunacaq. Sülhə və barışığa töhfə verən ictimai xadimə 2025-ci il “Nizami Gəncəvi” Beynəlxalq Mükafatı təqdim ediləcək.

Bundan əlavə, “Sülhə gedən yol”, “Yeni dünya nizamında orta güclər” və “Sülh - münaqişə sonrası yenidənqurma və regional sabitliyin yenidən bərpası” mövzularında panellərlə yanaşı, Yaxın Şərq və Ukrayna-Avropa İttifaqı məsələlərinə həsr olunmuş nahar sessiyaları keçiriləcək. “COP29: Belem üçün sıçrayış – Transformasiyanın sürətləndirilməsi” və “Avropanın gələcəyi” mövzuları gecə sessiyalarında müzakirə olunacaq.

Forumda yeni texnologiyalar, gender və təhlükəsizlik, iqlim dəyişikliyinin təsiri, qlobal səhiyyə böhranları və onların həlli yolları da diqqət mərkəzində olacaq. Xüsusilə, “Yeni dünya üçün yeni texnologiyalar”, “Gender–Təhlükəsizlik–İqlim bağlantısı” və “Qlobal səhiyyə böhranı: Hazırlıq və bərabərlikdə yeni cəbhələr” panelləri bu istiqamətdə vacib mövzuları əhatə edəcək. Forumun ən maraqlı panellərindən biri isə gənclərin fikirlərinə həsr edilən “Gənclər danışsın, biz dinləyək” mövzusunda təşkil olunacaq.

***AZƏRTAC***

# Prezident İlham Əliyevin Albaniya Prezidenti ilə fikir mübadiləsi



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də Albaniya Respublikasının Prezidenti Bayram Beqay ilə görüşüb.**

İlk növbədə COP29-un Azərbaycanda uğurla keçirilməsi münasibətilə dövlətimizin başçısına təbriklərini çatdıran Bayram Beqay bu tədbir çərçivəsində aparılan danışıqlar prosesində ciddi nailiyyətlər əldə edildiyini və iqlim gündəliyi ilə əlaqədar vacib qərarların qəbul olunduğunu vurğuladı.

Qonaq Azərbaycan ilə Albaniya arasında siyasi əlaqələrlə yanaşı, iqtisadi-ticari, enerji, turizm və digər sahələrdə də əməkdaşlığın uğurla davam etdirildiyini dedi və bu xüsusda TAP layihəsinin əhəmiyyətinə toxundu, Azərbaycanın Albaniyanın qazlaşdırılması istiqamətində həyata keçirdiyi layihədən məmnunluğunu ifadə etdi.

Dövlətimizin başçısı təbriklərə görə təşəkkürünü bildirdi, COP29-a hazırlıq üçün ölkəmizin qısa vaxtı olmasına baxmayaraq, bütün təşkilati işlərin yüksək səviyyədə həyata keçirildiyini vurğuladı. Prezident İlham Əliyev də öz növbəsində COP29-da iqlim gündəliyi ilə əlaqədar olduqca mühüm qərarların qəbul edildiyini məmnunluqla xatırladı.

İkitərəfli münasibətlərə toxunan dövlətimizin başçısı Azərbaycan ilə Albaniya arasında dostluq əlaqələrinin mövcud olduğunu vurğuladı, enerji sahəsində əməkdaşlığın uğurla inkişaf etdiyini dedi, Azərbaycanın Albaniyanın qazlaşdırılması layihəsində iştirakına toxundu.

Söhbət zamanı əməkdaşlığın perspektivləri və ikitərəfli gündəliyə dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Görüşdə XII Qlobal Bakı Forumunun beynəlxalq gündəlikdə duran məsələlərin müzakirəsi baxımından əhəmiyyətinə toxunuldu. Bayram Beqay bu tədbirdə mütəmadi olaraq iştirak etməsini məmnunluqla vurğuladı.

# Bosniya və Herseqovina Rəyasət Heyətinin Sədri ilə görüş



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Jelka Tsviyanoviç ilə görüşüb.**

Prezident İlham Əliyev Bosniya və Herseqovinaya rəsmi səfərini və səfər çərçivəsində Jelka Tsviyanoviç ilə keçirdiyi görüşü, aparılmış müzakirələri məmnunluqla xatırladı.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin XII Qlobal Bakı Forumuna dəvətə görə dövlətimizin başçısına təşəkkürünü bildirən Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri bu Forumun yüksək səviyyədə təşkil olunduğunu, tədbir çərçivəsində qlobal gündəliyə aid mühüm məsələlərin müzakirə edildiyini vurğuladı.

Jelka Tsviyanoviç COP29 zamanı Azərbaycana səfərini və Prezident İlham Əliyevlə görüşünü məmnunluqla xatırladı, COP29 çərçivəsində əldə edilən nailiyyətləri yüksək qiymətləndirdi.

Söhbət zamanı ölkələrimiz arasında iqtisadi-ticari, enerji, mədəniyyət və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığa dair fikir mübadiləsi aparıldı.

# Dövlət başçısı Bolqarıstanın xarici işlər nazirini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də Bolqarıstanın xarici işlər naziri Georq Georqievi qəbul edib.**

Qonaq XII Qlobal Bakı Forumunun əhəmiyyətinə toxunaraq, bu tədbirdə vacib məsələlərin müzakirə olunduğunu vurğuladı.

Georq Georqiev Azərbaycanla Bolqarıstan arasında dostluq münasibətlərinin olduğunu deyərək, əməkdaşlığımızın bu prinsiplər əsasında hərtərəfli inkişaf etdiyini bildirdi. Bu xüsusda, o, ölkələrimiz arasında iqtisadi-ticari, enerji, o cümlədən bərpaolunan enerji, nəqliyyat, mədəniyyət, turizm, insanlararası əlaqələr və digər sahələrdə əməkdaşlıq üçün böyük perspektivlərin olduğunu dedi. Bolqarıstanın xarici işlər naziri Bakı ilə Sofiya arasında birbaşa uçuşların həyata keçirilməsinin vacibliyinə toxundu.

Prezident İlham Əliyev Bolqarıstana rəsmi səfərini və səfər çərçivəsində keçirdiyi görüşləri məmnunluqla xatırladı.

Dövlətimizin başçısı əlaqələrimizin inkişafını qeyd edərək, enerji sahəsində əməkdaşlığa toxundu. Prezident İlham Əliyev Azərbaycan qazının bu gün Bolqarıstan bazarına çatdırılmasının əhəmiyyətini və bunun Bolqarıstanın enerji təminatında rolunu vurğuladı.

Azərbaycanla Bolqarıstanın bərpaolunan enerji sahəsində əməkdaşlığı məsələsi qeyd edildi. Dövlətimizin başçısı, bu xüsusda Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında bərpaolunan enerji layihəsinə Bolqarıstanın da bir tərəfdaş kimi qoşulması münasibətilə təbriklərini çatdırdı. Bu istiqamətdə də ölkələrimiz arasında əməkdaşlıqdan məmnunluq ifadə olundu.

# Beynəlxalq Enerji Agentliyinin icraçı direktoru ilə müzakirə



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də Beynəlxalq Enerji Agentliyinin icraçı direktoru Fatih Birolu qəbul edib.**

Dövlətimizin başçısı əvvəlcə Fatih Birola "Dostluq" ordenini təqdim etdi.

Fatih Birol bu ordenə COP29-da Azərbaycanın sədrliyinə və qlobal iqlim dəyişmələri üzrə irəli sürdüyü təşəbbüslərin təşviqinə verdiyi dəstəyə və səmərəli əməkdaşlığa görə layiq görülüb.

Prezident İlham Əliyev Fatih Birola ölkəmizlə həyata keçirdiyi əməkdaşlığa və COP29-da göstərdiyi dəstəyə görə təşəkkürünü bildirdi.

Fatih Birol da öz növbəsində "Dostluq" ordeni ilə təltif olunmasından böyük qürur hissi duyduğunu dedi.

O, Azərbaycanın Avropanın enerji təhlükəsizliyində mühüm rol oynadığını və etibarlı tərəfdaş olduğunu vurğuladı.

COP29-da əldə olunmuş nəticələr münasibətilə təbriklərini çatdıran Fatih Birol bu tədbirdə çox çətin və mürəkkəb danışıqlar prosesinin aparıldığını dedi və iqlim gündəliyi ilə əlaqədar yaxşı nəticələrin əldə edildiyini diqqətə çatdırdı.

Fatih Birol XII Qlobal Bakı Forumuna dəvətə görə təşəkkürünü bildirərək, bu tədbiri beynəlxalq səviyyədə mühüm məsələlərin müzakirəsi baxımından vacib platforma kimi qiymətləndirdi. O, gələcəkdə də Forumla əməkdaşlıq imkanları ilə bağlı fikirlərini bölüşdü.

Söhbət zamanı qlobal enerji məsələlərinə dair fikir mübadiləsi aparıldı.

# Azərbaycan Prezidentinin ÜST-nin baş direktoru ilə görüşü



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Qebreyesusu qəbul edib.**

Tedros Adhanom Qebreyesus COP29-un Azərbaycanda uğurla keçirilməsi münasibətilə təbriklərini çatdırdı və bu konfrans çərçivəsində əldə olunmuş nəticələri yüksək qiymətləndirdiklərini dedi.

Prezident İlham Əliyev COP29-a hazırlıqla bağlı vaxtın az olmasına baxmayaraq, Azərbaycan tərəfindən bu tədbirin yüksək səviyyədə keçirilməsi üçün bütün zəruri işlərin görüldüyünü qeyd etdi.

Tedros Adhanom Qebreyesus Azərbaycanın Ümumdünya Səhiyyə Təşkilatına verdiyi dəstəyə və könüllü maliyyə töhfələrinə görə təşəkkürünü bildirərək, rəhbərlik etdiyi qurumun Azərbaycanla birlikdə müxtəlif ölkələrdə həyata keçirilmiş layihələrin önəminə toxundu.

Görüşdə Azərbaycanla Ümumdünya Səhiyyə Təşkilatı arasında əməkdaşlıq məsələlərinə, həmçinin BMT strukturlarının gələcək fəaliyyətinə dair fikir mübadiləsi aparıldı.

Söhbət zamanı XII Qlobal Bakı Forumunun və onun gündəliyində duran məsələlərin əhəmiyyəti vurğulandı.

# Azərbaycan liderinin BMT TİK-nin baş katibi ilə söhbəti



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də BMT-nin Ticarət və İnkişaf Konfransının (UNCTAD) baş katibi Rebeka Qrinspanı qəbul edib.**

Rebeka Qrinspan COP29-un ölkəmizdə yüksək səviyyədə keçirilməsi və həmin tədbirdə çox mühüm nəticələrin əldə edilməsi münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdı.

Söhbət zamanı Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin XII Qlobal Bakı Forumunun əhəmiyyətinə toxunularaq, beynəlxalq səviyyəli mühüm məsələlərin müzakirəsi üçün bu tədbirin böyük rol oynadığı vurğulandı.

Görüşdə ölkəmizlə BMT strukturları arasında uğurlu əməkdaşlığın həyata keçirilməsindən məmnunluq ifadə olundu, Azərbaycanın BMT institutlarının fəaliyyətinə verdiyi könüllü maliyyə töhfələri qeyd edildi.

Ölkəmizin 2026-cı ildə Ümumdünya Şəhərsalma Forumuna ev sahibliyi edəcəyi bildirildi, Azərbaycanın Dayanıqlı İnkişaf Məqsədləri sahəsindəki nailiyyətləri yüksək qiymətləndirildi.

*AZƏRTAC*

## Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamə”də, 2021-ci il 11 oktyabr tarixli 1462 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət Dəniz və Liman Agentliyinin Nizamnaməsi”ndə, 2022-ci il 8 sentyabr tarixli 1842 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin Nizamnaməsi”ndə, 2022-ci il 21 oktyabr tarixli 1861 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyinin Nizamnaməsi”ndə və 2022-ci il 21 oktyabr tarixli 1862 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin Nizamnaməsi”ndə dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 1, maddə 41 (Cild I); 2024, № 2, maddə 155, № 6 (I kitab), maddə 654, № 8, maddə 948, № 12 (I kitab), maddə 1287) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

1.1. 5.5.11-ci yarımbəndə “vəsaitin” sözündən sonra “və büdcədənkənar vəsaitin” sözləri əlavə edilsin;

1.2. 5.5.11-1-ci yarımbəndə “sərəncamçısı” sözündən əvvəl “, habelə Nazirliyin strukturuna daxil olmayan tabeliyindəki qurumların gördüyü işlərdən (göstərdiyi xidmətlərdən) əldə olunan gəlirlərin” sözləri əlavə edilsin.

**2.** Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 11 oktyabr tarixli 1462 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 10, maddə 1106 (Cild I); 2024, № 2, maddə 150) ilə təsdiq edilmiş “Dövlət Dəniz və Liman Agentliyinin Nizamnaməsi”nin 5.4-cü bəndinə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Agentliyin sərəncamında qalan vəsaitdən Nazirlik əməkdaşlarının vəzifə maaşlarına əlavə və mükafatların verilməsi üçün ayırmalar nəzərdə tutulur.”.

**3.** Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 8 sentyabr tarixli 1842 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1031 (Cild I); 2024, № 8, maddə 948, № 11, maddə 1199) ilə təsdiq edilmiş “Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin Nizamnaməsi”nin 5.4-cü bəndinə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Agentliyin sərəncamında qalan vəsaitdən Nazirlik əməkdaşlarının vəzifə maaşlarına əlavə və mükafatların verilməsi üçün ayırmalar nəzərdə tutulur.”.

**4.** Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 21 oktyabr tarixli 1861 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 10, maddə 1138 (Cild I) ilə təsdiq edilmiş “İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyinin Nizamnaməsi”nin 5.4-cü bəndinə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Agentliyin sərəncamında qalan vəsaitdən Nazirlik əməkdaşlarının vəzifə maaşlarına əlavə və mükafatların verilməsi üçün ayırmalar nəzərdə tutulur.”.

**5.** Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 21 oktyabr tarixli 1862 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 10, maddə 1139 (Cild I) ilə təsdiq edilmiş “İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin Nizamnaməsi”nin 5.4-cü bəndinə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Agentliyin sərəncamında qalan vəsaitdən Nazirlik əməkdaşlarının vəzifə maaşlarına əlavə və mükafatların verilməsi üçün ayırmalar nəzərdə tutulur.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 13 mart 2025-ci il**

## Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında ticarət-iqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq üzrə Müştərək Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında” 2008-ci il 23 may tarixli 2834 nömrəli, “Azərbaycan Respublikası Hökuməti və Macarıstan Respublikası Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında” 2009-cu il 16 yanvar tarixli 118 nömrəli və “Azərbaycan Respublikası Hökuməti və Monteneqro Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında” 2013-cü il 7 mart tarixli 2784 nömrəli sərəncamlarında dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** “Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında ticarət-iqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq üzrə Müştərək Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 23 may tarixli 2834 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 5, maddə 423 (Cild I) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. “əmək və əhalinin sosial müdafiəsi” sözləri “maliyyə” sözü ilə əvəz edilsin;

1.2. “Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini” abzasından sonra aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

“Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini”.

**2.** “Azərbaycan Respublikası Hökuməti və Macarıstan Respublikası Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 16 yanvar tarixli 118 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 1, maddə 18 (Cild I) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. “əmək və əhalinin sosial müdafiəsi” sözləri “maliyyə” sözü ilə əvəz edilsin;

2.2. “Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini” abzasından sonra aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

“Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini”.

**3.** “Azərbaycan Respublikası Hökuməti və Monteneqro Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 7 mart tarixli 2784 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 3, maddə 290 (Cild I) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. “əmək və əhalinin sosial müdafiəsi” sözləri “maliyyə” sözü ilə əvəz edilsin;

3.2. “Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini” abzasından sonra aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

“Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini”.

**4.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1–3-cü hissələri ilə edilən dəyişikliklər barədə qarşı tərəflərə müvafiq bildirişlər göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 13 mart 2025-ci il**

# Roma Papası Fransisk Həzrətlərinə

**Zati-müqəddəsləri,**

Tacqoyma Gününüz münasibətilə Sizə və Sizin simanızda bütün həmməzhəblərinizə şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasında əlaqələrin bugünkü səviyyəsi məmnunluq doğurur. Mədəniyyətlər və dinlər arasında ahəngdar münasibətlərin təşviqinə, humanizm ideallarının təntənəsinə yönəlmiş əməkdaşlığımız gündən-günə yeni məzmunla zənginləşir və daha da möhkəmlənir.

Müqəddəs Taxt-Tac ilə əməkdaşlığımızın inkişafına, səmimi dialoqumuzun genişlənməsinə Sizin verdiyiniz şəxsi töhfəni yüksək qiymətləndirirəm. Nümunəvi dözümlülük mühitinin və multikulturalizm ənənələrinin hökm sürdüyü Azərbaycanın dünyada insanlar arasında qarşılıqlı anlaşmanın təşviqində oynadığı rolunu daim təqdir etməyinizə görə Sizə minnətdaram.

Əminəm ki, Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasında əlaqələr bundan sonra da sivilizasiyalararası və dinlərarası dialoqun genişlənməsinə, multikulturalizm dəyərlərinin qorunub saxlanmasına və möhkəmlənməsinə, dünyada sülhün və

əmin-amanlığın bərqərar olmasına xidmət edəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, uzun ömür, xeyirxah və müqəddəs missiyanızda uğurlar diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 12 mart 2025-ci il**

# Qlobal Bakı Forumunda rəqabətə qarşı məsuliyyətli tərəfdaşlıq müzakirəsi






**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə Bakıda keçirilən “Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi” mövzusunda XII Qlobal Bakı Forumu işini panel iclaslarla davam etdirir.**

Martın 13-də Gürcüstanın Baş nazirinin sabiq müavini Eka Tkeşelaşvilinin moderatorluğu ilə keçirilən “Geosiyasi dəyişmələr: Məsuliyyətli tərəfdaşlıq rəqabətə qarşı” adlı panel iclasında əvvəlcə Avropa İttifaqı Şurasının sabiq Prezidenti, Belçikanın keçmiş Baş naziri Şarl Mişel çıxış edib. İlk baxışda çağırışlara diqqət yetirilməsinin vacibliyini vurğulayan Ş.Mişel bildirib: “Mənim vəzifəyə başladığım ilk beş ilin əvvəli COVID-19 pandemiyası dövrünə təsadüf etdi. Bu da müxtəlif çətinliklərə gətirib çıxardı. O zaman qərarların qəbul edilməsi asan deyildi. Həmin illərdə peyvəndlərin vaxtında çatdırılmasına çalışırdıq. Daha sonra Rusiya–Ukrayna müharibəsi başladı. İlk olaraq Ukraynaya kömək etməyə çalışdıq”.









Ş.Mişel deyib ki, biz çoxqütblü dünyaya hərtərəfli dəstəyimizi göstərməliyik. Avropalılar özlərinə heç vaxt olmadığı qədər inamla yanaşmalıdırlar. Biz birləşdiyimiz zaman güclü olarıq. Çünki bu, bizim gələcəyimizlə bağlıdır.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev çıxışı zamanı bildirib ki, ölkə olaraq biz baş verən prosesləri diqqətlə izləyirik. İlk növbədə, qütbləşmənin artdığını müşahidə edirik. Çoxtərəfli diplomatiya bu kontekstdə böyük əhəmiyyət daşıyır. Eyni zamanda, parçalanma meyilləri və Şərq–Qərb qarşıdurmasının dərinləşməsi nəzərə çarpır. Cənubi Qafqaz regionu böyük güclərin maraqlarının toqquşduğu məkandır və bu proseslər hər zaman bizim maraqlarımıza uyğun olmaya bilər.

O qeyd edib ki, Ermənistan-Azərbaycan müharibəsi regionda yeni reallıqlar formalaşdırıb. Azərbaycan Cənubi Qafqazda ölkələrin ərazi bütövlüyünə və suverenliyinə əsaslanan yeni status-kvonun əsasını qoyub. “Bu region bizə məxsusdur və biz transformasiyanın düzgün istiqamətdə irəliləməsinə çalışmalıyıq. Ümid edirik ki, Ermənistan da bunu dərk edəcək. Hazırda Azərbaycan sülh müqaviləsi danışıqlarının aparıldığı bir mərhələdədir. Ermənistan tərəfi tam şəkildə Azərbaycana qarşı iddialı olmalı deyil”, - deyə Prezidentin köməkçisi diqqətə çatdırıb.

Hikmət Hacıyev bildirib ki, Avropa İttifaqının bizim regionla bağlı yeni siyasətini görmək istəyirik. Ermənistanın silahlandırılması parçalanmanın yeni elementi ola bilər.

Postsovet erasından sonra yeni reallıqların göz qabağında olduğunu deyən Prezidentin köməkçisi Azərbaycanın buna etibarlı şəkildə yanaşdığını qeyd edib.

“Biz gözləmirik ki, kimsə dünya düzənini formalaşdırsın. Biz regionla bağlı həmfikir olan ölkələri birləşdirməyə çalışırıq. Azərbaycan qonşuluqda baş verən hadisələrdən xəbərdardır. Rusiya–Ukrayna müharibəsi, Yaxın Şərqdə baş verənlər məlumdur. Bu reallıqları nəzərə alaraq biz xarici siyasətimizdə Mərkəzi Asiya–Azərbaycan əlaqələrini gücləndirməyə çalışırıq. Bizim bu ölkələrlə tarixi bağlılığımız var. Həmçinin Türk Dövlətləri Təşkilatı yeni reallıqdır. Gürcüstan–Azərbaycan əməkdaşlığı erməni həmkarlar üçün də nümunə ola bilər. Xəzər dənizi bizi ayırmır, birləşdirir”, - deyə o əlavə edib.

Latviyanın sabiq Prezidenti, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri Vayra Vike-Freyberqa çağdaş dünyada populizm önə çıxdığını, hazırda məntiqsiz arqumentlərə malik liderlərin çıxışlarının yayıldığını bildirib, bunun çox təəssüfedici hal olduğunu qeyd edib.

Paneldə çıxış edən Türkiyə Böyük Millət Məclisinin üzvü, sabiq xarici işlər naziri Mövlud Çavuşoğlu qlobal tarixin kəsişən nöqtəsində yaşadığımızı deyərək bildirib ki, bu dəyişikliklər təkcə nəzəri deyil, həmçinin real vaxtda ərsəyə gəlməkdədir.

İkinci Dünya müharibəsindən sonrakı düzənin hələ də tam başa çatmadığını söyləyən Mövlud Çavuşoğlu qeyd edib: “Lakin biz qəbul etməliyik ki, 80 il yaşadığımız dövr artıq dəyişir. Türkiyə olaraq düşünürük ki, əvvəlkindən fərqli olaraq Rusiya–ABŞ-dan çox, Çin–ABŞ rəqabətini görəcəyik. Parçalanmış dünyada yeni güclər səhnəyə çıxmaqdadır. Bu məsələlər qlobal Qərb tərəfindən başa düşülməlidir. Biz ən azından gözləntiləri başa düşməliyik. Əvvəlki sistem hələ tam dağılmayıb. Biz islahatlar apararaq hamının iştirakı ilə yeni sistem qurmalıyıq. Əməkdaşlıq çərçivəsində münasibətləri dəyişməliyik”.

Çinin Avropa məsələləri üzrə xüsusi nümayəndəsi Vu Honqbo isə hazırda çoxqütblü dünya haqqında danışıldığını vurğulayaraq deyib: “Çoxqütblülər arasında çaşqınlıq və yaxud xaosla üzləşmişik. Bu yaxınlarda BMT 80 illik yubileyini qeyd edəcək. Hamı gələcəyi necə qurmaqla bağlı tarixə baxmalıdır. BMT fəaliyyətini davam etdirməli, yoxsa dayandırmalıdır? Biz çarxı yenidən icad etməməliyik. Hesab edirəm ki, BMT-nin effektivliyini təmin etməklə onu saxlamalıyıq”.

O bildirib ki, qlobal səviyyədə idarəçilik dəyişməlidir: “Çoxqütblü dünya kiminsə ideyası, xülyası deyil. Çin inanır ki, ABŞ-la həm dost, həm də tərəfdaş ola bilər. Sadəcə, böyük güclər özlərini böyük kimi aparmalıdır. Biz tarixi ədaləti bərpa etməliyik, xüsusilə Afrika ölkələrinə qarşı”.

ARTOC İnvestisiya və İnkişaf Qrupunun sədri və icraçı direktoru Şafik Qabrinin fikrincə, onların nəsli dünyanı daha gözəl bir məkana çevirməkdə uğursuz olub. Lakin gənc nəsil Qərblə Şərq arasında körpülər qurur. Həm nikbin, həm də realist olduğunu vurğulayan Şafik Qabri bildirib: “Geosiyasi dəyişikliklər tarix boyu daim baş verib. İkinci Dünya müharibəsi, “soyuq müharibə”, pandemiya – bütün bu hadisələr dünyamızı dəyişib. Lakin hazırda proseslər daha da qütbləşir. Bəzi qüvvələr media vasitəsilə təsir göstərməyə çalışır. Yumşaq gücün təsiri azalır, möhkəm güc isə güclənir”.

Şafik Qabrin beynəlxalq təşkilatların əsas zəifliyinin onların daha çox hərbi xərclərlə bağlı müzakirələr aparmasında olduğunu vurğulayıb. “Anlamalıyıq ki, geosiyasi dəyişikliklər baş verdikcə geoiqtisadiyyat da dəyişəcək. Bu, bütün dünyaya təsir göstərəcək. Əgər geosiyasət sabit deyilsə, geoiqtisadiyyat da sabit olmayacaq”, - deyə o əlavə edib.

Yunanıstan Baş nazirinin nümayəndəsi, Avropa İttifaqı (Aİ) Komissiyasının Miqrasiya, daxili işlər və vətəndaşlıq üzrə keçmiş komissarı, Yunanıstanın keçmiş xarici işlər və milli müdafiə naziri Dimitris Avramopoulos diqqətə çatdırıb ki, Avropa İttifaqında bir çox məsələlərdə birlik yoxdur və bu, onları parçalayır, millətçiliyi genişləndirir. Avropa ekzistensial böhrandadır.

Paneldə bir neçə münaqişə barədə danışdıqlarını qeyd edən Dimitris Avramopoulos Avropada 400 milyon insanın miqrant olduğunu diqqətə çatdırıb.

O, Azərbaycanı da sabitləşdirici amil adlandıraraq Qlobal Bakı Forumunun dünyada ən böyük tədbirlərdən birinə çevrildiyini bildirib.

Dimitris Avramopoulos BMT-nin əvvəlki kimi güclü olmadığını, dərin böhran yaşadığını diqqətə çatdıraraq deyib: “Ümid edirəm ki, təşkilat tezliklə bu böhrandan çıxa biləcək”.

Panel mövzu ətrafında müzakirələrlə davam edib.

***XQ***

# Qlobal Bakı Forumu: Çoxqütblü dünya üçün multilateralizmə yenidən baxılması




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə Bakıda keçirilən "Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi" mövzusunda XII Qlobal Bakı Forumu işini panel iclaslarla davam etdirir.**

Belçikanın sabiq Baş naziri İv Lötermin moderatorluğu ilə keçirilən "Çoxqütblü dünya üçün multilateralizmə yenidən baxılması" adlı panel iclasında əvvəlcə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Baş direktoru Tedros Adhanom Qebreyesus çıxış edib. O, ABŞ-ın ÜST-dən çıxmasını itki olaraq qiymətləndirərək deyib: "Təcrid olmaq bir seçim deyil. Beynəlxalq əməkdaşlıq vacibdir. Yeganə imkan birgə mübarizədir. ABŞ inkişafa dəstəyin 30 faizini ödəyir. Odur ki, bu maliyyənin ödənilməməsi səhiyyəyə təsir göstərəcək. Məsələn, Qazanılmış İmmunçatışmazlığı Sindromuna (QİÇS) qarşı mübarizəyə və digər sahələrə maliyyə yardımının göstərilməməsi qabaqcıl tədbirlərin görülməməsinə səbəb olacaq. Anbarlarda kifayət qədər dərmanların olmaması, çatdırılmanın gecikməsi müalicəni çətinləşdirir. Burada xüsusilə Afrika qitəsini qeyd etmək lazımdır. Yeddi yüzdən çox laboratoriyanın fəaliyyətini dayandırmalı olacağıq".

Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov beynəlxalq münasibətlər sisteminin yeni mərhələdən keçdiyinə diqqət çəkib: "Geosiyasi dəyişikliklər, daha geniş münaqişələr müşahidə olunur. Məhz bu sahədəki böhran çağırışlarının həll variantlarının tapılması olduqca vacibdir. Bir çox təsisatlar təsirli yanaşmalar tətbiq etməyə çalışırlar. Gücün tətbiqindən əl çəkmək, tərəfləri daha çox bir araya gətirmək istəyirlər".

Nazir bildirib ki, çoxqütblülük qlobal səviyyədə güclərin dəyişməsi, tarazlığın bərpası deməkdir. Dövlətlər ideoloji baxımdan daha sıx işləməyə çalışırlar. İkitərəfli razılaşmalara daha çox üstünlük verilir, nəinki daha böyük razılaşmalara.

"Azərbaycan münaqişələrə və çağırışlara baxmayaraq, tərəfdaşlarla əməkdaşlıq edir. Biz bərabərliyi üstün tuturuq. Azərbaycan çoxtərəfli münasibətlərə önəm verir. Bütün beynəlxalq təşkilatlarla əlaqələr qururuq. Biz milli maraqlarımızı müdafiə edirik, eyni zamanda, digərlərinin maraqlarına hörmət bəsləyirik", - deyə nazir əlavə edib.

Finlandiyanın sabiq Prezidenti Tarya Halonen çoxqütblü dünyanın hər kəs üçün vacib olduğunu bildirərək vurğulayıb: "Düşünürəm ki, Təhlükəsizlik Şurasının tərkibi daha çoxşaxəli olmalıdır. Hazırda bütün dünyada gedən dəyişikliklər olduqca mürəkkəbdir".

İspaniyanın sabiq xarici işlər naziri Ana Palasio isə sülhə nail olmağın yolunun qarşılıqlı məsləhətləşmələr olduğunu deyib. Onun sözlərinə görə, çoxqütblülük mövzusunun müzakirə edilməsi olduqca vacib məsələdir.

"Bir çox məsələlər müzakirə olunur. Ancaq əsas düşündürücü məqam bütün proseslərin başlama səbəbidir. İnsanlar süni intellekt, kosmos və insan irqi barədə narahatdırlar. Çalışmaq lazımdır ki, narahatlıq yaradan problemlərin həll yolları axtarılsın. Bu səbəbdən Qlobal Bakı Forumunun çox əhəmiyyətli platforma olduğunu düşünürəm", - deyə o əlavə edib.

BMT Baş Assambleyasının 62-ci sessiyasının sədri, Şimali Makedoniyanın keçmiş xarici işlər naziri Srgjan Kerim beynəlxalq münasibətlərdə dərin böhran və tektonik dəyişikliklərin olduğunu xatırladaraq qeyd edib: "Biz əsas diqqətimizi qeyri-tarazlığın necə aradan qaldırılmasına yönəltməliyik. Yeni dünya düzənində güclərin tarazlığı olacaqmı, yoxsa maraqların? Bu, ən vacib iki məqamdır".

O, həmçinin bildirib: "BMT yeganə beynəlxalq universal qurumdur. Onun buraxılması faciəvi səhv olardı. Tarixdən dərs çıxarmalıyıq. Belə bir qurumun mövcud olmaması İkinci Dünya müharibəsinə gətirib çıxardı. Artıq uzun müddətdir ki, BMT-də islahatların aparılmasının vaxtı yetişib. Bu sistem daxilində illərdir həmin istiqamətdə çağırışlar var. Biz əsas diqqətimizi məhz bu məsələyə yönəltməli və sadəcə, çoxqütblü dünyaya uyğunlaşmalıyıq."

Ərəb Liqasının sabiq Baş katibi, Misirin sabiq xarici işlər naziri Amr Musa beynəlxalq münasibətlərdə ünsiyyətin, qarşılıqlı əməkdaşlığın önəmini xatırladaraq vurğulayıb: "Mən səmimi-qəlbdən ümid edirəm ki, hazırda dünyadakı geosiyasi vəziyyəti olduğu kimi görürsünüz. Bu, gələcəyin gündəmidir. Beynəlxalq sülhə və təhlükəsizliyə təhdidlər birbaşa müharibələrlə əlaqəlidir".

"Reinventing Bretton Woods" Komitəsinin təsisçisi və icraçı direktoru Mark Uzan son 30 ildə qlobal maliyyə sisteminin bir çox maliyyə böhranı ilə üzləşdiyini bildirərək deyib: "İlk böhran ötən əsrdə başladı. Meksika böhranını xatırlaya bilərsiniz, sonra Kanada maliyyə böhranı gəldi və nəhayət, 2008-ci ilin böyük qlobal maliyyə böhranı baş verdi. Bütün bu böhranlar beynəlxalq əməkdaşlıq mexanizmi sayəsində həll edildi", - deyə o diqqətə çatdırıb.

Renmin Universitetinin Avropa Araşdırmaları Mərkəzinin direktoru Vanq Yivei isə çoxtərəfliliyi dəstəkləməyin vacibliyini vurğulayıb. O qeyd edib ki, bu, təkcə bir proses deyil, həm də əldə olunan nəticələrə əsasən daha çox üstünlük verilməli yanaşmadır.

"Çin də eyni mövqedədir və biz çoxtərəfliliyin tərəfdarıyıq. Çində biz deyirik ki, hər şey xalqa xidmət üçündür", – deyə o diqqətə çatdırıb.

Vanq Yivei, həmçinin əlavə edib: "Suriyadan Avropaya axın edən qaçqınların sayına baxdıqda, bunun müxtəlif yan təsirlərlə bağlı olduğunu görürük. Biz dünyada bir ailə kimi yaşamalıyıq".

Panel mövzu ətrafında müzakirələrlə davam edib.

***XQ***

# "Ermənistan sülh istəyirsə, məhkəmə ilə əməkdaşlıq etsin"

**Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin mətninin və təşəbbüsünün müəllifi Azərbaycan Respublikasıdır. Bu, məhz Azərbaycan tərəfindən Ermənistana təqdim olunub. Ancaq nəzərə almaq lazımdır ki, Ermənistanın Azərbaycana qarşı törətdiyi insanlıq əleyhinə cinayətlər və digər əməllər yaddan çıxacaq faktlar deyil. Bütün bunlar ümumi kontekstdə nəzərdən keçirilməlidir.**




Bu fikirləri XII Qlobal Bakı Forumunda jurnalistlərə açıqlamasında Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib.

O qeyd edib ki, Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları hələ də davam edir. "Prezident İlham Əliyev tərəfindən də vurğulandığı kimi, Ermənistanın konstitusiyasında dəyişməli olan məqamlar var. Məhz bu regionda davamlı sülhün bazasını və əsasını təmin etməlidir. Nəzərə almaq lazımdır ki, dövlətlərarası münasibətlərdə, münaqişələrin həllində ölkələrin konstitusiyasının dəyişdirilməsi birinci hal deyil və bu xüsusda bir sıra nümunələr mövcuddur", - deyə Prezidentin köməkçisi vurğulayıb.

Hikmət Hacıyev jurnalistlərə açıqlamasında Azərbaycan xalqına qarşı cinayət əməlləri törətməkdə ittiham olunan şəxslər barədə də danışıb. O bildirib ki, hazırda Bakıda Azərbaycan xalqına qarşı müharibə cinayətləri və insanlıq əleyhinə cinayət əməlləri törətməkdə ittiham olunan şəxslərin məhkəmə prosesi həyata keçirilir və onlar ədalət məhkəməsi qarşısında cavab verirlər. Bu, Azərbaycan xalqının uzun müddətdir gözləntisi və haqlı tələbi idi. Xüsusilə ədaləti Azərbaycan Respublikası özü təmin etmiş olur.

Prezidentin köməkçisi Ermənistan rəhbərliyinin bu məhkəməyə qarşı bütün resurslarını səfərbər edərək lazımsız bir təbliğat kampaniyası apardığını bildirərək qeyd edib: "Onların havadarları, Avropa Parlamentində Ermənistanın maraqlarını təmsil edən müxtəlif lobbi qrupları Azərbaycana qarşı yeni qətnamə layihəsi qəbul etmək fikrindədirlər. Bütün bunlar xüsusilə məhkəmə ilə əlaqədardır".

O bildirib ki, bu məhkəmədə mühakimə olunan şəxslər qanun qarşısında cavab verirlər. İnsanlıq əleyhinə və müharibə cinayətləri törətmiş şəxslərin azadlığa buraxılmağa çağırılması, onların əsir və girov adlandırılması beynəlxalq münasibətlərə, insanlığa qarşı bir təhqirdir və qəbuledilməz haldır. Onların mühakiməsi davam etdiriləcək.

"Amma bunun əksinə olaraq, Ermənistandan gözləntimiz odur ki, əgər regionda ədalətli sülhün təmin olunmasını istəyirsə və bunda maraqlıdırsa, məhkəmə ilə yaxından əməkdaşlıq etsin. Ermənistanın ərazisində olan, Azərbaycan xalqına qarşı insanlıq əleyhinə cinayət əməlləri törətmiş, hərbi cinayətlər törətmiş şəxslər var ki, onların da istintaqa və məhkəmə prosesinə cəlb edilməsinin təmin olunması həyata keçirilməlidir", - deyə H.Hacıyev diqqətə çatdırıb.

Ermənistan tərəfin yenə də səmimiyyət nümayiş etdirməyərək Minsk qrupu kimi lazımsız bir alətin saxlanmasına çalışdığını vurğulayan H.Hacıyev bildirib ki, bəzi havadarlarının dəstəyi ilə onlar artıq keçmişin bir aləti olan, hər hansı bir funksiyası olmayan Minsk qrupunun hər bir vəcdə saxlanmasına da cəhd göstərirlər. Minsk qrupuna bu gün heç bir ehtiyac yoxdur, ola da bilməz. Əgər kimsə Minsk qrupunu dirçəltməyə çalışa bilərsə, bunlar yalnız utopik fikirlər ola bilər.

***XQ***

# "Gələcək üçün BMT paktı: Yeni qlobal konsensusun yaradılması"




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə Bakıda keçirilən "Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi" mövzusunda XII Qlobal Bakı Forumunun birinci gününün sonuncu paneli keçirilib.**

Bosniya və Herseqovinanın BMT yanında daimi nümayəndəsi, Bosniya və Herseqovinanın sabiq Baş naziri, Bosniya və Herseqovinanın sabiq Baş nazirinin müavini Zlatko Laqumdziyanın moderatorluğu ilə keçirilən "Gələcək üçün BMT paktı: Yeni qlobal konsensusun yaradılması" adlı panel iclasda Şimali Makedoniya Respublikasının Prezidenti Qordana Silyanovska-Davkova çıxış edib.

Türkiyə Respublikası Prezidentinin milli təhlükəsizlik və xarici siyasət üzrə baş müşaviri Akif Çağatay Kılıc, Beynəlxalq Telekommunikasiya Birliyinin Baş direktorunun müavini Tomas Lamanauskas, Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin (AEBA) Baş direktorunun müavini, Nüvə Elmləri və Tətbiqləri Departamentinin rəhbəri Nəcat Moxtar, BMT 77-ci Baş Assambleyasının Prezidenti Ksaba Korosi, İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibi Əsəd M.Xan, Macarıstanın sabiq Prezidenti Katalin Novak və Dünya Bankının sabiq vitse-prezidenti Hafez Qanem, Sloveniyanın sabiq Prezidenti Borut Pahorun da çıxış etdikləri iclasa BMT Baş katibinin siyasət üzrə müavini Qay Rayder videoformatda qoşulub.

Qay Rayder bildirib ki, BMT-nin Gələcək üçün Paktı beynəlxalq səviyyədə əldə olunan vacib sənəddir. Bu sənəd, habelə onun ehtiva etdiyi Qlobal Rəqəmsal Saziş və Gələcək Nəsillər haqqında Bəyannamə yeni fürsətlərə və istifadə olunmamış imkanlara yol açır. Bu sənəd bütün xalqlar və millətlər üçün davamlı, ədalətli və dinc qlobal nizamın əsasını qoyacaq.

Beynəlxalq Telekommunikasiya İttifaqının (BTİ) Baş direktorunun müavini Tomas Lamanauskas çıxışında deyib: "Biz təmiz enerji həllərini də önə çəkməliyik, çünki süni intellektlə bağlı məlumat mərkəzləri artıq planetimizdə müəyyən gərginlik yaradır". O qeyd edib ki, "BMT və bir sıra təşkilatlar süni zəka, maliyyələşmə və təhlükəsizlik məsələləri kimi sahələrdə birgə işləyə bilmir" fikri formalaşıb. Lakin Azərbaycanın Dayanıqlı İnkişaf Məqsədləri və COP29 çərçivəsində birgə maliyyə fəaliyyəti üzrə əldə olunan irəliləyiş sübut edir ki, BMT və üzv ölkələr, təşkilatlar birgə səylər nəticəsində razılığa gələ bilirlər.

Türkiyə Respublikası Prezidentinin milli təhlükəsizlik və xarici siyasət üzrə baş müşaviri Akif Çağatay Kılıc qeyd edib ki, Türkiyə coğrafi mövqeyinə görə bütün münaqişələrin mərkəzinə çevrilib. Bu gün qonşuluğumuzda olan Qəzza, Ukrayna və münaqişə yaşanan digər bölgələrdə sabitlik çox həssasdır. Ermənistanla Azərbaycan arasında 30 illik müharibə öz həllini tapa bilmirdi. Minlərlə insanlar bu cür münaqişələrdə həyatlarını itirdi. Bu isə münaqişə tərəflərinin bir-birinə etimad göstərməməsindən irəli gəlir.

"Biz öz məsələlərimizi indidən həll etməliyik ki, gələcək nəsillər bu tələdə qalmasınlar", - deyə Akif Çağatay Kılıc əlavə edib.

Nüvə Elmləri və Tətbiqləri Departamentinin rəhbəri Nəcat Moxtar diqqətə çatdırıb ki, Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin bombalarla əlaqəsi yoxdur, bu təşkilat sülh naminə nüvə enerjisi istifadəsini təmin edir. Burada isə elm və texnologiya mühüm rol oynayır. Düşünürəm ki, alimlərin və siyasətçilərin bir masada oturmaları düzgün olardı.

BMT 77-ci Baş Assambleyasının Prezidenti Ksaba Körösi çıxışında qeyd edib ki, geosiyasi çağırışlarla mübarizə aparmaq üçün qurum olaraq adətən sıfır məbləğli oyun (zero-sum game) yanaşmasını tətbiq edirik. Qlobal iqtisadi artımla bağlı böhranları həll etmək üçün isə əməkdaşlığa ehtiyacımız var. Çünki yalnız birlikdə reallıqları və hazırkı vəziyyəti daha yaxşı həll yolu tapmaqla dəyişə bilərik.

İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibi Əsəd M.Xan bildirib ki, mövcud çağırışları və Təhlükəsizlik Şurasının iflic olmasını nəzərə alaraq, Gələcək üçün BMT paktı çox mühüm məsələlərdən biridir. Onun icrası üçün yeni üfüqlər yaradılmalıdır.

Panel iclasda çıxış edən digər natiqlər BMT-nin daha səmərəli fəaliyyəti üçün bütün ölkələrlə sıx əlaqədə və əməkdaşlıq qurulmasının vacibliyini vurğulayıb, dünyada mövcud durumda konstruktiv dialoqun aparılmasının vacibliyini diqqətə çatdırıblar.

***XQ***

# Milli Məclis beynəlxalq təsisatları ədalətli olmağa çağırıb

**Hərbi cinayətlər törətməkdə təqsirləndirilən şəxslərlə bağlı Azərbaycanda keçirilən məhkəmə prosesi ilə əlaqədar Milli Məclis tərəfindən xarici ölkələrin parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının rəhbərlərinə, parlamentlərin beynəlxalq komitələrinin sədrlərinə və beynəlxalq parlament təşkilatlarına məktublar ünvanlanıb.**



Məktublarda Azərbaycanın hərbi cinayətlər törətməkdə təqsirləndirilən şəxslərin məhkəmə prosesini pozmağa cəhd edən əsassız qarayaxma kampaniyası ilə üzləşdiyi qeyd olunub. Həmin şəxslərin Ermənistanın 30 il davam etmiş hərbi təcavüzü çərçivəsində hərbi cinayətlər, bəşəriyyətə qarşı cinayətlər, etnik təmizləmə, hərbi təcavüz, soyqırımı aktları, işgəncələr və digər ağır cinayətlər törətməkdə ittiham olunduqları diqqətə çatdırılır.

Bu məsələ ilə bağlı irəli sürülən yalan iddiaların məhkəmənin legitimliyini şübhə altına almaq məqsədi daşıdığı vurğulanaraq qeyd edilir ki, hərbi cinayətkarları "hərbi əsir" adlandırmaq və onların azad olunmasını tələb etmək vəziyyətin mahiyyətini bilməməkdən və ya onu qəsdən görməzdən gəlməkdən qaynaqlanır.

Məktublarda deyilir ki, aparılan istintaq zamanı Ermənistanın və onun hərbi-siyasi rəhbərliyinin hərbi təcavüz və işğala görə məsuliyyət daşıdığını sübut edən mühüm faktlar aşkar olunub.

Eyni zamanda, bildirilir ki, bəzi siyasətçilərin, parlament üzvlərinin və media nümayəndələrinin əsassız iddialarına baxmayaraq, bu şəxslərin vəkil tutmaq hüququ tam təmin edilir, onlara qarşı hər hansı pis rəftar barədə heç bir şikayət daxil olmayıb və məhkəmə prosesləri tam şəffaf şəkildə aparılır.

Yekunda vurğulanır ki, Azərbaycanın ərazisində müharibə cinayətkarlarının ədalətli mühakiməsinə qarşı çıxanlar açıq şəkildə etnik təmizləməni, işğalı və təcavüzü dəstəkləyirlər. Ədalət olmadan sülh mümkün deyil və ədalət yalnız cəzasızlıq sona çatdırıldıqda bərqərar ola bilər.

***XQ***

# Azərbaycan–Ermənistan: sülh müqaviləsindən danışmaq tezdir

(əvvəli 1-ci səhifədə)



44 günlük müharibədən ötən hər il Ermənistanın sülh yolundakı davamlı manipulyasiyaları ilə yadda qalıb ki, bu, haqqında söz açdığımız etimad mühitinin formalaşmasına ciddi əngəl törədib. Əslində, Ermənistan Xarici İşlər Nazirliyinin verdiyi tez-tələsik bəyanat da rəsmi İrəvanın fürsətcilliyindən qaynaqlanır. Belə yanaşma qətiyyən yolverilməzdir, məsuliyyətsizlikdir. Rəsmi İrəvan primitiv gedişlərlə Azərbaycanın çıxılmaz vəziyyətdə qoymağa hesablanmış hərəkətlərdən uzaq durmalıdır.

Bəli, sülh fundamental olmalıdır. Bunun üçün danışıqların hərtərəfli nəticəlilik amili şərtdir. Konkret nəticə əldə olunmadan regionun ictimai fikrini çaşdırmaq cəhdləri, hətta ilk baxışdan pozitiv təsir bağışlayan bəyanat və açıqlamalar qəbuledilməzdir. Nəzərə alaq ki, cəmi 15 maddədən ibarət sənədin razılaşdırılması o demək deyil ki, sənəd imzalanmaya tam hazırdır. Çünki razılaşdırılmamış prinsipial məqamlar da var.

Azərbaycan tərəfi həmin prinsipial məqamları hər zaman diqqətə çatdırıb. Prezident İlham Əliyev də dünənki açıqlamasında bildirdi ki, Ermənistan konstitusiyası dəyişməlidir. Buna xüsusi diqqət yetirilməlidir. Məsələ ondadır ki, erməni ana qanunu, ümumən, ölkənin qanunvericilik sisteminə təsirini göstərməkdədir. Ən başlıcası, konstitusiyanın istinad etdiyi Ermənistanın İstiqlaliyyət Bəyannaməsidir. Sənəddə Azərbaycana qarşı ərazi iddiaları qalmaqdadır. Buna son qoyulmalıdır.

Hər bir halda, Ermənistan Azərbaycan ərazisində törətdiyi cinayətlərə görə təzminat ödəməlidir. Nəzərə alınmalıdır ki, xalqımız Xocalını və Ermənistanın təcavüz əməlini özündə daşıyan digər faciələri unuda bilməz. Buna görə də rəsmi İrəvan Bakıda keçirilən və ərazilərimizdə törədilmiş çoxsaylı cinayətlərdə ittiham olunan ermənilərin məhkəməsi ilə əməkdaşlıq etməlidir. Eyni zamanda, Ermənistan rəhbərliyi hazırda ölkə ərazisində olan və dinc azərbaycanlılara qarşı cinayətlər törətməkdə şübhəli bilinən şəxsləri təhvil verməlidir.

Bəli, otuz ilə qədər davam etmiş işğal adi sayıla və qarşılana bilməz. Bu, xalqımızın qan yaddaşına hopmuş yaradır. Ona görə də Azərbaycana işğal cəhdlərinin bir daha təkrarlanmayacağına dair real təminat lazımdır. Təminat həm də gerçək fəaliyyəti işğalın leqallaşdırılmasına yönəlmiş ATƏT-in Minsk Qrupunun rəsmi şəkildə ləğvidir. Bunun üçün Ermənistan Azərbaycanla birlikdə müvafiq müraciət ünvanlamalıdır. Belə bir müraciət rəsmi İrəvanın bir daha təcavüzkarlıq niyyətinə düşməyəcəyinə dair ilkin zəmanətdir. Hesab edirik ki, sülhün fundamentallığı baxımından bu, son dərəcə vacibdir.

Onu da qeyd edək ki, Azərbaycan Xarici İşlər Nazirliyi iki ölkə arasında normallaşma prosesi ilə bağlı bu və digər məsələlər üzrə ikitərəfli dialoqu davam etdirməyə hazır olduğunu vurğulayıb. Nəzərə alaq ki, bu dialoqun da mövzuları var. Məsələn, Naxçıvana maneəsiz yol. Bu, ölkəmizin haqqıdır. Bu, eyni zamanda, Ermənistanın 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatla üzərinə götürdüyü öhdəlikdir. Rəsmi İrəvan öhdəliklərini yerinə yetirməli, Azərbaycanla bütün münasibətlərdə səmimiyyətə əsaslanmış konstruktiv mövqe tutmalıdır. Belə mövqe olmayınca sülh müqaviləsindən danışmaq tezdir.

***R.ƏVƏZ***
***XQ***

# “Marqara planı” və Türkiyə amili

## Ermənistanda səfərdə olan qardaş ölkə jurnalistlərindən “istənilən” nədir?

**Məlumdur ki, Ermənistan – Türkiyə quru sərhədi 1993-cü ildən bağlıdır. O da məlumdur ki, sərhədin bağlı qalma səbəbi birincinin Azərbaycana qarşı işğalçılıq siyasətidir. Daha bir həqiqət isə hazırda Ermənistanın Türkiyə ilə sərhədləri açmaq üçün dəridən-qabıqdan çıxmasıdır. Bu yanaşmada diqqətçəkən  detal var: Rəsmi İrəvan çalışır ki, Ankara ilə münasibətlərini özünün Bakı ilə normallaşma xəttindən tamam ayrı müstəvidə tutsun. Özü də istək yalnız erməni iqtidarının deyil, eyni zamanda, onun xaricdəki havadarlarınındır. Bu, xam xəyaldır və sonda fikrimizin üzərinə gələcəyik.**



Xatırladaq, vaxtilə ermənipərəst dairələr Türkiyə – Ermənistan sərhədlərinin açılması ilə bağlı istəklərini birinciyə hədə-qorxu şəklində gündəmə gətirirdilər. İndi Ankara güclü olduğundan, mövcud istiqamətdə yalnız arzular və eyhamlı açıqlamalar səslənir. Amma mövzumuz  bu barədə deyil. Ermənistan hakimiyyətinin dəvəti ilə ölkəyə gəlmiş türkiyəli jurnalistlərin Marqaraya, yəni Türkiyə – Ermənistan sərhədinin Ermənistan tərəfindəki nəzarət-buraxılış məntəqəsinə səfərinin əsl məqsədindən söz açacağıq.

Əvvəlcə onu deyək ki, Ermənistan baş naziri Nikol Paşinyan ölkəsində səfərdə olan türkiyəli media nümayəndələri ilə görüşüb, onlara müsahibə verib. Yazımız çapa gedərkən, həmin müsahibə ilə bağlı təfərrüatlar meydana çıxmadığından, Nikolun konkret nələrdən söz açdığından xəbərsizik. Ancaq ehtimal böyükdür ki, baş nazir də diqqəti Türkiyə – Ermənistan sərhədinin açılmasına, ümumi planda İrəvanın Ankara ilə münasibətlərinin normallaşmasına yönəldib.

Haşiyə çıxaraq deyək ki, böyük dövlət olan Türkiyənin nəhəng media industriyası var. Qardaş ölkənin kütləvi informasiya vasitələrinin bir çoxu nəinki regionda, bütövlükdə, dünyada məşhurdurlar. Onu da bildirək ki, demokratik ənənələrə malik Türkiyədə ermənidilli qəzet və jurnallar da fəaliyyətdədir. Həmçinin erməni əsilli jurnalistlər qardaş ölkənin media cameəsində təmsil olunurlar ki, ilk baxışdan, burada problem görmürük. Hətta, bəzən türk millətindən olan jurnalistlərin də ermənipərəstliyinə dözümlü yanaşmağa, bir növ, adətkarıq. Hərçənd...

Sözümüz ondadır ki, N.Paşinyan administrasiyasının dəvəti ilə Ermənistana gəlmiş jurnalistlərin səfərdən geri qayıtdıqdan sonra nələri qələmə alacaqlarını demək  çətindir. Birincisi, erməni iqtidarının ölkəyə türkiyəli jurnalistləri çağırmasının, eləcə də tarixdə ilk dəfə erməni rəhbərin türkiyəli jurnalistlərə müsahibə verməsinin səs-küylü təqdimatı var. Bu, Nikol üçün xaricə nümayiş baxımından böyük dividenddir. İkincisi, Ermənistana çağırılmış türkiyəli jurnalistlərin kim olduqlarından, hansı baxışları bölüşdüklərindən xəbərsizik. Deməli, ehtimal etmək olar ki, onlar Türkiyə – Ermənistan münasibətlərinin, belə demək mümkünsə, erməni gündəminin təbliğinə üstünlük verəcəklər. Marqara məhz bu baxımdan mühüm nöqtədir.

Qeyd edək ki, N.Paşinyan bir müddət əvvəl qələmə aldığı məqalədə Azərbaycanla sülh təklifləri, başlıca məsələ sayılan regional kommunikasiyaların blokdan çıxarılması ilə bağlı fikirlərini diqqətə çatdırmışdı. O, bu məsələdə Türkiyə ilə sərhədlərin açılmasına fokuslanmışdı. Baş nazir bildirmişdi ki, rəsmi İrəvan hələ 2022-ci ildə Ermənistan – Azərbaycan sərhədində üç sərhəd-keçid məntəqəsinin açılması ilə bağlı qərar layihəsini dövriyyəyə gətirmişdi. Sən demə, həmin layihə Azərbaycanın yük və minik avtomobillərinin Ermənistana daxil olmasına, oradan Naxçıvana və Türkiyəyə getməsinə imkan verəcəkmiş.

Məsələ bundadır ki, sözügedən təşəbbüsdə Naxçıvanın adı yalnız epizodik şəkildə çəkilir. Nikolun məqaləsində vurğuladıqları da bunun sübutudur. O, muxtar respublikamıza daxil olmaq üçün heç bir infrastruktur olmadığını, onu qurmağın lazımlılığını diqqətə çatdırmış, həmin infrastruktur hazır olanadək başqa yolu təklif etmişdi: “Məsələn, yük maşınları Kornidzor keçid məntəqəsi vasitəsilə, Laçın-Kornidzor hissəsi ilə Ermənistan Respublikasının ərazisinə daxil ola, Ermənistan–Türkiyə sərhədinə qədər yollarımızla hərəkət edərək, Marqara keçid məntəqəsindən Türkiyəyə daxil ola bilərlər. Eyni şey əks istiqamətdə də mümkündür. Bu cür tranzit yüklərin daşınması üçün fiziki infrastruktur hazırdır. De-yure qərar qəbul etmək qalır. Azərbaycan və Türkiyədə maraq olarsa, qərarı qəbul etməyə hazırıq”.

Bəli, Paşinyanın məntiqincə, ölkəmizdən daşınan yüklər Laçından Marqaraya, oradan isə Türkiyəyə yön ala bilərmiş. Ancaq Nikolun bilərəkdən, yaxud bilməyərəkdən nəzərə almadığı bir məqam var. Hazırda Azərbaycandan qardaş ölkəyə Gürcüstan vasitəsilə daşımalar həyata keçirilir. Qazaxdan Sarpa (Gürcüstan–Türkiyə sərhədinə-red.) qədər məsafə 6 saatdır. Laçından Marqaraya məsafə isə 5 saat. Yəni elə bir ciddi fərq yoxdursa, Azərbaycan Türkiyəyə doğru daşımalarda nəyə görə Gürcüstandan yox, Ermənistandan keçidə üstünlük verməlidir? Axı Bakı İrəvanın təhlükəsizlik zəmanətinə etibar edə bilməz. Ancaq Paşinyan məqaləsində bu məsələni də öz aləmində “həll etmişdi”: “Azərbaycanlı sürücülər və yük maşınları üçün psixoloji çətinliklər yaranarsa, o zaman bu yükdaşımalar Ermənistan yollarında həmişə sürmüş və fəal surətdə sürməkdə davam edən Türkiyə TIR-ları tərəfindən təşkil oluna bilər. Digər ölkələrin yük maşınları da eyni şeyi edə bilər”.

Göründüyü kimi, erməni hökumət rəhbərinin primitiv hiyləgərliyi 44 günlük müharibədən sonra formalaşmış regional düzənə meydan oxumaq, onu dəyişdirmək istəyinin daha bir təzahürüdür. O, faktiki olaraq, Azərbaycanın digər əraziləri ilə muxtar respublikamızı birləşdirən yolun regional kommunikasiyaların açılmasında alt mövzu olduğunu vurğulayır. Daha dəqiq desək, onun bildirdiklərinin kökündə dayanan məqsəd Azərbaycanın Naxçıvana quru yolunu kəsmək və ya məhdudlaşdırmaqdır. Nəzərə alaq ki, Nikol quru yolunun ancaq dəmir yolu seqmentinin üzərində dayanmağa üstünlük verir. Bu, azmış kimi, şərt də irəli sürür. Təxminən, belə: Azərbaycanın digər ərazilərindən Naxçıvana Ermənistan vasitəsilə dəmir yolu əlaqəsi olacaqsa, Ermənistanın Mehri rayonundan ölkənin digər hissəsinə – Yerasxa Azərbaycanın Naxçıvan bölgəsindən keçməklə dəmir yolu olmalıdır.

Bir sözlə, N.Paşinyan hər vəchlə çalışır ki, ölkəmizin əsas hissəsi ilə Naxçıvan arasında əlaqə olmasın. Onun Marqara sərhəd-buraxılış məntəqəsi üzrə hərəkət istəyi bundan qaynaqlanır. Deməli, Ermənistanda səfərdə olan türkiyəli jurnalistlərin Marqaraya səfərinin təşkilinin hansı məqsədə hesablandığı aydındır. Onlar mövcud istiqamətdə təbliğat aparmaq üçün çağırılıblar. İrəvanın bu yanaşması da primitiv hiyləgərlikdir. Elə əvvəldə barəsində söz açdığımız xam xəyal budur. Fikrimizi əsaslandırmaq üçün bir çox məqamların, eləcə də Bakı–Ankara tərəfdaşlığının və müttəfiqliyinin, ən əsası qardaşlığının üzərində dayana bilərik. Amma bir vacib məqamı vurğulamaqla yazımızı bitirək. Ermənistan hakimiyyəti unutmamalıdır ki, Türkiyə üçün Azərbaycanla birbaşa quru əlaqəsinə malik olmaq, Ermənistanla sərhədin açılmasından qat-qat əhəmiyyətlidir.

***Ə.RÜSTƏMOV***
***XQ***

(əvvəli 1-ci səhifədə)

Bütün parametrlərinə görə ermənipərəst “kollektiv Qərb”in anti–Azərbaycan kampaniyasına dəstək verdiyi şübhə doğurmayan Avropa Parlamenti ölkəmizə qarşı növbəti dəfə qətnamə qəbul edib. Gözləri hay konyakı ilə pərdələnmiş Avropanın ali qanunverici qurumunun bəzi üzvlərinin heç bir fakta və sübuta söykənməyən, fərdi mülahizələrdən, qərəzli münasibət sərgiləyən bir qrupun hazırladığı belə qətnamələri qəbul etməsi adi hal alıb. Nizamı pozulmuş öz evində qayda-qanun yarada bilməyən, vətəndaşlarının sivil hüquqlarını tapdayan, irqi, dini ayrı-seçkiliyin bütün təzahürlərinin tüğyan etdiyi ölkələrin parlamentarilərinin cəmləşdiyi, Yelisey sarayında əyləşmiş “dirijor”un çubuğu ilə hərəkət edən bu qurum Azərbaycanın daxili işlərinə qarışmağı özünə rəva bilir.

Hay sevdası aşıb-daşan Avroparlament vaxtilə Azərbaycanın tarixi torpaqlarında müharibə cinayətləri, terror aktları törətmiş şəxslərin müdafiəsinə qalxıb. “Qoca qitə”nin ali qanunverici institutunun bu cür davranışı beynəlxalq hüququn norma və prinsipləri ilə ziddiyyət təşkil etməklə yanaşı, açıq-aşkar müstəqil məhkəmənin işinə müdaxilə cəhdidir. Azərbaycan cinayət əməlləri sübuta yetirlimәkdə olan erməniiəsilli şəxslərin məhkəməsini beynəlxalq hüquqa və müvafiq konvensiyaların şərtlərinə uyğun şəkildə həyata keçirir.

Birmənalı deyə bilərik ki, Avropa Parlamentinin məlum qətnaməsi Azərbaycana qarşı qərəzin nümayişidir. Bu, həm də onu sübut edir ki, Avropa Parlamenti Cənubi Qafqaz regionuna bir bucaq altında – Ermənistan maraqları prizmasından baxır. Eləcə də Aİ-nin  Ermənistandakı müşahidə missiyası, Avropa Sülh Fondunun Ermənistanın silahlandırmasına maliyyə ayırması, üstəlik, ölkəmizin ünvanına təxribatçı açıqlamaları bu çirkin yanaşmanın halqalarıdır.

# Gözlənilən qərəzin nümayişi



Avropa Parlamentinin bütün qətnamələri islamofobiya, qərəz və ikili standartları özündə əks etdirib. Avropa Parlamenti bu gün də Cənubi Qafqaz regionunda yaranmış yeni reallıqları həzm edə bilmir. Onlar dərk etmək istəmirlər ki, münaqişə artıq başa çatıb və bu gün “Dağlıq Qarabağ” adlı münaqişə və bu adda ərazi vahidi yoxdur. İndi Bakı o münaqişəni alovlandıranları, xalqımıza qarşı cinayət törətməkdə təqsirləndirlən şəxsləri Femidanın qarşısına çıxarıb. Bunu görməzdən gələn Avropa Parlamentinin bu cür qərəzli mövqeyi Cənubi Qafqazda sülhün, sabitliyin və təhlükəsizliyin təmin olunması ilə ziddiyyət təşkil edir. Bu qurum işğal dövründə olduğu kimi, postmünaqişə mərhələsində də Azərbaycana qarşı qərəzli mövqeyindən əl çəkmək istəmir.

O ki qaldı, Avroparlamentin ölkəmizin daxili işlərinə qarışması məsələsinə, məqsəd bölgədə sabitliyin bərqərar olmasına yol verməməkdir. Həmin qüvvələr hər vəchlə Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşmasının qarşısını almağa çalışırlar. Bakı və İrəvanın sülhə bu qədər yaxın olduqları məqamda AP-nin məlum qətnaməsini yalnız təxribat kimi dəyərləndirmək olar.

***İ.HƏSƏNQALA***
***XQ***

# DTX NEZ-də baş vermiş yanğını araşdırır

**Martın 5-də Bakı şəhərinin Nizami rayonu ərazisində yerləşən SOCAR Neft Emalı Zavodunda baş vermiş yanğın hadisəsi ilə bağlı aidiyyəti dövlət orqanları ilə birgə kompleks tədbirlər həyata keçirilib.**




Dövlət Təhlükəsizliyi Xidmətinin mətbuat xidmətindən  verilən məlumata görə, ilkin araşdırmalar zamanı müəyyən edilib ki, SOCAR Neft Emalı Zavodunun 2 nömrəli istehsalat sahəsinin 21 nömrəli ilkin emal qurğusunun N-21/1 saylı nasos sisteminin iş planına uyğun təmirə hazırlanması prosesində müvafiq təhlükəsizlik qaydalarına əməl edilməyib. Belə ki, növbə qəbulu zamanı nasosda mazut axınının davam etməsi barədə birbaşa xəbərdaredici yazılı məlumat verilməsinə baxmayaraq, martın 4-5-də olan növbə heyəti qurğunu təmirə tam hazır vəziyyətə gətirmədən və borunun ağır dizel fraksiyası ilə təmizlənərək boş olmasını təmin etmədən təmir-bərpa qrupuna təhvil verib.

Nəticədə, nasos avadanlığı ümumi qurğudan təmir məqsədilə ayrılarkən tezalışan mazut kütləsinin borudan təzyiq altında sızaraq, alovlanıb geniş ərazini əhatə edən yanğın yaratması insanların həyat və sağlamlığına ciddi təhlükə doğurub. Həmçinin ilkin emal qurğusunun istismardan çıxarılmasına, ətrafda olan konstruksiyaların yanmasına və əlaqəli digər texniki qurğuların sıradan çıxmasına, habelə yanacaq materiallarının istehsalı prosesində fasilələr yaranmasına və maddi ziyan vurulmasına səbəb olub.

Bundan başqa, martın 8-də yanğının nəticələrinin aradan qaldırılması və qurğunun təmirə hazırlanması prosesi çərçivəsində eyni növbə heyəti tərəfindən həmin ilkin emal qurğusunun borularında və qurğuda olan dizel məhsulunun boşaldılması zamanı təhlükəsizlik qaydaları pozulub, ərazidə qaynaq işləri aparılmasına baxmayaraq, dizel məhsulu emal qurğusunun yerləşdiyi torpaq sahəsinə axıdılıb, bununla da təkrar yanğın təhlükəsi yaranıb, müəssisədə iş prosesi pozulub və maddi ziyan vurulub.

Faktla bağlı Dövlət Təhlükəsizliyi Xidmətində aparılan cinayət işi üzrə növbə heyəti rəhbəri, baş operator Qarayev Sadiq Hümbət oğlu saxlanılaraq Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 223.2-ci (partlayış təhlükəli obyektlərdə təhlükəsizlik qaydalarının pozulması) maddəsi ilə cinayət məsuliyyətinə cəlb olunub.

Hazırda cinayət işi üzrə ibtidai istintaq davam edir.

***XQ***

# Bakı qlobal çağırışların fürsətə çevrildiyi məkandır

**Azərbaycan dünyanın çağdaş siyasi arenasında baş verən hadisələri diqqətlə izləyir, planetin üzləşdiyi qlobal problemlərin həllinə öz töhfəsini verməyə çalışır. Əsrlər boyu yurdumuz sivilizasiyaların kəsişdiyi nöqtə, müxtəlif mədəniyyətlərin çulğaşdığı məkan olub. Bu amil, eləcə də Avropa və Asiya arasında təbii coğrafi körpü olması, milli ənənələrimiz Azərbaycanı yaxın və uzaq ölkələr, xalqlar üçün cəlbedici edib, daim xüsusi ab-havası ilə seçilib. Bu baxımdan, dünyanın siyasi-iqtisadi, mədəni, ekoloji nəbzinin bu gün məhz Bakıda vurması qətiyyən təsadüfi sayıla bilməz.**




**Biz görürük ki, bu gün Avropa İttifaqı daha güclü hərbi potensial qurmaq üçün siyasətini necə dəyişir. Biz görürük ki, bəzi ölkələr öz resurslarını hərbi potensialının, infrastrukturunun gücləndirilməsi üçün sərf edirlər. Biz bunu ən azı 20 ildir edirik – 2005-ci ildən etibarən. Həmin vaxtdan etibarən güclü ordu yaratdıq. O ordu əraziləri azad etdi, separatçılığa son qoydu və beləliklə, ölkəmizin ərazi bütövlüyü, suverenliyi tam bərpa olundu. Bu, nəinki Azərbaycan xalqının güclü iradəsinin təzahürüdür, o cümlədən bu, beynəlxalq ədaləti nümayiş etdirir.**

**Azərbaycan Prezidenti İlham Əliyevin XII Qlobal Bakı Forumunun açılış mərasimindəki çıxışından**

Paytaxtın "Gülüstan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə "Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi" mövzusunda XII Qlobal Bakı Forumu öz işinə başlayıb.

XII Bakı Forumunda bu gün dünyanı narahat edən qlobal aktual problemlər, çoxtərəfli diplomatiya, çoxqütblü dünya nizamı, BMT-nin gələcəyə yönəlik paktı, orta güclərin yeni dünya düzənində rolu kimi vacib mövzular müzakirə olunur. Üç gün davam edəcək tədbirdə dünyanın müxtəlif regionlarından 400-ə yaxın nüfuzlu siyasi xadim, o cümlədən 50-yə yaxın fəaliyyətdə olan və sabiq prezident, baş nazir, həmçinin BMT strukturlarının rəhbərləri, Nobel mükafatı laureatları, alimlər və ekspertlər iştirak edirlər.

Forumun açılış mərasimində çıxış edən Prezident İlham Əliyev bildirdi ki, Bakı Forumu hazırda aparıcı beynəlxalq platformalardan biridir və burada qlobal gündəlikdə dayanan məsələlər müzakirə olunur. "Nizami Gəncəvi Beynəlxalq Mərkəzini təbrik edirəm ki, son illər ərzində çox əla işlər aparmışdır və belə bir mühüm beynəlxalq tədbiri təşkil edir" – deyən dövlətimizin başçısı daha sonra bildirdi: "Biz çox fərəhlənirik ki, Qlobal Bakı Forumu hazırda aparıcı beynəlxalq platformalardan biridir. Orada qlobal gündəlikdə dayanan məsələlər müzakirə olunur".

* * *

Oxuculara xatırladaq ki, tədbirin təşkilatçısı olan Nizami Gəncəvi Beynəlxalq Mərkəzi Prezident İlham Əliyevin sərəncamına əsasən, dahi Azərbaycan şairi Nizami Gəncəvinin 870 illik yubiley tədbirləri çərçivəsində 2012-ci il sentyabrın 30-da böyük mütəfəkkirin Vətəni Gəncədə keçirilmiş xüsusi toplantıda təsis edilib. Hazırda mərkəz qlobal problemlərin həlli yollarını araşdıran və bu barədə dünya ictimaiyyətini məlumatlandıran mühüm beynəlxalq təsisata çevrilib. Məhz bunun nəticəsidir ki, mərkəzin təşkil etdiyi tədbirlərə maraq ildən-ilə artmaqdadır. Azərbaycanın belə qlobal forumlara ev sahibliyi etməsi, bu tədbirlərdə iştirak edən nüfuzlu siyasi liderlərin sayının nəzərəçarpacaq dərəcədə artması ölkəmizə olan marağın və etimadın, eyni zamanda, dövlətimizin başçısının siyasətindən məmnunluğun ifadəsi kimi dəyərləndirilməlidir.

Forumun açılışındakı çıxışında Prezident İlham Əliyev Ermənistan–Azərbaycan münasibətlərinə toxunaraq, xalqımızın işğal illərini heç vaxt yaddan çıxarmayacağını vurğuladı: "Azərbaycan xalqının çəkdiyi əzab-əziyyətləri və Ermənistanın təcavüzünün bizə verdiyi ziyanı bilirik. Biz azad olunmuş ərazilərimizdə görürük ki, barbarlığın səviyyəsi nə yerdədir. Bütün şəhərlər, kəndlər yerlə-yeksan olunub və onlar kəndlərimizə, şəhərlərimizə, dinimizə və tarixi irsimizə qarşı bilərəkdən belə hərəkətlər etmişlər".

Prezident İlham Əliyev iştirakçısı olduğu elə bir beynəlxalq tədbir, görüş və ya rəsmi qəbul olmayıb ki, keçmişdə qoyduğumuz Qarabağ ağrımızı xatırlatmasın, baiskarlara o tarixdən ibrət dərsi götürmələrini tövsiyə etməsin. Dövlət başçısı çıxışında dedi: "Biz beynəlxalq hüquq əsasında öz ləyaqətimiz üçün mübarizə apardıq. BMT Təhlükəsizlik Şurasının qətnamələri 27 il kağız üzərində qaldı. Əgər biz öz torpaqlarımızı güc vasitəsilə azad etməsəydik, növbəti 27 il də belə qalacaqdı. Bəzən sülhə nail olmaq, ədaləti bərpa etmək üçün gücdən istifadə etməlisiniz".

Bakı Forumunun iştirakçıları Azərbaycan liderinin bu sözlərini aksiom kimi qəbul etdilər. XII Foruma dünyanın müxtəlif regionlarından yüksək qonaqların qatılması tədbirin qlobal təsirini, beynəlxalq arenada əhəmiyyətini, eləcə də ölkəmizin sivilizasiyalararası dialoqa verdiyi töhfəni və əməkdaşlığa sadiqliyini bir daha nümayiş etdirir. **Milli Məclisin deputatı, politoloq Rasim Musabəyov** bu barədə fikirlərini qəzetimizlə bölüşərkən Bakı Qlobal Forumunun artıq öz yerini tapdığını bildirdi: "Forumda olduqca vacib müzakirələr aparılır. Həmin müzakirələrdə iştirak edənlərin arasında təkcə keçmiş deyil, hazır-



kı dövlət və hökumət başçılarının da olması foruma xüsusi status verir. Aparılan fikir mübadilələri ölkəmiz üçün, Azərbaycanın beynəlxalq gündəmdə irəliləməsi üçün olduqca vacibdir. Digər tərəfdən, özümüzün baxış və mövqeyimizi kifayət qədər geniş auditoriya qarşısında bölüşmək fürsəti verən bu beynəlxalq platforma Azərbaycanın nüfuzunu artırır, ona dəstək qazandırır. Bu baxımdan, Bakı Forumu ölkəmizə qarşı genişlənən qarayaxma kampaniyasına ən tutarlı cavab sayılmalıdır. Dünyanın dörd tərəfindən bu tədbirə gələn insanlar Bakını, Azərbaycanı görürlər, əsl mənzərənin, həqiqətin və reallığın şahidi olurlar. Rəsmi çıxışlardan savayı, yüksək qonaqlar fasilələrdə, kuluarlarda dövlətimizin başçısı, ayrı-ayrı nazirlərlə görüşlərində ölkəmiz haqqında dolğun və müfəssəl məlumatlar alırlar.

Forumun gündəliyinə gəldikdə isə o, imkanları reallığa çevrimək üzərində tərtib edilib. Gözəl sözlər deyilir, vədlər verilir, fəqət onları reallaşdırmaq məsələsində ortaya çoxlu "əmmalar" çıxır. Əslində, Azərbaycan son illər həmin "əmmaların" əksəriyyətini qırıb. Misal üçün, deyirdilər ki, ölkəmiz öz neftini dünya bazarına çıxara bilməyəcək. Azərbaycan bunun mümkün olduğunu sübut elədi. Rəsmi Bakı həm enerji, həm də nəqliyyat sahəsində böyük layihələri reallaşdırmağı bacardı. Azərbaycan başqa məsələlərdə də daim uğurlara imza atacaq".

* * *

Prezident Bakı Forumunun açılış mərasimindəki çıxışında bölgəmiz və dünyamız üçün aktuallıq kəsb edən bir çox vacib məsələlərə toxundu. Dövlətimizin başçısı onilliklərlə erməni diasporunu dəstəkləyən korrupsiyaya uğramış siyasətçilərdən də danışdı: "Biz bu məsələləri Ermənistan nümayəndələri ilə, onların Brüsseldə əyləşən yeni rəhbərləri ilə qaldırırıq. İndi onlar "böyük qardaş"ını dəyişiblər. İndi həmin o "böyük qardaş" Brüsseldir. Prezident Donald Tramp Dövlət Departamentində belə bir addım atdı ki, USAID ləğv olundu, korrupsiyaya uğramış siyasətçi Robert Menendez də cəzalandırıldı. Amma o, sonuncu olmalı deyil. Yəni, necə deyərlər, bir qaranquşla bahar olmaz. Çünki onlar pulları diaspordan alıb ciblərinə qoyurlar. Məsələn, cənab Adam Şiff, cənab Frank Pallone, xanım Nensi Pelosi və bir çox digərləri. Onlar onilliklərlə erməni diaspor təşkilatlarından o pulları alırdılar ki, Azərbaycana hücum çəksinlər, gözdən salsınlar".

Bu həqiqətləri forum iştirakçılarının nəzərinə çatdıran Prezident İlham Əliyev diqqəti həmin dairələrin Ermənistanı silahlandırması kimi zərərli fəaliyyətlərinə yönəltdi: "Ermənistanın əldə etdityi məhvedici silahlar bizə qarşı yönəlir. Bəlkə də onlar bu gün başqa yerlərdə lazımlı olar. Amma o silahlar Ermənistana göndərilir". Bu məqamda Avropanın Ermənistandakı monitorinq missiyasının, əslində, kəşfiyyat missiyası olduğunu açıq şəkildə bildirən İlham Əliyev onların gecə-gündüz casus kimi bizim sərhədlərimizdə dayandıqlarını, amma bizim əlimizdə "monitorinq missiyası" haqqında kifayət qədər kəşfiyyat məlumatının toplandığını da ermənipərəsrt "kollektiv Qərb"in nəzərinə çatdırdı.

Bununla da kifayətlənməyən dövlətimizin başçısı Avropadakı anti–Azərbaycan blokun keçən ilin noyabrında Bakıda keçirilən COP29-u boykot kampaniyasını da forum iştirakçılarının yadına saldı. BMT-nin İqlim Sammitini "Bakı sıçrayışı" kimi dəyərləndirən dövlətimizin başçısı bunun bir irs olduğunu vurğuladı. "Əfsuslar olsun, deməliyəm ki, bu qlobal beynəlxalq tədbir bəzi Qərb medialarında kampaniyalarla müşayiət olundu", – deyən Prezident İ.Əliyev bunun bir sıra mərkəzlərdən idarə olunduğunu vurğuladı. Bunun ardınca isə o, Azərbaycana qarayaxma kampaniyasının başında ABŞ Dövlət Departamentinin durduğunu, "Washington Post", "New York Times", "News Week", "Politico", "Associated Press", Fransanın Prezident ofisinin, "Le Figaro" və "Le Monde" qəzetlərin isə siyasi şantajla məşğul olduqlarını vurğuladı.

* * *

XII Qlobal Bakı Forumunun beynəlxalq platforma olaraq böyük nüfuza malik olmasını bir daha qeyd etməklə yanaşı, onun qlobal gündəmə edəcəyi korrektələrə diqqəti yönəltmək istərdik. Bu barədə XQ-yə danışan **Qərbi Kaspi Universitetinin professoru, politoloq Fikrət Sadıxov** Qlobal Bakı Forumunda iştirak edən qonaqların siyasi çəkisinin, nüfuzunun və sayının Azərbaycana böyük etimadın nümayişi olduğuna diqqəti çəkdi: "Bu etimad dünyanın aparıcı siyasətçiləri, ekspertləri, alimləri, eləcə də keçmiş dövlət və hökumət başçıları tərəfindən nümayiş etdirilir. Hazırda dünyada baş verən hadisələr ətrafında fikir mübadiləsinin, müzakirələrin aparılması üçün Bakı Forumu ən nüfuzlu tribunalardan biridir. Doğrudur, müzakirə ediləcək bütün məsələlərin dərhal həllini tapacağını demək olmaz, amma belə yüksək səviyyədə fikirlərin səslənməsi, mövqelərin bildirilməsi, eyni zamanda, dia-



loq və ünsiyyət fürsətinin yaranması böyük əhəmiyyət kəsb edir. Aparılan diskussiyaların, fikir mübadilərinin nəticəsində onlar həm də Azərbaycan reallıqlarını, həqiqətlərini, ölkəmizin tutduğu sağlam və ədalətli mövqeyi daha dərindən başa düşürlər. Bakıda keçirilən bütün beynəlxalq forum və konfranslarda dövlətimizin başçısı çıxış edir, bir sıra məsələlərə aydınlıq gətirir, eləcə də ortaya çıxan suallara ətraflı və məzmunlu cavab verir. Bu dəfə də məhz belə oldu.

Bakı Forumunu əhəmiyyətli edən amillərdən biri də bundan ibarətdir. Hesab edirəm ki, budəfəki forumun da nəticələri hamı üçün birmənalı olaraq səmərəli olacaq".

Prezident İlham Əliyevin çıxışının ən yaddaqalan hissəsi ABŞ–Azərbaycan münasibətləri barədə oldu. "Dövlət katibi Antoni Blinkenin siyasəti, əslində, bu münasibətləri heçə endirdi" – deyən dövlətimizin başçısı həmin münasibətlərin onilliklərlə qurulmasını xatırlatdı: "Biz ABŞ-la etibarlı, yaxın tərəfdaş idik və onlar bizimlə idi. Biz onlara lazım olanda, biz onlarla idik. İraqa gəldikdə, biz, bəli, Əfqanıstana gəldikdə, bəli. Biz qeyri–NATO ölkəsi olaraq 2001-ci ildə Əfqanıstandakı əməliyyatlara qoşulduq və oranı sonuncu tərk edən tərəf olduq". Dövlətimizin başçısı çıxışında onu da vurğuladı ki, Azərbaycan Əfqanıstandan çıxandan sonra Ağ ev bizə sanksiya tətbiq etdi, bu isə bizdə böyük məyusluq yaratdı.

* * *

Artıq forum öz işini "Geosiyasi dəyişmələr: Məsuliyyətli tərəfdaşlıq rəqabətə qarşı", "Çoxqütblü dünya üçün multilateralizmə yenidən baxılması" və "Gələcək üçün BMT paktı: Yeni qlobal konsensusun yaradılması" mövzularında panel iclaslarda davam etdirir.

Beləliklə, Bakı bir daha qlobal çağırışları səsləndirmək fürsətinə çevrilən məkan, mühüm beynəlxalq platforma rolunu oynayır. Bu məkanda aparılan diskussiyaların həm beynəlxalq əməkdaşlığın möhkəmlənməsinə, problemlərin ortaq həll yollarının tapılmasına, həm də sülhün təşviqinə töhfə verəcəyinə əminik. Azərbaycanın sivilizasiyalararası dialoqu dəstəkləməsi, beynəlxalq arenada konstruktiv rolu və qlobal məsələlərin həllində fəal iştirakı Bakı Forumunda uğurlu nəticələrin əldə olunacağına etibarlı zəmin yaradır.

Fikrimizcə, XII Qlobal Bakı Forumunun ən diqqətçəkən məqamlarından biri gənclərin fikir və ideyalarına həsr edilən "Gənclər danışsın, biz dinləyək" paneli olacaq. Bu barədə növbəti yazımızda söz açacağıq.

***İmran BƏDİRXANLI***
***XQ***

# Niderlandın Azərbaycan qərəzi nədən qaynaqlanır?

**Ermənistanla Niderland arasında strateji tərəfdaşlıq haqqında sənəd imzalanıb. Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan mətbuat konfransında bildirib ki, sənəd iqtisadi və siyasi əlaqələrin gücləndirilməsindən tutmuş hibrid təhlükələrlə mübarizəyə qədər müxtəlif sahələri əhatə edir. Bundan əlavə, sənəddə Cənubi Qafqaz ölkələrinin suverenliyi və sərhədlərin toxunulmazlığı prinsipi əsasında sülh və sabitliyin bərqərar olmasına köməklik də nəzərdə tutulub.**

A.Mirzoyan mətbuat konfransında Azərbaycanla münasibətlərə də toxunub. Bildirib ki, Yerevan və Bakı beynəlxalq platformalardan qarşılıqlı iddiaların geri götürülməsini müzakirə edirlər: "Bəli, biz beynəlxalq hüquqi platformalarda bir-birimizə qarşı mübahisələrin, iddiaların və şikayətlərin ləğvini müzakirə edirik. Həmçinin Ermənistan–Azərbaycan dövlət sərhədində üçüncü qüvvələrin mövcudluğunun istisna edilməsi kimi məsələlər də diqqət mərkəzindədir. Əgər bütün maddələr razılaşdırılarsa, onların icrası məcburi olacaq".

Ermənistan XİN rəhbəri əmin olduğunu bildirib ki, konstruktiv yanaşılsa həm Azərbaycan, həm də Türkiyə ilə münasibətlərdə irəliləyiş əldə oluna bilər. Mirzoyan onu da deyib ki, Ermənistan artıq Azərbaycana sülh sazişi layihəsinin 12-ci təkliflər paketinə öz cavabını göndərib: "Yaxın zamanda bu sazişin razılaşdırılması, imzalanması və ratifikasiyası ilə bağlı bütün məsələləri Azərbaycan tərəfi ilə müzakirə etmək imkanımız olacaq".

Yada salaq ki, Bakı və İrəvan uzun müddətdir ki, sülh sazişi üzrə danışıqlar aparırlar. Azərbaycan tərəfinin bildirdiyinə görə, sazişin 17 bəndindən yalnız ikisi razılaşdırılmamış qalır. Bura beynəlxalq iddialardan qarşılıqlı imtina və üçüncü dövlətlərin nümayəndələrinin sərhəddə yerləşdirilməsinin yolverilməzliyi daxildir. Hazırda müzakirələr bu bəndlər ətrafında aparılır.

Mətbuat konfransında Niderlandın Xarici işlər naziri Kaspar Veldkamp da çıxış edib. O bildirib ki, iki dövlət arasında hərbi, o cümlədən silah təchizatı sahəsində əməkdaşlıq nəzərdə tutulmur: "İki ölkə arasında tərəfdaşlıq digər dövlətlərin maraqlarına qarşı yönəlməyib". Siyasətçi bunu deyərkən Azərbaycan və Türkiyəni nəzərdə tutub. O deyib: "Ermənistan və Niderland arasında imzalanan bəyannamə Hayastanla Avropa İttifaqı (Aİ) arasında münasibətlərin səviyyəsinin yüksəlməsinə müsbət təsir göstərəcəkdir".

K. Veldkamp daha sonra bildirib ki, Niderland və Aİ həm Ermənistan–Azərbaycan, həm də Ermənistan–Türkiyə münasibətlərinin normallaşmasında maraqlıdır: "Biz Ermənistan hökumətinin bu məsələdə nə qədər irəli getmək istədiyini görürük və bu addımları təşviq edirik. Həmçinin Azərbaycan və Türkiyəni Ermənistanla münasibətləri normallaşdırmaq üçün səyləri davam etdirməyə çağırırıq".

Niderlandın Xarici işlər nazirinin açıqlaması ilk baxışdan qərəzli görünmür. Amma onun və rəhbərlik etdiyi nümayəndə heyətinin üzvlərinin Aİ-nin monitorinq missiyasının müşayiəti ilə Ermənistan–Azərbaycan sərhədində olması bu dövlətin anti-Azərbaycan siyasətinin növbəti nümayişi, ölkəmizə qarşı kampaniyasının bir parçasıdır. Görünür, Niderland Aİ-ni öz maraqlarının girovuna çevirən Fransanın təsiri altındadır. Parisin patronajlığı altında Azərbaycana qarşı "binokl diplomatiyası"nda iştirak etmək həvəsinə düşüb. O, Azərbaycan sərhədində qanunsuz müşahidələr aparmaqla sülhə xidmət etmədiyini və müstəmləkəçilik xislətini bir daha ortaya qoyub.

Bu, Niderlandın Azərbaycana qarşı ilk qərəzli münasibəti deyil. Xatırladaq ki, Azərbaycan 30 il davam edən Qarabağ problemini öz gücü hesabına həll etdikdən sonra Amsterdamda Azərbaycana qarşı sanksiyaların tətbiq olunması ilə bağlı çağırışlar artdı. Təbii ki, Azərbaycan Xarici İşlər Nazirliyi tərəfindən həmin çağırışlara adekvat cavab verildi. Niderland bununla kifayətlənməyərək, 2021-ci ildə Azərbaycanla münasibətlərə baxılması ilə bağlı təkliflər səsləndirdi. 2023-cü ilin sentyabrında baş verən antiterror tədbirlərindən bir qədər sonra Niderland parlamentində Ermənistana silah satışı məsələsi müzakirə olundu. Azərbaycana qarşı sanksiyaların tətbiq edilməsi məsələsi yenidən qaldırıldı. Nəhayət, 2024-cü il oktyabrın 10-da Azər-



baycan əleyhinə iki qətnamə qəbul olundu. Sözügedən sənədlərdə ölkəmizə münasibətdə törədilmiş hərbi işğal və Azərbaycan əhalisinin etnik təmizləməyə məruz qoyulması, Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları tamamilə gözardı edildi. Bütün bunlar Azərbaycanı əsassız olaraq hədəf alan və Cənubi Qafqaz regionunda real vəziyyəti təhrif edən qərəzli siyasətin davamıdır.

Qətnamədə Azərbaycanın həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərinin məram və məqsədləri təhrif olunub. Halbuki həmin tədbirlər Azərbaycana qarşı davam edən hərbi təhdidlərin aradan qaldırılması və qanunsuz hərbi birləşmələrin mövcudluğuna son qoyulmasına yönəldilmişdi. Bu barədə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə demişdi ki, Niderland tərəfinin iddialarında "hərbi əsirlər" kimi istinad edilən şəxslər Azərbaycan ərazisində separatçılıq, qəsdən öldürmə, işgəncə, terrorçuluq və digər insanlıq əleyhinə cinayətlərin törədilməsində təqsirləndirilən şəxslərdir: "Azərbaycanın həm beynəlxalq hüquq, o cümlədən 1949-cu il Cenevrə konvensiyaları, Muzdluların cəlb edilməsi, istifadəsi, maliyyələşdirilməsi və təliminə qarşı beynəlxalq Konvensiya, həm də yerli qanunvericiliyə əsasən bu şəxsləri məsuliyyətə cəlb etməyə həm hüququ, həm də beynəlxalq öhdəliyi var. Buna görə də, qeyd edilən məsələdə Azərbaycana qarşı səslənən bütün fikirlərin heç bir əhəmiyyəti yoxdur".



Bu barədə M.V. Lomonosov adına Moskva Dövlət Universitetinin Dünya siyasəti fakültəsinin beynəlxalq təhlükəsizlik kafedrasının professoru Aleksey Fenenko bildirib ki, Ermənistan–Niderland razılaşması Fransanın Qafqaz siyasəti ilə əlaqəlidir: "Niderland indiki halda Fransa siyasətinin bələdçisi rol oynayır. Fakt budur ki, fransızların özləri artıq Cənubi Qafqazda baş verən hadisələrə qarışmağa o qədər də həvəsli deyillər. Bundan sonra Niderland kimi vasitəçilərdən istifadə edəcəklər.

Niderland vasitəsilə Ermənistana təkcə fransızlar deyil, amerikalılar da dəstək verəcəklər. Onların hər ikisi Rusiya və Azərbaycandan gələn bütün etirazlara cavab olaraq deyəcəklər: "Bunun bizə dəxli yoxdur? Bu, Niderlandın daxili işidir, probleminizi onunla həll edin".

Aleksey Fenenko daha sonra qeyd edib ki, Amsterdamın ermənipərəst və anti-Azərbaycan kursu onun Fransadan asılılığı ilə bağlıdır: "Fakt budur ki, Niderlandın siyasəti Fransaya həddən artıq bağlıdır. Ona görə də xarici siyasətdə Parisin maraqlarının faktiki təmsilçisi kimi çıxış edirlər. Özlüyündə Niderland çox kiçik və zəifdir, XVII əsrdəki kimi dünya dövləti olmaq potensialı yoxdur. Bakıya hücumlar və İrəvanla razılaşma, əslində, Amsterdamın qərarları deyil.

Bu baxımdan, İrəvanın Aİ-nin bəzi digər kiçik dövlətləri ilə strateji tərəfdaşlıq sazişləri imzalayacağı ehtimalı böyükdür. Düşünürəm ki, Paris, şübhəsiz ki, bu taktikanı davam etdirəcək. Ermənistanın strateji tərəfdaşı olmağa razılaşacaq daha kiçik müttəfiq tapacaq. Bu, Belçika və ya Lüksemburq da ola bilər. Hətta İspaniya da..."

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Xarici işlər nazirinin görüş və müzakirələri



**Martın 13-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov XII Qlobal Bakı Forumu çərçivəsində BMT-nin Ticarət və İnkişaf üzrə Konfransının Baş katibi Rebeka Qrinspa ilə görüşüb.**

Söhbət zamanı Azərbaycan və BMT əməkdaşlığının müxtəlif aspektləri və perspektivləri, mina təhlükəsi ilə mübarizə səylərində qarşılıqlı fəaliyyət imkanları, habelə qarşılıqlı maraq doğuran regional və beynəlxalq məsələlər müzakirə olunub.

Ceyhun Bayramov BMT rəsmisini COP29 çərçivəsində əldə olunan nailiyyətlər, xüsusilə iqlim maliyyəsi üzrə yeni kollektiv kəmiyyət məqsədinin müəyyən olunması, Paris Sazişinin karbon bazarlarını tənzimləyən 6-cı maddəsi üzrə razılığın əldə edilməsi, bununla yanaşı, həyata keçirilən bir sıra təşəbbüslər barədə ətraflı məlumatlandırıb.

***

**Həmin gün Ceyhun Bayramov XII Qlobal Bakı Forumunda iştirak edən Çin Xalq Respublikası Hökumətinin Avropa məsələləri üzrə sabiq nümayəndəsi Vu Honqbo ilə də görüşüb.**

Nazir Ceyhun Bayramov inkişaf edən ikitərəfli və çoxtərəfli münasibətlərimizin tarixində xüsusilə ötən ilin Azərbaycan və Çin arasında strateji tərəfdaşlıq münasibətlərinin təsbit olunması baxımından əhəmiyyət kəsb etdiyini qeyd edib.

Söhbət zamanı Azərbaycan–Çin strateji tərəfdaşlığından irəli gələn məsələlər, habelə regional və beynəlxalq vəziyyət müzakirə olunub. Qlobal Bakı Forumunun bəşəriyyəti narahat edən, habelə daha inklüziv dünya düzəni ilə bağlı məsələlərin müzakirəsi baxımından vacib platforma olduğu qeyd olunub.

***

**Nazir Ceyhun Bayramovun Bakı Forumunun iştirakçısı olan Yunanıstan Parlamentinin üzvü Dmitris Avramopulos ilə görüşündə isə ikitərəfli və çoxtərəfli münasibətlər, regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə olunub.**

Görüşdə Qlobal Bakı Forumu kimi tədbirlərin dünyanı narahat edən çağırışlarla mübarizədə rolu vurğulanıb. İki ölkə arasında bir sıra, o cümlədən iqtisadiyyat, ticarət, enerji təhlükəsizliyi, turizm, humanitar istiqamətlər üzrə əməkdaşlığın perspektivlərinin mövcud olduğu qeyd olunub.

Ölkəmizin Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında vacib tərəfdaşlardan biri olduğu diqqətə çatdırılıb, həyata keçirilən layihələrin, xüsusilə Cənub Qaz Dəhlizinin enerji sahəsində əməkdaşlıqda çəkisi və rolu vurğulanıb.

Keçirilən görüşlərdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi də aparılıb.

*XQ*

# Estoniyalı deputat Zəfər parkında




**Azərbaycan Respublikasında rəsmi səfərdə olan Estoniya Respublikası parlamentinin (Riiqikoqu) Estoniya–Azərbaycan parlamentlərarası işçi qrupunun sədri xanım Riina Solman martın 13-də Bakıda Zəfər parkını ziyarət edib.**

İşçi qrupunun xanım sədri Zəfər abidəsinin önünə gül dəstələri qoyub.

Sonra qonağa Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə yaradılmış Zəfər parkı barədə ətraflı məlumat verildi. Bildirildi ki, ərazisi 10 hektara yaxın olan parkın girişində 44 günlük Vətən müharibəsinin rəmzi kimi hündürlüyü 44 metr, eni 22 metr, sütunlarının sayı 44 olan Zəfər tağı inşa edilib.

*XQ*

# Qondarma rejimdə yüksək rütbələri Ermənistanın hərbi-siyasi rəhbərliyi verirmiş

**Ermənistanın hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, Davit Babayan, Lyova Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə məhkəmə prosesinin baxış iclası martın 13-də davam etdirilib.**



Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, habelə müdafiələri üçün vəkillərlə təmin olunub.

Məhkəmənin baxış iclasında təqsirləndirilən şəxslər və onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, habelə dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Məhkəmə prosesi təqsirləndirilən şəxs Davit Babayanın suallara cavab verməsi ilə davam etdirilib.

O, təqsirləndirilən şəxslərin müdafiəçilərinin və zərərçəkmiş şəxslərin nümayəndələrinin suallarını cavablandırarkən digər təqsirləndirilən şəxs Bako Sahakyanı tanıdığını, onunla birgə işlədiyini bildirib.

Ermənistan Respublikasında anadan olmuş və orada qeydiyyatda olan, həmin ölkənin vətəndaşı, Ermənistan silahlı qüvvələrinin hərbi qulluqçusu, general-mayor ali hərbi rütbəsində xidmət etmiş təqsirləndirilən şəxs David Manukyan dövlət ittihamını müdafiə edən Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun suallarını cavablandırarkən “Miatsum” haqqında məlumatının olmadığını deyib. O, Qarabağda Azərbaycan dövlətinə qarşı vuruşmuş “Şuşi” xüsusi hərbi batalyonunun komandirinin Jirayr Səfilyan olduğunu etiraf edib.

Bundan sonra dövlət ittihamını müdafiə edən prokurorlar, təqsirləndirilən şəxslərin müdafiəçiləri və zərərçəkmiş şəxslərin nümayəndələri David Manukyan, Lyova Mnaksakanyan, Melikset Paşayan və Madat Babayana Ermənistan SSR-in ərazisində və Azərbaycan SSR-in tərkib hissəsi Qarabağda Ermənistan tərəfindən yaradılan, onun dəstəyi və rəhbərliyi altında fəaliyyət göstərən, cinayətkar birliyin özəyini təşkil edən qanunsuz silahlı birləşmələrin rəhbərləri və iştirakçıları, Ermənistanla, onun rəhbərliyi və yüksəkvəzifəli şəxsləri ilə əlaqələri, fəaliyyəti, onların bu birləşmələrin fəaliyyətində iştirakı, habelə “böyük Ermənistan” cinayətkar ideologiyası, “Miatsum” və “Qarabağ” hərəkatlarının məqsədi, hərəkatlara rəhbərlik edən şəxslər və təqsirləndirilən şəxslərlə onların əlaqələri, Qarabağda keçirilən qanunsuz mitinqlərdə təqsirləndirilən şəxslərin iştirak edib-etməmələri, həmin qanunsuz mitinqlərdə çıxış edənlər, insanların qanunsuz mitinqlərə kim tərəfindən və hansı formada cəlb edilmələrinə, yaxud dəvət olunmalarına dair suallar veriblər.

D.Manukyan suallara cavabında J.Səfilyanın Livanın paytaxtı Beyrut şəhərində doğulduğu barədə məlumatsız olduğunu bildirərək deyib: “O, “Qərbi Ermənistan”-dan gəlmişdi, amma Ermənistan vətəndaşı idi”.

Təqsirləndirilən şəxs Qarabağda Azərbaycana qarşı vuruşmuş “Daşnak” adlandırılan taborun müxtəlif dəstələrdən ibarət olduğunu bildirib.

“Dəstələrdə Qarabağdan olanlar və Ermənistan vətəndaşları var idi”, - deyə o əlavə edib.

D.Manukyan 1992-ci ildə Qarabağda hərbi dəstələrin fəaliyyətinin normativ



aktlarla fəaliyyət göstərmədiyini də etiraf edərək diqqətə çatdırıb: “1992-ci ildə dəstələrin fəaliyyəti “insani qanunlarla” təznimlənirdi”.

O, daha sonra müdafiə tərəfinin və zərərçəkənlərin suallarını cavablandırıb.

Təqsirləndirilən şəxs Levon Mnatsakanyan suallara cavab verərkən 1988-ci ildə qanunsuz mitinqlər keçirilən zaman İrəvanda tələbə olduğu üçün həmin aksiyalarda iştirak etmədiyini bildirib.

Təqsirləndirilən şəxs Melikset Paşayan dövlət ittihamçısı Təranə Məmmədovanın suallarına cavabında Qarabağda keçirilən qanunsuz mitinqlərdə iştirak etdiyini deyib.

O, 1989-1990-cı illərdə sovet ordusunda hərbi xidmət keçdiyini, 1993-cü ildə isə Qarabağda yaradılmış “Əsgəran alayı”na qoşulduğunu qeyd edib.

Bundan sonra təqsirləndirilən şəxs Madat Babayan suallara cavabında Ağdərədə silahlı dəstənin tərkibində olduğunu, onlara verilən silahların dəstə rəhbəri tərəfindən Xankəndidən və Ermənistandan gətirildiyini bildirərək vurğulayıb ki, silahlı birləşmənin rəhbəri Vanik Petrosyan idi.

Daha sonra təqsirləndirilən şəxslərə cinayətkar birliyin tərkibində funksiya və vəzifələr, habelə vaxtilə Ermənistan tərəfindən işğal edilmiş Qarabağda hakimiyyətin zorla ələ keçirilməsi, o cümlədən Ermənistanın rəhbərliyi və nəzarəti altında fəaliyyət göstərmiş qondarma rejimdə inzibati ərazi bölgüsü, müxtəlif vəzifələrə təyinatların aparılması və vəzifədən çıxarma, dövriyyədə olan pul vahidi, xarici və daxili bank əməliyyatlarının aparılması, müxtəlif malların idxal və ixracı, qondarma rejimin qanunsuz iqtisadi fəaliyyəti nəticəsində istehsal olunan məhsulların üzərində istehsal yeri kimi hansı ölkənin adının qeyd edilməsi, gömrük məsələləri, qondarma rejimin fəaliyyət göstərdiyi ərazilərə səfərə gedən şəxslərə icazə və ya vizaların verilməsi, erməni sakinlərin hansı ölkənin vətəndaşları olmaları, onlara şəxsiyyəti təsdiqləyən sənədin hansı qurum tərəfindən verilməsi, büdcəyə vəsaitlərin toplanma qaydası, qeyd olunan proseslərdə Ermənistan dövlətinin, onun dövlət qurumlarının, silahlı qüvvələrinin, yüksəkvəzifəli şəxslərinin rolu və iştirakına dair suallar ünvanlanıb.

A.Qukasyan qeyd edib ki, onun hakimiyyəti dövründə Laçında və Kəlbəcərdə qanunsuz məskunlaşdırma aparılıb.

O, dövlət ittihamını müdafiə edən prokurorlar Vüsal Əliyev, Tuqay Rəhimli və Nəsir Bayramov tərəfindən verilən suallara cavabında qondarma rejimin “büdcə”-sinin Ermənistan tərəfindən formalaşdırıldığını etiraf edib. O, qondarma rejimin “büdcə”sinə Ermənistan tərəfindən ayrılan vəsaitin “kredit” adlandırıldığını, lakin həmin “kredit”in faizsiz və müddətsiz olduğunu bildirib.

“O zaman “faizsiz kreditlər” adlandırılırdı. Yəni, yaxın müddətdə kreditlərin geri qaytarılması məsələsi yox idi. Bundan əlavə, Qarabağdan “ixrac olunan” və “idxal edilən” məhsulların gömrük məsələləri Ermənistanda həyata keçirilirdi. Qarabağdakı “idxal” və “ixrac”la bağlı Ermənistan Respublikasının Dövlət Gömrük Xidmətində toplanan vəsaitlər də “faizsiz kreditlər”ə daxil idi”, - deyə o əlavə edib.

Təqsirləndirilən şəxs deyib ki, “Qarabağın məhsulları”nın Ermənistan vasitəsilə xaricdə satışından əldə olunan gəlir Ermənistanın “kredit” adı ilə qondarma rejimin “büdcə”sinə ayırdığı vəsaitdən az idi.

O, Ermənistan gömrüyü vasitəsilə xarici ölkəyə “ixrac edilən” “Qarabağ məhsulları”nın üzərində onların hansı ölkəyə aid olması barədə yazılanlarla bağlı isə məlumatsız olduğunu bildirib.

Bundan başqa, A.Qukasyan qondarma rejimin ərazisində Ermənistan dramının dövriyyədə olduğunu da etiraf edib və deyib: “Buna görə də biz çalışırdıq ki, vahid bir iqtisadi məkan olsun. Həmçinin əməkhaqları da Ermənistan dramı ilə ödənilirdi”.

O, qondarma rejimin “müdafiə naziri” və “ordunun baş komandanı” “vəzifə”lərinə təyinatın Ermənistanın hərbi-siyasi rəhbərliyi ilə razılşadırıldığını, general-mayor rütbəsindən yuxarı rütbələrin Ermənistanda verildiyini də etiraf edib və bildirib: “Bütün təhlükəsizlik məsələləri Ermənistan rəhbərliyi ilə birgə həll edilirdi. Mən 1997-ci ildən 2007-ci ilədək olan müddətdən danışıram, sonrakı vaxtı bilmirəm”.

A.Qukasyan işğal dövründə təmas xəttində baş verən atışmalar, hadisələr ilə bağlı məlumatların ilk olaraq Ermənistan Müdafiə Nazirliyinə verildiyini bildirərək qeyd edib: “Sonra bizə də məlumat verilirdi ki, məlumatımız olsun”.

O, qondarma rejimdə yaşayan erməni sakinlərə Ermənistan pasportu verildiyini söyləyib: “Dağlıq Qarabağ” heç bir ölkə tərəfindən tanınmadığına görə pasportlarımızda “Ermənistan Respublikası” yazılırdı. Lakin orada harada yaşadığı ünvan göstərilirdi: Xankəndidirsə Xankəndi, Ağdərədirsə Ağdərə. Bu pasportlar imkan verirdi ki, insanlar Rusiyaya, Avropaya və digər yerlərə gedə bilsinlər. Ona görə də belə bir qərar qəbul olunmuşdu ki, pasportlar Ermənistanda alınsın. Ermənistan vətəndaşları və Qarabağda yaşayan erməni sakinlərinin istifadə etdikləri pasportlar xarici görünüşünə görə eyni idi. Fərq yalnız seriya nömrələrində idi. Qarabağda yaşayan erməni sakinlər üçün Ermənistan tərəfindən ayrıca seriya nömrəsi verilmişdi.

Qarabağa səfər edən Ermənistan vətəndaşlarının qeydiyyatının aparılmadığını bildirən A.Qukasyan qeyd edib: “Ermənistan vətəndaşlarının Qarabağa gəldikdə və Qarabağda yaşayan erməni sakinlərinin Ermənistana getdikdə qeydiyyatı aparılmırdı. Ermənistandan Qarabağa xarici vətəndaşlar gələndə və qayıdanda onların qeydiyyatı aparılırdı. Çox ölkələrdən gəlirdilər. Bir müddət bundan əvvəl “hakimiyyətdə olanlar” bu suallara cavab verə bilərlər. Çox insan – deputatlar, senatorlar, konqresmenlər və digərləri gəlirdilər”.

O, Ermənistan rəhbərliyi tərəfindən “Maarifçi Qriqori” ordeni ilə təltif edildiyini, qondarma rejimin “prezidenti” “vəzifə”sindən ayrıldıqdan sonra 9 il Ermənistanın xüsusi tapşırıqlar üzrə səfiri vəzifəsini tutduğunu da diqqətə çatdırıb.

Daha sonra ittihamının hakimiyyətin zorla ələ keçirilməsinə dair hissəsinə aid sənədlərin tədqiqinə başlanılıb.

Məhkəmənin növbəti iclası martın 14-nə təyin olunub. Növbəti proses təqsirləndirilən şəxslərə sualların verilməsi ilə davam etdiriləcək.

*XQ*

# Güzəştli kreditlər artır

## *2 ayda 547 layihəyə 32,1 milyon manat vəsait ayrılıb*

**Sahibkarlığın İnkişafı Fondundan (SİF) bildirilib ki, bu ilin yanvar-mart ayları ərzində Azərbaycanda 547 layihənin maliyyələşdirilməsinə 32,1 milyon manat güzəştli kredit verilib. Kreditlər hesabına 509 yeni iş yerinin yaradılması planlaşdırılıb.**




Qeyd edək ki, 2024-cü il ərzində sahibkarların 5 min 722 layihəsinin maliyyələşdirilməsinə 248,1 milyon manat güzəştli kredit ayrılıb. Həmin kreditin 53,3 faizi kənd təsərrüfatı məhsulları istehsalının, 38,1 faizi sənaye məhsulları istehsalı və emalının, 2,1 faizi turizmin, 6,5 faizi isə digər sahələrin payına düşüb. Onu da qeyd edək ki, ötən il SİF tərəfindən güzəştli kredit alan sahibkarlıq subyektlərinin sayı əvvəlki illə müqayisədə 74,7 faiz artaraq 5722-yə çatıb. Maliyyələşdirilən layihələrin böyük əksəriyyəti – 94,7 faizi regionların payına düşüb.

Son 5 ildə SİF tərəfindən verilmiş güzəştli kreditlərin həcmində mikro, kiçik və orta sahibkarlıq subyektlərinin payı artıb. 2020-ci ildə verilmiş kredit məbləğinin 86 faizi mikro, kiçik və orta sahibkarlıq subyektlərinin payına düşdüyü halda, 2024-cü il ərzində bu göstərici artıq 93 faiz təşkil edib.

2020-ci ildə güzəştli kreditlərin 54 faizi regionların payına düşürdüsə, 2024-cü il ərzində maliyyələşdirilən layihələrin 72 faizi regionlarda fəaliyyət göstərən sahibkarlıq subyektlərinə aiddir. Son 5 ildə SİF-in güzəştli kreditlərindən yararlanan qadın və gənc sahibkarların sayı da əhəmiyyətli dərəcədə artıb. Belə ki, 2020-ci ildə qadın sahibkarlara məxsus 75 layihəyə güzəştli kredit verildiyi halda, 2024-cü il ərzində bu say 472-yə yüksəlib.

Eyni zamanda, 2020-ci ildə gənc sahibkarlara məxsus 50 layihə güzəştli kreditlə təmin edilmişdisə, 2024-cü ildə 170 belə layihə SİF tərəfindən güzəştli kreditlə dəstəklənib. 2022-ci ildən etibarən yaşıl layihələr güzəştli kredit mexanizmi üzrə müəyyənləşdirilmiş prioritet istiqamətlərə daxil edilib. Artıq sahibkarlar 11 belə layihə üzrə, ümumilikdə, 5,2 milyon manata yaxın güzəştli kreditdən yararlanıblar.

Bu göstəricilər dövlətin sahibkarlığın inkişafına həssaslıqla, qayğı ilə yanaşmasının bariz ifadəsidir. Ümumiyyətlə, ölkədə istehsalın, qeyri-neft ixracının, məşğulluğun artırılması və digər önəmli məsələlərdə sahibkarlıq, özəl sektor həlledici rol oynayır. Respublikamızda sahibkarlıq sahəsində inzibati prosedurların sadələşdirilməsi, vergi güzəştləri və subsidiyaların tətbiqi, real sektora maliyyə dəstəyi göstərilməsi və digər tədbirlər həyata keçirilir.

Bütün bunların nəticəsində bu gün ölkədə biznes fəaliyyəti geniş miqyas alıb. Azərbaycanın iş adamlarının azad edilən ərazilərdə, xarici ölkələrdə həyata keçirilən layihələrdə fəal iştirakı gerçəkləşib, müxtəlif sahələrə investisiya yatırımı sürətlənib.

Hazırda ölkə üzrə sahibkarlıq subyektlərinin 99,6 faizi kiçik və orta biznesin (KOB) payına düşür. Özəl sektorun, xüsusilə KOB-ların iqtisadiyyatda rolunun, bilik və bacarıqlarının artırılması, maliyyə resurslarına, satış bazarlarına çıxışının genişləndirilməsi istiqamətində müxtəlif dəstək mexanizmləri həyata keçirilir. 50-dən çox şəhər və rayonda sahibkarlara yerində xidmət göstərən "KOB dostu" ofisləri, biznes biliklərini artıran KOB inkişaf mərkəzləri (KOBİM-lər) və sahibkarlara vahid məkanda xidmət göstərən KOB evlərinin fəaliyyəti biznesin işini asanlaşdırır.

50-dən çox dövlət və özəl qurumu sahibkarlara 400-dən çox G2B və B2B xidmətinin təqdim edildiyi KOB evlərində təkcə 2024-cü ildə 456 minə yaxın xidmət göstərib. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı ötən il Azərbaycanın KOB evi modelini qabaqcıl innovativ təcrübə kimi yayıb.

İqtisadiyyat Nazirliyinin məlumatına əsasən, KOB evlərinin respublikamızın digər iri şəhər və rayonlarında da yaradılması istiqamətində işlər davam etdirilir. Ötən il sahibkarların maarifləndirilməsi, bilik və bacarıqlarının artırılması məqsədilə KOBİM-lərin ödənişsiz təlim və məsləhət xidmətlərindən 13 minə yaxın KOB subyekti, startap və biznesə başlamaq istəyən şəxs yararlanıb. Kənd təsərrüfatı, istehsal, xidmət və digər istiqamətlərdə 1100-dən çox biznes planın ödənişsiz hazırlanmasına dəstək göstərilib.

40-dan çox sahibkar və menecer beynəlxalq təcrübəyə yiyələnməsi üçün "Almaniya ilə biznes əməkdaşlığı" Proqramı çərçivəsində Almaniyada ixtisasartırma kursu keçib. 2024-cü ildə dövlət–universitet–özəl sektor əməkdaşlığı çərçivəsində KOB Model Müəssisə yaradılıb. Model müəssisədə sənaye sahəsində fəaliyyət göstərən sahibkarlıq subyektləri üçün təlimlərin keçirilməsinə başlanıb.

Milli iqtisadiyyatın inkişafı üçün əsas vasitələrdən biri də investisiya təşviqi mexanizmidir. Mexanizm investisiya fəaliyyətinin genişləndirilməsi, biznes mühitinin yaxşılaşdırılması, sənaye istehsalının artırılması və regional inkişafın dəstəklənməsi məqsədilə tətbiq olunur. 2016-cı ildən başlayaraq 502 sahibkarlıq subyektinə 603 investisiya təşviqi sənədi verilib. İnvestisiya təşviqi sənədi təqdim edilmiş layihələrin reallaşması nəticəsində yerli istehsala 7,3 milyard manatadək investisiyanın yatırılması, 43 mindən çox iş yerinin açılması nəzərdə tutulub.

Artıq investisiya təşviqi sənədi verilmiş 500-dək layihənin icrasına başlanılıb, digər layihələrin qurulması üzrə işlər isə davam etdirilir. Eyni zamanda, 2,2 milyard manat dəyərində texnika, texnoloji avadanlıq və qurğuların idxalı üçün 6100-dən çox təsdiqedici sənəd verilib, sahibkarlar tərəfindən idxalda tətbiq olunan vergi və rüsumlardan 531 milyon manata yaxın məbləğdə güzəşt əldə olunub.

İnnovativ layihələrin dəstəklənməsi məqsədilə Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) tərəfindən mikro və kiçik sahibkarlara "Startap" şəhadətnaməsi verilir. İndiyədək mikro və kiçik sahibkarlara 192 "Startap" şəhadətnaməsi təqdim olunub. Yeni biznesə başlamaq və sahibkarlıq fəaliyyətini genişləndirmək istəyən biznes subyektlərinin risklərinin sığortalanması baxımından daxili bazar araşdırması diqqətdə saxlanılıb. İndiyədək isə 60-dan çox daxili bazar araşdırması aparılıb.

Bundan başqa, KOBİA sahibkarların ödənişsiz olaraq ölkəmizdə və xaricdə keçirilən ixtisaslaşmış sərgi və yarmarkalarda iştirakına, ticarət şəbəkələrinə çıxışına dəstək göstərir. 2024-cü ildə ilk KOB klaster şirkəti dövlət qeydiyyatına alınıb və bu quruma müxtəlif vergi güzəştlərini nəzərdə tutan "KOB klaster şəhadətnaməsi" təqdim olunub. KOB klaster şirkəti Quba rayonunun ərazisində alkoqolsuz içkilərin istehsalında istifadə ediləcək təbii meyvə konsentratı istehsal edəcək. 2025-ci ildə fəaliyyətə başlaması planlaşdırılan zavodda illik 4 min ton alma konsentratı istehsal edilməsi nəzərdə tutulur. KOB klaster şirkətinin fəaliyyəti üçün 15 milyon manat investisiya yatırılacağı və layihə çərçivəsində ilkin mərhələdə 30 nəfərin daimi işlə təmin olunması planlaşdırılır.

# Azərbaycan Orta Dəhlizin mərkəzi ölkəsidir

## Qarşıdakı 5 ildə bu marşrutda daşımalar 6 dəfə artacaq

**Şərqlə Qərb arasında körpü rolunun oynayan Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) ənənəvi nəqliyyat yollarına alternativ olaraq getdikcə daha çox aktuallıq kəsb edir. Avropa ilə Asiya arasında ən təhlükəsiz və qısa yol sayılan Orta Dəhliz okeanla əlaqəsi olmayan ölkələr üçün qlobal bazarlara çıxış əldə etmək baxımından da son dərəcə vacibdir.**




Bütün bunlar nəzərə alınaraq Çin, Qazaxıstan, Xəzər dənizi, Azərbaycan, Gürcüstan, Türkiyə və Avropanı birləşdirən bu marşrutun funksionallığının artırılması istiqamətində mühüm tədbirlər həyata keçirilir. Bu baxımdan Orta Dəhliz çərçivəsində marşrutun ötürmə qabiliyyətinin sinxron qaydada artırılmasına yönəlmiş genişmiqyaslı yol xəritəsi diqqət çəkir. Sözügedən sənəd Qazaxıstan, Azərbaycan, Gürcüstan və daha sonra Türkiyə vasitəsilə Çindən Avropaya qədər olan ərazini əhatə edir.

Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu Beynəlxalq Assosiasiyasının baş katibi Qaydar Abdikerimov bugünlərdə mətbuata verdiyi müsahibəsində bildirib ki, Orta Dəhlizin 2027-ci ilə qədər olan dövr üçün nəzərdə tutulmuş 5 illik inkişaf proqramı çərçivəsində yüksək keyfiyyətli nəql və logistika infrastrukturu yaradılacaq. Hazırda dəhlizin imkanlarının genişləndirilməsində əhəmiyyətli irəliləyişin müşahidə edildiyini vurğulayan baş katibin sözlərinə görə, Qazaxıstan, Azərbaycan və Gürcüstan marşrutun səmərəliliyinin artırılması üçün həm texniki inkişafa, həm də təşkilati aspektlərə fəal şəkildə sərmayə qoyurlar.

Yeri gəlmişkən, ekspertlərin qənaətinə görə, Orta Dəhlizi əhəmiyyətli dərəcədə təkmilləşdirmək üçün, təxminən, 18,5 milyard avro tələb olunur. Həmin investisiyanın hesabına Mərkəzi Asiyanın bütün beş ölkəsində polad magistralları və avtomobil yolları şəbəkəsinin bərpası, modernləşdirilməsi, heyətin genişləndirilməsi, limanların ötürücülük qabiliyyətinin artırılması, sərhəd-keçid məntəqələrinin, multimodal logistika qovşaqlarının və köməkçi şəbəkə birləşmələrinin təkmilləşdirilməsi mümkündür. Ümumilikdə isə, iştirakçı ölkələr tərəfindən infrastrukturun modernləşdirilməsi və sinxron inkişafı istiqamətində görülən işlər Orta Dəhlizdə tranzit daşımaların sabit artımını təmin etməyə imkan verəcək.

Elə son illər Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu üzrə yük dövriyyəsinin davamlı olaraq artması da birgə səylərin nəticəsidir. Təkcə onu qeyd etmək kifayətdir ki, 2024-cü ildə Transxəzər marşrutu ilə yükdaşımaların həcmi 63 faizdən çox artaraq 4,5 milyon tona çatıb. Cari ildə avtomobil daşımaları da nəzərə alınmaqla Orta Dəhlizlə ümumi yük daşımalarının həcminin 5,2 milyon tona çatacağı gözlənilir. İl ərzində Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu Assosiasiyasına üzv ölkələrin xətti ilə 4,2 milyon ton yük (2,5 milyon ton quru yük və 1,7 milyon ton neft) daşınacaq.

2027-ci ilədək Orta Dəhlizin ötürmə qabiliyyətini 10 milyon tona çatdırılması nəzərdə tutulur. Bunun üçün isə iştirakçı ölkələrin müştərək səyi tələb olunur. TBNM Beynəlxalq Assosiasiyasının baş katibi Qaydar Abdikerimovun sözlərinə görə bu məqsədə çatmaq üçün, ilk növbədə, dar boğazların sinxron qaydada aradan qaldırılması, infrastrukturun modernləşdirilməsi və logistika xidmətinin keyfiyyətinin artırılmasını əhatə edən kompleks yanaşma lazımdır. Əsas istiqamət dəmir yolu şəbəkəsinin, liman infrastrukturunun inkişafı və Xəzər dənizi üzərindən daha səmərəli tranzit üçün fider gəmilərinin sayının artırılmasından ibarətdir. Baş katib onu da bildirib ki, ortamüddətli perspektivdə – 2030-cu ilə qədər Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu Assosiasiyası daşımaların həcmini 6 dəfə artırmağı və konteyner daşımalarını ildə 300 min TEU-ya çatdırmağı hədəfləyib.

Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun önəmli iştirakçılarından sayılan Azərbaycan dəhlizin funksionallığının artırılmasına mühüm töhfələr verir. Təkcə onu qeyd etmək kifayətdir ki, son 20 ildə Azərbaycanda 19 min kilometr avtomobil yolu və 1400 kilometr dəmir yolu tikilib və ya əsaslı təmir edilib. Hazırda isə 2017-ci ildə istifadəyə verilmiş və Orta Dəhliz vasitəsilə daşımalarda böyük əhəmiyyət kəsb edən Bakı–Tbilisi–Qars dəmir yolu xəttinin ötürücülük qabiliyyətinin daha da artırılması üçün əlavə infrastruktur işləri aparılır. Bu məqsədlə Azərbaycanın dövlət büdcəsindən 100 milyon dollar vəsait ayrılıb. Həmin vəsait hesabına yolun illik yükötürmə qabiliyyəti 1 milyon tondan 5 milyon tona qaldırılacaq. Eyni zamanda, Azərbaycanın beynəlxalq səviyyəli Ələt Dəniz Limanının yükaşırma qabiliyyətinin 15 milyon tondan 25 milyon tona qədər artırılacağı nəzərdə tutulur ki, bu da Orta Dəhliz vasitəsilə daha çox yükün daşınmasına imkan yaradacaq.

Yeri gəlmişkən, TBNM Beynəlxalq Assosiasiyasının baş katibi Qaydar Abdikerimov Bakı – Tbilisi – Qars dəmir yolu xəttinin ötürücülük qabiliyyətinin artırılmasını və Ələt limanının ikinci fazasını Azərbaycanın tranzit potensialının genişləndirilməsinə mühüm töhvə verəcəyini qeyd edib. "Bu gün Azərbaycan Qafqazda əsl regional tranzit mərkəzidir. O, təkcə bu regionda deyil, həm də şərq-qərb və şimal-cənub istiqamətlərində liderdir və çox dinamik inkişaf edir. Bu, şübhəsiz ki, ölkə rəhbərliyinin xidmətidir", – deyə o əlavə edib. Ölkəmizin Orta Dəhlizin inkişafında aparıcı rol oynadığını və nəqliyyat infrastrukturuna fəal şəkildə sərmayə qoyduğunu bildirən baş katibin sözlərinə görə, bu istiqamətdə reallaşdırılan böyük layihələrdən biri regionun əsas logistika mərkəzinə çevrilən Ələt limanının genişləndirilməsi və modernləşdirilməsi, ölkədə inşa edilən müasir universal bərələr, eləcə də Xəzər seqmentinin imkanlarını artırmaq üçün gəmiqayırma sahəsində reallaşdırılan yeni təşəbbüslər də bu baxımdan diqqət çəkir.

Bütün bu təşəbbüslər isə Orta Dəhlizdə tranzit daşımalarının sürətləndirilməsinə, marşrutun etibarlılığının artırılmasına və Azərbaycanın Şərq–Qərb istiqamətində əsas tranzit qovşağı kimi mövqeyinin gücləndirilməsinə imkan yaradacaq.

# ÜDM-də özəl bölmənin payı çoxalır

## *İndiyədək 54 mindən çox müəssisə şəxsi mülkiyyətə keçib*

**Özəlləşdirmə ölkəmizin ÜDM-də özəl sektorun payının artmasında mühüm rol oynayır. Bununla yanaşı, özəlləşdirmə əhalinin məşğulluğunun təmin edilməsi sahəsində dövlətin üzərinə düşən yükün azalması baxımından da böyük əhəmiyyət daşıyır. İndiyədək respublikada özəlləşdirilən müəssisələrdə on minlərlə yeni iş yerinin yaradılması da bundan xəbər verir.**

İqtisadiyyat Nazirliyindən qəzetimizə verilən məlumata əsasən, müəssisələrin özəlləşdirilməsi ilə ölkədə sərbəst rəqabət mühitinin formalaşmasına əlavə imkanlar açılıb, əvvəllər istehsal olunmayan, idxalı əvəz edən və ixracyönümlü, rəqabətqabiliyyətli məhsulların istehsalına nail olunub. Müxtəlif ölkələrin hüquqi və fiziki şəxslərinin iştirakı ilə özəlləşdirilən müvafiq müəssisələrə 300 milyon ABŞ dollarından artıq məbləğdə investisiyalar yatırılıb.

Bildirilir ki, respublikada indiyədək 52,7 mindən artıq kiçik müəssisə və obyekt şəxsi mülkiyyətə keçib, orta və iri dövlət müəssisələrinin bazasında yaradılan 1565 açıq səhmdar cəmiyyətdən 1495-i tam, 47-sinin isə nəzarət səhm zərfindən yuxarı hissəsi özəlləşdirilib.



# Qeyri-neft-qaz sektoru böyüyüb



**2025-ci ilin yanvar–fevral aylarında Azərbaycanda 19 milyard 72,2 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 0,2 faiz çox ümumi daxili məhsul istehsal olunub. Bu barədə Dövlət Statistika Komitəsi məlumat yayıb.**

Bildirilib ki, hesabat dövründə iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 2,7 faiz azalıb, qeyri neft-qaz sektorunda isə 1,7 faiz artıb. ÜDM istehsalının 38,5 faizi sənaye, 10,1 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 6,9 faizi nəqliyyat və anbar təsərrüfatı, 4,6 faizi tikinti, 2,9 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,5 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,9 faizi informasiya və rabitə sahələrinin, 22 faizi digər sahələrin payına düşüb.

İlin ilk 2 ayında məhsula və idxala xalis vergilər ÜDM-in 10,6 faizini təşkil edib. Hesabat dövründə əhalinin hər nəfərinə düşən ÜDM 1864,7 manata bərabər olub.

# NKA ilə 4 milyard manatlıq dövriyyə

**İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin məlumatına əsasən, qurum ölkə ərazisində indiyədək 104 min 995 ədəd yeni nəsil nəzarət-kassa aparatları (NKA) quraşdırıb və belə NKA-lardan istifadə hesablaşmaların daha şəffaf aparılmasına, malların qanunsuz dövriyyəsinin qarşısının alınmasına və dövriyyəyə nəzarətin təmin edilməsinə imkan yaradıb.**



Bildirilib ki, 2025-ci ilin yanvar–fevral aylarında yeni nəsil NKA-lar vasitəsilə qeydə alınan dövriyyə 3 milyard 908,2 milyon manat olub ki, bu da 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 345,4 milyon manatdan, yaxud 9,7 faizdən çox artım deməkdir.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Azərbaycan Milli Elmlər Akademiyası: İnkişaf mərhələləri və müasir dövr

**İsa HƏBİBBƏYLİ,**
**AMEA-nın prezidenti, akademik**



*(əvvəli qəzetin ötən sayında)*

Milli Elmlər Akademiyası 2003–2022-ci illərdə modernləşdirmə dövrünü yaşamışdır. Bu tarixi mərhələdə AMEA-da Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin yüksələn xətlə inkişafı proseslərinə uyğun olaraq, elm sahəsində islahatların aparılması ilə əlaqədar Dövlət Komissiyası yaradılmış (2008), Elmin İnkişafı üzrə Milli Strategiya və Dövlət Proqramı (2009) qəbul edilmişdir. AMEA-nın Yüksək Texnologiyalar Parkının (2016), Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun (2014), Neft və Qaz İnstitutunun (2015), Dendrologiya İnstitutunun (2014) yaradılması, Milli Ensiklopediya Mərkəzinin, Elektron kitabxananın yeni binalarının istifadəyə verilməsi (2014)... modernləşdirmə dövrünün əhəmiyyətli hadisələridir. AMEA-nın yeni Nizamnaməsinin 11 dekabr 2014-cü ildə təsdiq edilməsi ilə akademiyada yenidənqurma tədbirlərinin həyata keçirilməsinə geniş meydan açılmış, innovasiya fəaliyyəti üçün hüquqi təminat əldə olunmuşdur. Prezident İlham Əliyevin sərəncamları ilə AMEA-nın 60 və 70 illik yubileyləri qeyd olunmuş, dövlət başçısının yubiley tədbirlərində etdiyi dərin məzmunlu nitqləri ilə elmin gələcək inkişafının məsul vəzifələri müəyyənləşmişdir. Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Milli Elmlər Akademiyasının 70 illik yubileyi mərasimində səslənən fikirlər Azərbaycan elminin və o cümlədən akademiyanın xidmətlərinin qiymətləndirilməsi ilə bərabər, müasir mərhələdəki əsas vəzifələrini də qarşıya qoyur: "Azərbaycan Milli Elmlər Akademiyası ölkəmizin ümumi inkişafında fəal rol oynayır, alimlər öz elmi araşdırmalarını apararaq, ölkəmizin gələcək inkişaf dinamikasını sürətləndirirlər. Mən çox istəyirəm ki, Azərbaycan alimləri gələcəkdə də ölkəmizin hərtərəfli inkişafında daha fəal rol oynasınlar".

Prezident İlham Əliyevin "Azərbaycanda elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsinin bəzi məsələləri haqqında"kı 28 iyul 2022-ci il tarixli Sərəncamı ilə ölkəmizdə elmin yeni tarixi mərhələsinə start verilmişdir. Bu tarixi mərhələ "Milli Elmlər Akademiyasının yeniləşmə və islahatlar dövrü" kimi xarakterizə olunur. AMEA-nın tərkibindəki dəqiq-texniki və təbiət elmlərinə dair elmi tədqiqat institutlarının yeni yaradılmış Azərbaycan Respublikası Elm vəTəhsil Nazirliyinin tərkibində yüksək texnologiyalar əsasında yenidən qurulması və elmin təhsillə inteqrasiyasının genişləndirilməsi prioritet istiqamət kimi müəyyən olunmuşdur.

Milli Elmlər Akademiyasının tabeliyində fəaliyyət göstərən humanitar və ictimai elmləri əhatə edən elmi tədqiqat institutlarında isə ölkəmizin inkişaf strategiyasının və milli prioritetlərinin tələbləri işığında elmi tədqiqat fəaliyyətinin azərbaycançılıq ideologiyasına, milli-mənəvi dəyərlərin inkişaf etdirilməsinə, Türk dünyasına daha geniş şəkildə inteqrasiya edilməsinə doğru inkişaf etdirilməsi diqqət mərkəzinə çəkilmişdir. Akademiya sistemində fəaliyyətini davam etdirən Respublika Seysmoloji Xidmət Mərkəzi də bu elm sahəsi üzrə beynəlxalq əlaqələrini möhkəmləndirməklə yanaşı, region dövlətlərinin və Türk dünyasın elmi qurumları ilə daha geniş əlaqələrin qurulmasına üstünlük vermişdir. Eyni zamanda, həm Elm və Təhsil Nazirliyi sistemində və həm də Milli Elmlər Akademiyasında təmsil olunan elmi tədqiqat institutlarında IV Sənaye İnqilabının və ölkəmizdə yüksək səviyyədə təşkil olunmuş COP29-un çağırışları əsasında süni intellekt və rəqəmsal inkişaf, ağıllı texnologiyalar və yaşıl transformasiyalarla əlaqədar yeni vəzifələrin həyata keçirilməsi ön mövqeyə çıxarılmışdır. Prezident İlham Əliyevin 3 noyabr 2023-cü il tarixdə təsdiq etdiyi Milli Elmlər Akademiyasının yeni Nizamnaməsi akademiyada yenilənmə proseslərinin və islahatların daha məqsədyönlü şəkildə həyata keçirilməsinə hüquqi cəhətdən təminat verir və müasir dövrün tələbləri əsasında hərtərəfli inkişaf üçün geniş perspektivlər açır.

Hazırkı mərhələdə Azərbaycan Milli Elmlər Akademiyasında dövlətimizin elm siyasətinin uğurla həyata keçirilməsi üçün yenilənmə prosesləri və islahatlar dönmədən davam etdirilir. AMEA-da müstəqil Azərbaycan dövlətinin müasir inkişafı ilə əlaqədar məsələlərin: sosial-mədəni mühitin yenidən qurulması, azərbaycançılıq konsepsiyasının, Qarabağa və Qərbi Azərbaycana Böyük Qayıdış siyasətinin elmi əsaslarının işlənilib hazırlanması, Türk dünyası ilə inteqrasiya proseslərinin inkişaf etdirilməsi üçün məqsədyönlü tədqiqatlar aparılır, düşünülmüş tədbirlər icra olunur. Bu baxımdan çoxcildlik "Heydər Əliyev Ensiklopediyası" və "Qərbi Azərbaycan Ensiklopediyası"nın hazırlanması istiqamətində fəaliyyətə start verilməsi Milli Elmlər Akademiyasının müstəqillik dövrünün ictimai-siyasi xarakterli elmi layihələri kimi mühüm əhəmiyyətə malikdir.

Prezident İlham Əliyevin 2024-cü il yanvarın 10-da yerli televiziya kanallarına verdiyi müsahibədə irəli sürdüyü yeni tarixi dövrün milli ideyasının müəyyən edilməsi haqqındaı çağırışına cavab olaraq Milli Elmlər Akademiyasında keçirilmiş elmi müzakirələr akademik elmin müstəqil dövlətçiliyin daha da inkişaf etdirilməsi proseslərindəki fəal iştirakının əks-sədasıdır. Keçən ilin yanvar, aprel və iyun aylarında alimlərimizlə keçirilən müzakirələrdən sonra yeni tarixi dövrün ümummilli ideyasının aşağıdakı kimi müəyyənləşdirilməsi alimlərimizin zaman və müasirləşmə istiqamətindəki elmi baxışlarının ifadəsidir: Daha güclü Azərbaycan, Türk dünyası ilə birlik və həmrəylik, dünya ölkələri ilə strateji tərəfdaşlıq və rəqəmsal inkişaf.

Eyni zamanda, Milli Elmlər Akademiyasında Azərbaycan elminin ideya-məzmun etibarilə də yeni tarixi dövrün çağırışlarına doğru istiqamətləndirilməsi sahəsində islahatyönlü tədbirlər həyata keçirilmişdir. Sovet dövründə istismarçı siniflər adlandırılaraq xalqımızı soykökdən ayırmaq üçün tətbiq edilmiş süni vahid sovet xalqı düşüncəsini aradan qaldırmaq məqsədilə ədəbi-tarixi şəxsiyyətlərə, uzun zaman qaçaq-quldur adlandırılmış xalq qəhrəmanlarına yenidən qayıdış konsepsiyasının müəyyən edilməsi və həyata keçirilməsi Azərbaycan elminin müstəqil dövlətçilik və azərbaycançılıq istiqamətində inkişafına xidmət edir. Son illərdə Milli Elmlər Akademiyasında aparılmış və nəşr edilmiş tədqiqatlar əsasında Heydər Əliyev tədqiqatları kitabxanasının, Nizami Gəncəvinaməsinin, Məhəmməd Füzuli kitablar silsiləsinin meydana çıxması ədəbi-tarixi şəxsiyyətlərə yenidən qayıdışın mühüm yekunlarındandır. Eyni zamanda, A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunda keçirilmiş I Şah İsmayıl Xətai beynəlxalq elmi konfransı, bugünlərdə Ağdam Şəhər İcra Hakimiyyəti ilə birlikdə təşkil olunmuş "Qasım bəy Zakir və Qarabağ ədəbi-ictimai mühiti" konfransı, Fəlsəfə və Sosiologiya İnstitutunun akademiyanın qurucularından olan akademik Heydər Hüseynova həsr etdiyi elmi sessiya ədəbi-tarixi şəxsiyyətlərə qayıdış proseslərinin genişlənməkdə, davamlı bir prosesə çevrilməkdə olduğunu göstərir.



Türk dünyasının birliyi və həmrəyliyinin prioritetliyi haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çağırışlarının işığında AMEA Fəlsəfə və Sosiologiya İnstitutunda Türk xalqlarının fəlsəfi irsi və müasir fəlsəfəsi, Memarlıq və İncəsənət İnstitutunda Türk sənəti tarixi və mədəni irsi, Əlyazmalar İnstitutunda Türk əlyazmalarının tədqiqi şöbələri yaradılmış, Türkiyə Cümhuriyyətinin Cankırı Universiteti ilə birlikdə III Türkoloji Beynəlxalq Konqres keçirilmiş, materialları çap edilmişdir. Türk dünyasının təməl kitabı olan Mahmud Kaşqarinin "Divani luğat-it-türk" əsərinin Xalid Səid Xocayev tərəfindən orijinaldan tərcümə edilmiş nadir əlyazma nüsxəsinin 86 ildən sonra aşkar olunub, AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunda 3 cilddə çap edilməsi və xüsusən 13 dekabr 2024-cü il tarixində UNESCO-nun Baş iqamətgahında Türk dünyası ölkələrinin türkoloq alimləri ilə birlikdə təqdimatının keçirilməsi akademiyanın 80 illik tarixinin əlamətdar hadisələrindəndir.

Hazırda Türkiyə Elmlər Akademiyası ilə birlikdə Azərbaycan–Türkiyə ortaq proqramının, Qırğızıstan Elmlər Akademiyası ilə "Çingiz Aytmatov Ensiklopediyası"nın Azərbaycan cildinin sözlüyü, "Alpamış" dastanının tərcüməsi üzərində iş aparılması, 3 cildlik "Türk xalqları ədəbiyyatı"nın hazırlanmasına başlanılması Türk dünyası ilə həmrəyliyin və əməkdaşlığın inkişaf etməkdə olduğunu göstərir. Bundan başqa, AMEA-da I Bakı Türkoloji Qurultayının 100 illiyinin keçirilməsinə də hazırlıq işlərinə başlanılmışdır.

Yeni tarixi dövrün tələblərinə uyğun olaraq bəşəri çağırışlara və ümummilli maraqlara xidmət edən elmi istiqamətlərin müəyyənləşdirilməsi və həyata keçirilməsi, struktur bölmələrin fəaliyyətinin yeniləşdirilməsi sahəsində atılan addımlar Azərbaycan elminin ölkəmizdə yeni cəmiyyət quruculuğundakı rolunun daha da artırılmasına xidmət edir. Son illərdə Milli Elmlər Akademiyasının mərkəzi aparatında və müxtəlif elmi-tədqiqat institutlarında yaradılmış "Elektron Akademiya", "İnformasiya cəmiyyəti və rəqəmsal inkişaf fəlsəfəsi", "Qarabağ müharibəsinin tarixi və Böyük Qayıdış hərəkatı", "Xəzərin arxeologiyası", "Məhkəmə arxeologiyası", "Qərbi Azərbaycan tarixi", "Qərbi Azərbaycan folkloru", "Qərbi Azərbaycan və Qarabağ əlyazmalarının tədqiqi", "Toponimika", "Monitorinq və linqvistik təhlil", "Türk sənət tarixi və mədəni irs", "Türk xalqlarının fəlsəfi fikir tarixi və müasir fəlsəfəsi", "Fəlsəfi-hüquqi təlimlər və suverenlik fəlsəfəsi" və sair kimi müstəqillik dövrünün reallıqlarından doğan elmi-tədqiqat şöbələri xalqımızın milli maraqlarına, ölkəmizin dövlətçilik mənafelərinə və inteqrasiya proseslərinin genişləndirilməsinə doğru istiqamətləndirilmiş yeni tədbirlərdir.

Eyni zamanda, Milli Elmlər Akademiyasının elmi bölmələrinin fəaliyyət göstərdiyi Naxçıvan və Gəncədə, akademiyanın elmi mərkəzlərinin mövcud olduğu Şəki, Lənkəran və Qubada da elmin inkişaf etdirilməsi üçün atılan yeni addımlar, yaradılmış təzə şöbələr, xüsusən, regional elmi mərkəzlərdə ilk dəfə olaraq "Elmi əsərlər" jurnalının təsis edilməsi Azərbaycan elminin Bakı əsas mərkəz olmaqla yanaşı, respublikanın bütün regionlarında da inkişaf etdirilməsinə təminat verir.

Azərbaycan Milli Elmlər Akademiyasının 20 fevral 2025-ci il tarixli ümumi yığıncağında akademiyanın 2025–2030-cu illər üzrə İnkişaf Konsepsiyasının və Yol Xəritəsinin qəbul olunması isə akademik elmi yeni istiqamətlərə və hədəflərə doğru səfərbər edir.

Azərbaycan elminin beynəlxalq əlaqələrinin genişləndirilməsi istiqamətində də yeni dövrün tələblərinə uyğun məqsədyönlü tədbirlər həyata keçirilməkdədir. Son illərdə Azərbaycan Milli Elmlər Akademiyası ölkələrarası ikitərəfli əlaqələrdən beynəlxalq elmi təşkilatların bərabərhüquqlu üzvlüyü səviyyəsində fəaliyyətə doğru mühüm addımlar atmaqla dünya birliyində tanınan elmi quruma çevrilmişdir. Akademiyamızın dünyanın böyük akademik təşkilatları olan Beynəlxalq Elmi Şuranın, Akademiyalararası Beynəlxalq Tərəfdaşlıq Akademiyasının, Asiya Elmlər Akademiyaları və Elmi Cəmiyyətləri Assosiasiyasının səsvermə statusuna malik tam hüquqlu üzvü seçilməsi ilə elmimizin beynəlxalq əlaqələrində yeni mərhələ başlanmışdır.

Milli Elmlər Akademiyasında elektron elm hərəkatının uğurla həyata keçirilməsi Azərbaycan elminin beynəlxalq elmi bazalarda özünəlayiq yer tutmasına, beynəlxalq reytinqlərdə artan səviyyə üzrə təmsil olunmasına münasib şərait yaradır. Dünya akademiyaları sferasında anoloqu olmayan "Elektron Akademiya" şöbəsinin yaradılması və fəaliyyətinin genişləndirilməsi Milli Elmlər Akademiyasında süni intellekt və rəqəmsal inkişaf üzrə geniş perspektivlər açılmışdır. Akademiyanın elmi jurnallarından bir neçəsinin Türkiyə Cümhuriyyətinin TÜBİTAK qurumunun Dərgi Park-Ulaqbim elmi jurnallar şəbəkəsinə daxil edilməsi, eyni zamanda, ilk dəfə olaraq, Milli Elmlər Akademiyasının elmi jurnallarının ölkə üzrə də Dərgi Park sisteminin yaradılması elektron hərəkat dalğasında əldə edilmiş mühüm nəticələrdəndir. Akademiyada rəqəmsal inkişafın və süni intellektin tətbiqi, ağıllı texnologiyalardan, emmetrik göstəricilərdən və yaşıl transformasiyalardan istifadə istiqamətində həyata keçirilən genişmiqyaslı islahatlar elmimizin yeniləşmə yollarındakı nailiyyətlərindəndir. Milli Elmlər Akademiyasının "Elektron Akademiya" şəbəsinin əməkdaşları tərəfindən SUFİ Robot modelinin hazırlanması və elmi tədqiqat şəbəkəsinə cəlb edilməsi Milli Elmlər Akademiyasında süni intellekt və rəqəmsal inkişaf üzrə yeniləşmə proseslərinin elmi-texniki göstəricilərindəndir.

Ölkə elminin simasını və səviyyəsini müəyyən edən Milli Elmlər Akademiyasının həqiqi və müxbir üzvləri xalqımızın və elmimizin milli iftixarı olan görkəmli elm xadimləridir. Azərbaycan elminin akademik korpusu ölkənin qızıl fondudur. Görkəmli Azərbaycan alimləri, o cümlədən də Elmlər Akademiyasının həqiqi və müxbir üzvləri Azərbaycan xalqının milli elitasının nüvəsini təşkil edən seçilmiş zəka sahibləridir. Xalqımızın milli elitasının aparıcı qüvvəsi olan elmi elita ölkəmizdə dövlətçilik təfəkkürünün, ümummilli düşüncənin və intellektual potensialın əsas daşıyıcıları və hərəkətverici qüvvəsidir.

Azərbaycan xalqının beynəlxalq aləmdə tanıdılması və ölkəmizin dünyada təmsil olunmasında da Milli Elmlər Akademiyasının və elmi elitanın mühüm yeri və xidmətləri vardır. Respublikamızda 80 il ərzində meydana çıxmış əsas elmi ideyaların, ixtiraların, kəşflərin, səmərəli təkliflərin, yeni elmi konsepsiyaların və ümummilli ideyaların əsas müəllifləri sırasında Azərbaycan alimlərinin, xüsusən də, AMEA-nın həqiqi və müxbir üzvlərinin mühüm xidmətləri olmuşdur. Məhz onların yorulmaz elmi fəaliyyətləri ilə Azərbaycanda elmi məktəblər yaranmış, bir neçə elmi nəsil yetişdirilmişdir.

Azərbaycan Milli Elmlər Akademiyasının simaları elmdə fədakarlıq nümunəsi, Vətənin tərəqqisinə, müstəqil dövlətçiliyinin inkişafına, xalqımızın ideya-mənəvi təkamülünə xidmət örnəkləridir. Azərbaycanda elmi məktəblər yaratmış, elmimizin sərhədlərini və üfüqlərini genişləndirmiş görkəmli elm xadimlərindən Mir Əsədulla Mirqasımov, Yusif Məmmədəliyev, Musa Əliyev, Murtuza Nağıyev, Zahid Xəlilov, Əşrəf Hüseynov, Azad Mirzəcanzadə, Cəlal Əliyev, Zərifə Əliyeva, Həsən Abdullayev, Abdulla Qarayev, Şamil Əzizbəyov, Heydər Hüseynov, Mirəli Qaşqay, Həsən Əliyev, Vahab Əliyev, Musa Rüstəmov, Musa Musayev, Ziya Bünyadov, Məmməd Arif Dadaşzadə, Həmid Araslı, Şəfahət Mehdiyev, Məmməd Cəfər Cəfərov, Məmmədağa Şirəliyev, Feyzulla Qasımzadə, Firidun Köçərli, Həbibulla Şahtaxtinski, Abbas Zamanov, Validə Tutayuq, Xudu Məmmədov, Məhəmmədhüseyn Təhmasib, Budaq Budaqov, Teymur Bünyadov… və onlarca başqaları elm tariximizin şərəfli səhifələrini yaratmışlar.

Bu gün də Milli Elmlər Akademiyası özünün akademik heyəti və yeni elmi nəsilləri ilə birlikdə Azərbaycan elminin əsas elmi mərkəzlərindən biri kimi fəaliyyətini uğurla davam etdirməkdə, müstəqil dövlətçiliyin inkişafı ilə əlaqədar çoxcəhətli funksiyaları həyata keçirməkdədir. Azərbaycan Milli Elmlər Akademiyası – fundamental elmi tədqiqatların beşiyi, tətbiqi elmlərin hərəkətverici qüvvəsidir.

Milli Elmlər Akademiyası – bəşəri elmi ideyaların Azərbaycandakı böyük elçisidir, dünya elminin ölkəmizdəki əsas təmsilçisidir. Milli Elmlər Akademiyası – ölkəmizin Azərbaycanşünaslıq mərkəzidir.

Hazırda Azərbaycan Milli Elmlər Akademiyası humanitar və ictimai elmləri, habelə seysmologiya elmini özündə birləşdirən və özünəməxsus mühüm elmi nəticələri olan dövlət ali elmi təşkilatı funksiyasını həyata keçirir. Milli Elmlər Akademiyasında ölkəmizin dövlətçilik mənafelərinə və xalqımızın ümummilli maraqlarına və bəşəri elmi ideyaların yüksək tələblərinə cavab vermək üçün yeniləşmə proseslərinin və genişmiqyaslı islahatların həyata keçirilməsi məqsədyönlü şəkildə davam etdirilməkdədir.

Milli Elmlər Akademiyasının müxtəlif illərdə keçirilmiş 30, 60 və 70 illik yubileyləri Azərbaycan elminin, elm sahəsində qazanılmış nailiyyətlərin böyük təntənəsi olmuş, elmin inkişafına və alimlərin əməyinə verilmiş yüksək qiymətin və elmimizin sabahına dəstəyin ifadəsi kimi irəliyə doğru inkişafa işıq salmışdır. Milli Elmlər Akademiyasının 80 illik yubileyi də akademik elmin müstəqillik epoxasının yeni tarixi dövrünün hesabatıdır. Bu mənada 2025-ci ildə nəşr edilmiş, 447 nəfər akademikin və müxbir üzvün tərcümeyi-halını və xidmətlərini əhatə edən "Azərbaycan Milli Elmlər Akademiyası. Simalar" kitabı ölkə elminin XX-XXI əsrlər üzrə geniş elmi salnaməsi, Elmlər Akademiyasının təsisçiləri, qurucuları, mühüm elmi məktəblərin yaradıcıları, elmi kəşflərin, ixtiraların və ideyaların müəllifləri, dünya akademiyalarına üzv seçilmiş görkəmli elm xadimləri, bir sözlə, akademik elmin adlı-sanlı simaları haqqında ensiklopediyadır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkə elmi və o cümlədən də Milli Elmlər Akademiyası müstəqillik epoxasının yeni tarixi dövrünün yüksək ideallarına şərəflə və məsuliyyətlə xidmət göstərmək yollarında özünün tarixi missiyasını yerinə yetirmək üçün bütün qüvvələrini səfərbər etməkdə və daha böyük sabahlara doğru inamla addımlamaqdadır.

Qardaşlıq körpüləri

# "Konstitusiya və Suverenlik İli"nin Özbəkistan layihələri

*"İki dövlət, bir mədəniyyət" antologiyası bu sırada ilk addımdır*

**Uzun illər boyu arzuladığım Özbəkistan səfərim bu il – Novruz ərəfəsində reallaşdı. Daşkənddə Urza (Ramazan) bayramına da böyük həvəslə hazırlaşırlar, "Nauruz"a da.**

Türküstanın mərkəzi ölkəsinin (mütəxəssislər Özbəkistanı belə adlandırırlar) paytaxtındakı ilk həmsöhbətim "Xalq qəzeti"nin Mərkəzi Asiya müxbiri Qulu Kəngərli oldu. Bu köhnə dostuma və ünlü həmkarıma verdiyim ilk sual isə "Daşkəndi görmək üçün nədən, haradan başlayım?" kimi yığcam oldu. "Əlbəttə, öncə Özbəkistandakı səfirliyimizin nəzdində fəaliyyət göstərən Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzindən" – deyən dostum məni həmin mərkəzə dəvət etdi (mərkəzdə onun iş otağı var), oradakı bütün zallara, otaqlara, muzey və stendlərə birlikdə baxdıq. Qulu Kəngərli bu mərkəz haqqında elə səmimi, ürəkdən və doğmacasına danışırdı ki, mən az qala Daşkənddə olduğumu unudaraq, özümü Bakıda, "Xalq qəzeti" redaksiyasındakı kimi hiss edirdim.

Xatırladım ki, bu mərkəz Özbəkistan paytaxtının Mirabad rayonundakı Heydər Əliyev küçəsi, 9 ünvanında yerləşir. Mədəniyyət mərkəzimiz 2010-cu il sentyabrın 27-də Azərbaycan Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Baş naziri (indiki prezidenti) Şavkat Mirziyayev tərəfindən açılmışdır. 2013–2024-cü illərdə mərkəzin direktoru Azərbaycan Respublikasının "Fəxri mədəniyyət işçisi" Samir Abbasov olmuşdur.



Burada Heydər Əliyev muzeyi, Azərbaycan tarixi və dövlətçiliyi muzeyi, Azərbaycan – Özbəkistan "Dostluq" muzeyi, "Odlar yurdunun naxışları" Azərbaycan xalçaları muzeyi və sərgi zalı, kitabxana, kurs və dərnəklər fəaliyyət göstərir. Öyrəndik ki, mərkəz nümayiş etdirdiyi diplomatik və mədəni xidmətlərin səviyyəsinə, ümumtürk dəyərlərinin təbliğinə verdiyi xüsusi töhfələrə görə dəfələrlə Özbəkistanda "İlin ən fəal mədəniyyət mərkəzi" adına layiq görülmüşdür.

Mərkəzin direktoru Akif Marifli ilə söhbətimiz də qardaş ölkədəki "kiçik Azərbaycan"ın fəaliyyətinin dünəni, bu günü və sabahı barədə oldu:

**– Akif müəllim, xarici siyasətimizdə mühüm əhəmiyyət kəsb edən Özbəkistanda xalqımızın tarixini, mədəniyyətini, ədəbiyyatını, ən başlıcası, haqq səsimizi təbliğ edən qurumunuzun fəaliyyətindəki son yeniliklər barədə bəzi məlumatları öyrənmək istərdik.**

– Əslində, mərkəzimiz tərəfindən mütəmadi olaraq yeni layihələr həyata keçirilir. Hazırda Özbəkistanın müxtəlif ali təhsil müəssisələrində "Azərbaycan ocaqları" fəaliyyət göstərir və yaxın günlərdə daha on "Azərbaycan ocağı"nın açılışını həyata keçirəcəyik. Azərbaycan Respublikasının Özbəkistan Respublikasındakı Səfirliyinin nəzdində Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin dəstəyi ilə cari ilin 3 mart tarixində Kun.uz xəbər portalı tərəfindən Xocalı soyqırımının 33-cü ildönümü ilə bağlı hazırlanmış sənədli film Youtube kanalına yerləşdirilib və qısa müddətdə baxış sayı 30 min üzərində olmuşdur. Hazırda iki universitetdə Azərbaycan dili və ədəbiyyatı kursları fəaliyyət göstərir.

Mərkəzdə, həmçinin rəqs və rəsm dərnəkləri də fəaliyyət göstərir. Məlumat üçün bildirək ki, bu il ilk dəfə olaraq Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi ilə Özbəkistan Dövlət İncəsənət və Mədəniyyət İnstitutu arasındakı razılığa əsasən, bu institutun tələbələri mərkəzdə akademik təcrübəyə cəlb ediliblər. Təcrübə proqramı ərzində onlar Azərbaycan tarixi, ədəbiyyatı və incəsənəti ilə yaxından tanış olaraq, milli mədəni irsimizi daha dərindən öyrənmişlər.

**– Azərbaycan və Özbəkistan ziyalılarının fəaliyyətini necə əlaqələndirisiniz?**

– Azərbaycan və Özbəkistan arasında mədəni əlaqələrin inkişafında ziyalıların rolu böyük və əvəzsizdir. Hər iki xalq ortaq tarixi köklərə, dilə və mədəniyyətə malik olduğundan, ziyalılar bu bağları daha da gücləndirmək üçün fəal iştirak edirlər. Bu istiqamətdə aşağıdakı məqamları vurğulamaq olar:

Ədəbi əlaqələr və tərcümə fəaliyyəti – Azərbaycan və Özbəkistan yazıçıları, şairləri bir-birinin ədəbi irsini araşdırır, əsərlərini tərcümə edir və oxuculara təqdim edirlər. Məsələn, Nizami Gəncəvi və Əlişir Nəvai yaradıcılığı hər iki xalqın mənəvi irsində mühüm yer tutur.

Elm və təhsil sahəsində əməkdaşlıq – müxtəlif istiqamətli alim və mütəxəssislər ortaq tədqiqatlar aparır, beynəlxalq konfranslar və simpoziumlarda iştirak edirlər. Universitetlər arasında əməkdaşlıq da bu əlaqələrin dərinləşməsinə töhfə verir.

Teatr və kino sahəsində əməkdaşlıq – hər iki ölkənin teatr və kino xadimləri mədəni əlaqələrin inkişafına xidmət edirlər. Artıq bu ildən başlayaraq Özbəkistan teatrlarında mütəmadi olaraq Azərbaycan dramaturqlarının əsərləri səhnələşdiriləcək.

Musiqi və incəsənət sahəsində əməkdaşlıq – Azərbaycan və özbək musiqiçiləri birgə konsertlər verir, musiqi festivallarında iştirak edirlər. Muğam və makom kimi qədim musiqi janrları ortaq dəyərlərimizdəndir.

Media və nəşriyyat fəaliyyəti – ziyalılar Azərbaycan və Özbəkistan arasında mədəni əlaqələri gücləndirmək üçün məqalələr hazırlayır, jurnal və qəzetlərdə çıxış edirlər. Bundan əlavə, hər iki ölkədə mədəniyyət sahəsində yeni nəşrlər işıq üzü görür. Eyni zamanda mərkəzin təşəbbüsü ilə özbək mətbuatında Azərbaycan mədəniyyətinin təbliği, həmçinin Azərbaycanın haqq səsini özbək ictimaiyyətinə çatdırmaq, istər tarixi zəfərimiz, istər Qarabağda aparılan quruculuq işləri, istərsə də ermənilər tərəfindən xalqımızın başına gətirilmiş müsibətlər və xüsusən də Xocalı soyqırımı ilə bağlı silsilə məqalələr vaxtaşırı dərc olunur.

Bundan başqa, mərkəzdə yaradılmış dostluq cəmiyyəti ilə birgə mədəni tədbirlər təşkil edirik, ziyalıları bir araya gətirir və ortaq layihələr həyata keçiririk. Ümumilikdə, Azərbaycan və Özbəkistan ziyalılarının fəaliyyəti iki qardaş xalq arasında mədəni inteqrasiyanı gücləndirir, tarixi və mədəni bağların möhkəmlənməsinə xidmət edir.

**– Milli maraqlar naminə gördüyünüz bu işlərdə daha çox hansı faktorlar mühüm rol oynayır?**

– Azərbaycan və Özbəkistan arasındakı münasibətlər milli maraqlar konteksində bir sıra konkret faktorlara əsaslanaraq inkişaf edir. Bu faktorlar iki ölkənin strateji əməkdaşlığını stimullaşdırır və onların qarşılıqlı maraqlarına xidmət edir.

Mədəni bağlar kontekstindən baxdıqda məlum olur ki, Azərbaycan və Özbəkistan ortaq tarixi köklərə, türkdilli xalqların birliyinə və İslam mədəniyyətinə malikdir. Nizami Gəncəvi, Əlişir Nəvai, Babur kimi görkəmli şəxslərin irsi hər iki xalq üçün ortaq dəyərdir. Mədəniyyət və incəsənət sahəsində əlaqələr getdikcə genişlənir, qarşılıqlı sərgilər, teatr festivalları və konsertlər təşkil olunur.

**– Bu əhatəli layihələrin icrası zamanı hansı qurumların köməyini görürsünüz?**

– İki ölkə arasında strateji əməkdaşlıq və dövlət səviyyəsində layihələrin koordinasiyası, təbii ki, Azərbaycan Respublikası



Prezidentinin Administrasiyası və Özbəkistan Respublikası Prezidentinin Administrasiyası tərəfindən tənzimlənir. Bundan başqa Azərbaycan və Özbəkistan arasında həyata keçirilən layihələrin icrasında həm rəsmi, həm də qeyri-rəsmi qurumların əhəmiyyətli rolu var. Bu qurumlar iqtisadi, siyasi, mədəni və sosial sahələrdə əməkdaşlığın inkişafına dəstək verirlər. Təbii ki, Xarici İşlər Nazirliyi – siyasi və diplomatik əlaqələri koordinasiya edir, beynəlxalq əməkdaşlığı inkişaf etdirir. Mədəniyyət Nazirliyi isə iki ölkə arasında mədəni əlaqələrin inkişafında mühüm rol oynayır, milli maraqlara uyğun olaraq müxtəlif sahələrdə əməkdaşlıq edərək mədəni irsin qorunmasına, mübadilənin artırılmasına və mədəni diplomatiyanın gücləndirilməsinə töhfə verir.

***– Perspektivdə hansı layihələrin şahidi olacağıq?***

– Bilirsiniz ki, bu il Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan edib. Bu sərəncam Azərbaycan – Özbəkistan əməkdaşlığı çərçivəsində yeni mədəni və hüquqi layihələrin həyata keçirilməsi üçün yaxşı fürsətdir. Azərbaycanla Özbəkistan arasında perspektivdə bir sıra layihələr həyata keçiriləcəkdir. Məsələn "İki dövlət, bir mədəniyyət" antologiyası. Bundan başqa, perspektivdə mədəniyyətin bütün istiqamətləri üzrə çoxsaylı layihələrimiz var. Belə ki, Azərbaycanla Özbəkistan arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyinə həsr olunmuş silsilə tədbirlər təşkil olunacaq. Həmçinin kitab və ədəbi əlaqələrin inkişafı məsələləri də bizim üçün prioritet məsələlərdəndir. Daim yazıçı və şairlərin əsərlərinin qarşılıqlı tərcüməsini və nəşrini dəstəkləyirik. Milli kitabxanalar və nəşriyyatlar arasında əməkdaşlıq quraraq, ədəbi irsin tanıdılması istiqamətində layihələr gerçəkləşdiririk. Müxtəlif ədəbi müsabiqələr və konfranslar təşkil edirik.

**P.S.** Mərkəzin binasının üstündə Azərbaycanın Dövlət bayrağı dalğalanır, ən görkəmli məkanda ulu öndər Heydər Əliyevin büstü yaradılıb. Daha bir əlamətdar fakt isə ondan ibarətdir ki, üçmərtəbəli binanın fasadına Azərbaycandan aparılmış daşla üzlük çəkilmişdir. Bu isə Özbəkistanda daşla bağlı hansısa problemin olduğundan irəli gəlmir (Özbəklər özlərinin min illəri əhatə edən tarixini məhz daşlarla yaşadırlar). Elə bilirəm ki, qardaş ölkənin paytaxtına Bakıdan daş aparılması dostluq, qardaşlıq və əməkdaşlıq münasibətlərini daş kimi əsrlər boyu yaşatmaq istəyinin göstəricisidir. Mən oradakı divar üzlüklərini Daşkəndə Bakının "hansısa siyasi və ya təbii küləklər tərəfindən silinməyəcək məktubları" kimi gördüm.

*İttifaq MİRZƏBƏYLİ*

**Daşkənd**

# Qadın komitə sədrinin BMT görüşləri



**BMT-nin Qadınların Statusu Komissiyasının Nyu-Yorkda keçirilən 69-cu sessiyası çərçivəsində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova bir sıra görüşlər keçirib.**

Macarıstanın Ailə Məsələləri üzrə Dövlət Katibi Zofia Kontsla görüşündə iki ölkə arasında dostluq münasibətlərindən söz açan Bahar Muradova, hazırda iqtisadi, sosial, siyasi və mədəni əlaqələrin yüksək səviyyədə inkişaf etdiyini qeyd edib. Azərbaycanda dövlət siyasətinin müasir dəyərlərin milli kimlik müstəvisində qəbul edilməsinə, millilik və müasirliyin vəhdətinə əsaslandığını vurğulayıb. O, Macarıstanın Azərbaycanla birlikdə həm də Türk Dövlətləri Təşkilatında təmsil olunduğunu, hər iki ölkənin eyni ailə dəyərlərinə üstünlük verdiyini əlavə edib.

Ailə dəyərlərinin qorumağın vacibliyini qeyd edən Zofia Konts, bu dəyərlərin millətlərimizin fundamentini, özəyini təşkil etdiyini bildirib. O, fəaliyyətlərində əsas istiqamətlərin işsizliyin aradan qaldırılması və ailələrə dəstək xidmətlərinin göstərilməsi olduğunu qeyd edib, digər fəaliyyət istiqamətləri barədə məlumat verib, dəstək proqramları çərçivəsində reallaşdırılan layihələrdən danışıb. Xanım katib ailə dəyərlərinin gücləndirilməsi sahəsində qarşılıqlı əməkdaşlığa, təcrübə mübadiləsinə hazır olduqlarını bildirib və ölkəsinin Azərbaycanın bu sahədəki təcrübələrindən yararlana biləcəyini vurğulayıb.

BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin ləğv olunması üzrə Komitəsinin sədri Nahla Haidarla görüşdə Bahar Muradova sonuncu hesabatda əksini tapan rəy və tövsiyələrin Azərbaycan tərəfindən diqqətə alındığını, əksəriyyətinin artıq icra edildiyini vurğulayıb. Bildirib ki, Azərbaycan 5 il əvvəl suverenliyi tam bərpa edib və komitə müharibənin qadınlar üzərində yaratdığı fəsadların aradan qaldırılması istiqamətində fəaliyyətini davam etdirir. O, həmçinin Ermənistanın 30 illik hərbi təcavüzü nəticəsində əsir, itkin düşmüş və girov götürülmüş azərbaycanlılar haqqında məlumat verib.

BMT-nin komitə sədri Nahla Haidar məsələ ilə bağlı araşdırmalar aparılması üçün sənədləşmənin və konkret faktların təqdim edilməsinin vacibliyini vurğulayıb. O, itkin düşən azərbaycanlıların taleyinə aydınlıq gətirilməsi istiqamətində Azərbaycanla daha sıx əməkdaşlıq etməyə hazır olduğunu bildirib.

Komitə sədri Serbiyanın gender bərabərliyi, qadınlara qarşı zorakılığın qarşısının alınması və qadınların iqtisadi və siyasi səlahiyyətləndirilməsi naziri Tatyana Makura ilə də görüşüb.

O, dövlət komitəsinin fəaliyyət istiqamətləri barədə serbiyalı həmkarına məlumat verib və son 5 ildə Azərbaycanda ailə məsələləri sahəsində ciddi irəliləyişin olduğunu diqqətə çatdırıb. Bahar Muradova erkən nikah, ailədaxili zorakılıq mövzularında cəmiyyətdə məlumatlılığın aparılması üçün müxtəlif, o cümlədən sosial mediada geniş kampaniyaların aparıldığını deyib.

Serbiyalı nazir iki ölkənin ailə mövzusunda ortaq maraqlarının olduğunu deyib və son bir ildə ölkəsində ailədaxili münaqişə sahəsində aparılan kampaniyadan bəhs edib. Nazir bu məsələnin həllində qanunverici bazada dəyişikliyin xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayaraq, vətəndaş cəmiyyətinin də məişət zorakılığına qarşı mübarizədə rolunu qeyd edib.

*Z.HÜSEYNOVA*
*XQ*

# Türkiyə mediası Azərbaycan həqiqətlərinin yanındadır



**Türkiyə mediasının aparıcı mövzularından biri də Azərbaycan–Türkiyə münasibətləridir. Qardaş ölkənin jurnalistləri Azərbaycanda baş verənlərin cəmiyyətə və dünyaya çatdırmağı özlərinin vəfa borcu bilirlər. Bu, tarixən belə olub və bu gün də belədir. Azərbaycanın haqq səsinin beynəlxalq aləmə yayılmasında keçən əsrin 90-cı illərində də, Qarabağ zəfəri dövründə də türkiyəli həmkarlarımız fədakarlıq göstərmişlər.**

Türkiyənin məşhur qəzetlərindən biri, 30 ildən çox Egey bölgəsinin və İzmirin səsi olan "Gözləm" qəzetinin imtiyaz sahibi Çətin Gürər bu barədə bizimlə söhbətində bildirdi:

– Azərbaycan jurnalistləri ilə birbaşa əlaqələrimiz, hələlik, zəif olsa da informasiya agentliklərindən aldığımız informasiyaların davamlı və operativ olaraq qəzetimizdə yerləşdirilməsinə çalışmışıq. Qəzetimizin əski dostlarından olan Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Mərkəzinin baş direktoru, professor Akkan Suverin Azərbaycanla bağlı yazılarının qəzetimizdə dərc edilməsi isə ənənə halını alıb. Bu il fevralın əvvəllərində Azərbaycan Prezidentinin "Gözləm"ci dostumuz Akkan Suverə təltif etdiyi "Heydər Əliyev-100" medalı ölkənizin Türkiyədəki səfirliyində dövlət təmsilçilərinin, Türkiyə millət vəkillərinin və siyasətçilərin də iştirakı ilə təqdim edilməsi bizim kollektiv üçün də sevindirici oldu.

Qəzetimizdə bu barədə dərc edilən xəbərdə səfir Rəşad Məmmədov Akkan Suver haqqında söylədiklərini xatırlatmağa dəyər: Ulu öndərimiz Heydər Əliyevin yaxın dostu olan, onunla uzun illər çıx əlaqələr quran Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Mərkəzinin baş direktoru, professor Akkan Suver son illərdəki çalışmalarıya, Azərbaycan–Türkiyə işgüzar dairələrinin təşkil etdiyi çoxsaylı mərasimlər və tədbirlərdəki fəaliyyəti ilə "Bir millət–iki dövlət" olan Azərbaycan–Türkiyə əlaqələrinin inkişafına dəyərli töhfələr verib. Türkiyənin ilk və tək mətbuat kartlı jurnalist-diplomatı tituluna sahib olan professor bu gün də qəzetimizə məqalələr yazır. Onun Azərbaycanda baş verən içtimai-siyası hadisələr haqqında yazıları böyük maraq doğurur. Çox böyük hadisədir ki, Azərbaycan özünün müstəqil siyasəti və geniş iqtisadi imkanları ilə qardaş Türkiyənin iqtisadiyyatının çiçəklənməsi üçün də böyük sərmayədara çevrilmişdir.

"Gözləm" qəzeti redaksiyasında olarkən və redaksiya heyətinin üzvləri ilə görüşərkən də Azərbaycana olan böyük marağın şahidi oldum. Azərbaycan–Türkiyə əlaqələrinin tarixi və bu günü ilə bağlı çoxsaylı sualları cavablandırmaq maraqlı olduğu qədər də qürurverici idi. Tarixi qardaşlıq münasibətlərindən qaynaqlanan bu əlaqələr isə birliyimizin və strateji əməkdaşlığımızın ən yeni səhifələri olmaqla böyük Turan birliyinin uzaqda olamayan üfüqlərini göstərir.

Redaksiya heyətinin üzvləri ilə səmimi söhbətdən sonra "Gözləm" qəzetinin bu barədə təqdim etdiyi "Azərbaycan Türkiyə ilə əlaqələrə böyük önəm verir" adlı məqalədə qeyd olunur ki, iş birliyinə və ortaq yatırım hədəflərinə hər iki ölkədə böyük önəm verilir. İki ölkə arasındakı ticarət və mədəni əlaqələrin müsbət bir səviyyədə olduğu və daha da gücləndirilməsi üçün hər iki tərəfin çalışmaları davam etdirdiyini bildirilir. Qarabağın yenidən qurulmasında Türkiyə şirkətlərinin aktiv rol oynadıqları və əhəmiyyətli layihələrə imza atdıqları da vurğulanır.

"Gözləm" qəzeti redaksiya heyətinin rəhbəri Çətin Gürər və üzvülərilə görüşüm bir daha təsdiq etdi ki, Azərbaycan və Türkiyə arasında media sahəsində strateji əməkdaşlıq haqqında Anlaşma Memorandumu qarşlıqlı fəaliyyəti canlandıracaq. Bu platforma media nümayəndələrinin, aidiyyəti qurumların daha sıx və peşəkar münasibətlərinin qurulmasına böyük imkanlar yaradacaq.

*Namiq QƏDİMOĞLU*
*XQ*

Azərbaycan milli mətbuatı – 150 Üzeyir Hacıbəyli – 140

# İstiqlal savaşının mübariz publisisti

**Böyük maarifpərvər ziyalımız Həsən bəy Zərdabinin "Əkinçi" qəzeti ilə başlanan milli mətbuat tariximizin bir çox görkəmli simaları olub. Jurnalistikamızın 150 illiyi ərəfəsində həmin görkəmli qələm sahiblərini də yada salmaq məfkurə tariximizə vəfa borcumuzdur. Onlardan biri də Türk dünyasının qüruru, professional musiqi mədəniyyətimizin banisi, dramaturq, publisist, pedaqoq, musiqişünas alim, tərcüməçi, ictimai xadim Üzeyir bəy Hacıbəylidir.**

Məlum olduğu kimi, Azərbaycan Prezidenti İlham Əliyev milli mətbuatımızın 150 və Üzeyir bəyin 140 illik yubileylərinin keçirilməsi barədə fevral ayında sərəncamlar imzalayıb. Bu silsilədən təqdim etdiyimiz növbəti yazıda Üzeyir Hacıbəylinin publisistik fəaliyyətindən söhbət açmaq istəyirik.

Dövlət başçısının müvafiq sərəncamında qeyd olunur ki, Üzeyir bəy Şərqin və Qərbin musiqi nailiyyətlərinin dərin vəhdətində dünya musiqisinin qızıl fondunda fəxri yer tutan nadir sənət incilərini meydana gətirmiş, Azərbaycan mədəniyyətinə beynəlxalq miqyasda geniş şöhrət qazandırmışdır. "Üzeyir Hacıbəyli eyni zamanda parlaq bədii dühası sayəsində Azərbaycan dramaturgiyasına dəyərli töhfələr vermiş, alovlu publisistikası ilə mətbuat salnaməsinə yeni səhifələr yazmışdır. Onun azərbaycançılıq məfkurəsi ilə yoğrulmuş dolğun ictimai-siyasi fəaliyyəti əsl vətənpərvərlik nümunəsidir".

Türk dünyasının qüruru sayılan dahi bəstəkar 1910-cu ildə "Həqiqət" qəzetində yazırdı: "Bəşəriyyət tarixində elə şəxslər var ki, onlar özləri üçün anadan olmayıblar, bəlkə bütün xalqa və hətta ümumbəşəriyyətə xeyir gətirmək və tərəqqisinə səbəb olmaq üçün yaranıblar. Bu cür adamlar nəinki sağlığında, bəlkə öləndən sonra da camaata mənfəət verirlər". Bu fikirləri bütünlüklə millətinin qayğısını öz çiyinlərində daşıyan əsl Üzeyir bəyin özünə də aid etmək olar.

Əmək fəaliyyətinə pedaqoq, publisist kimi başlayan Üzeyir bəy Hacıbəyli 1903-cü ildə "Dəllək" adlı ilk mənzum felyetonunu yazaraq, "Şərqi-rus" qəzetində dərc etdirib. Tezliklə mahir bir publisist kimi də tanınıb. Onun bu sahədəki yaradıcılığı ömrünün sonunadək davam edib. Publisistikasının ən qaynar dövrü isə 1905–1920-ci illər olub. Həmin dövrdə Ü.Hacıbəyli "Həyat", "İrşad", "Tərəqqi", "Həqiqət", "İqbal", "Yeni İqbal"," Azərbaycan", "Kaspi", "Molla Nəsrəddin" kimi mətbu orqanlarda 67 təxəllüs ilə ("Filankəs", "Bəhmənkəs", "Bir şəxs", "Bisavad", "Çı", "Lal uşaq", "Hamamçı", və i.a.) bir-birindən maraqlı məqalə və felyetonlarını dərc etdirib. Yazıları onun bir qələm sahibi kimi böyük cəsarətə malik olduğunu göstərir. Müxtəlif janrlarda yazıları öz aktuallığı ilə də seçilirdi. XX əsrin əvvəllərində yazılmış həmin əsərlər bu gün də aktualdır. Bu isə müəllifin uzaqgörənliyinə dəlalət edir. O, özündən sonra bu sahədə də zəngin irs qoyaraq gedib.



Üzeyir Hacıbəyli "İrşad" qəzetinin 1 aprel 1907-ci il tarixli nömrəsində dərc etdirdiyi "Hürriyyəti-mətbuat" adlı məqaləsində mətbuat azadlığı məsələsini qoyaraq, qəzetlərin senzor nəzarətindən xilası zərurətini önə çəkib: "Vaxti ki, senzur idarələri bu cür fəqərələrin (hadisələrin) mətbuata çıxmasını qoymur, onda məlum olur ki, haman senzuru təyin etmiş hökumət öz əhalisinin yaxşı və yaman gün keçirməsinə heç bir zaman əhəmiyyət verməyib, ümum əhali mənafeyini öz əmrinə qurban edir, yəni əhalinin, məmləkətin qeydinə qalmayıb, ancaq hökm sürmək, hökmfərma olmaq və bilaxirə, əhalinin boynuna minmək arzusunda bulunur".

Onu da xatırladaq ki, az qala, hər gün maraqlı mövzularla çıxış edən Üzeyir bəy ayrı-ayrı vaxtlarda 4 qəzetin redaktoru olub. "Tərəqqi" (1908–1909), "Həqiqət" (1909–1910), "Yeni iqbal" (1915–1916), "Azərbaycan" (1919–1920) qəzetlərində həmin vəzifəni daşıyıb, imkan daxilində sərbəst fəaliyyət göstərməyə çalışıb.

Böyük mütəfəkkir ana dilimizin saflığı uğrunda da yorulmaz mübarizə aparanlardan olub. 1906-cı il "İrşad" qəzetində yazırdı: "...Halbuki bizim türk lisanımız Avropa üləma və filosoflarının rəyinə nəzərən ən vəsi və kamil bir dildir ki, onun vasitəsilə insan ən ali fikirlərini və ən dəqiq hisslərini bəyanə qadirdir. Belə bir zəngin lisanın sahibi olub da onunla istifadə etməməyin özü böyük bir bədbəxtlikdir". Onun "Həqiqət", "Azərbaycan" və sair qəzetlərdə də bu barədə kəskin fikirləri yer alıb. "Hansı vasitələr ilə dilimizi öyrənib kəsbi-maarif etməliyik", "Zurna", "Üsuli-təbii" adlı yazıları bu sıradandır. Üzeyir bəy bir-birinin ardınca 3 məqalədə Ana dilinin tədrisinin vacibliyini irəli sürüb. Bu da var ki, Üzeyir bəy öz operetta, librettolarında ana dilimizin bütün qanunlarına riayət etməsi, onun gözəlliyini, zərifliyini qoruyub saxlaması, bütün dil-ifadə qanunlarına riayət etməsi ilə də şəxsi nümunə göstərib.

Üzeyir Hacıbəylinin düz 40 il əvvəl "Yazıçı" nəşriyyatında buraxılmış çox sanballı "Seçilmiş əsərləri"nin, təxminən, 500 səhifəsini dövri mətbuatda çıxan nisbətən kiçik həcmli məqalələri tutub. Əslində, bu da onun mətbuatdakı çıxışlarının heç də hamısı deyil, çünki sovet vaxtı olduğuna görə, ən azı, 115 ifşaedici məqaləsi senzura üzündən kitablarına salınmayıb. Fərəhlidir ki, Azərbaycan mətbuatı tarixinin tədqiqi sahəsində mühüm xidmətləri olan tanınmış jurnalist, professor Şirməmməd Hüseynov Üzeyir bəyin bütün məqalələrini toplayaraq, 2 cilddə nəşr etdirib. 115 məqalədən ibarət 1-ci cild 2009-cu ildə, vaxtilə zədələndiyi üçün tam mətni bərpa olunmuş məqalələr isə 2-ci cild kimi 2010-cu ildə "Elm" nəşriyyatı tərəfindən nəfis şəkildə buraxılıb.

Oxuduqca görürük ki, Üzeyir bəyin publisistikası ictimai həyatın irəli sürdüyü vacib problemlərə vaxtında və çox obyektiv cavab verir, əsl jurnalistə xas olan doğruculluq, tələbkarlıq, məfkurəvilik onun olaylara hər şeydən öncə məhz xalqın, onun mütərəqqi qüvvələrinin mövqeyindən qiymətləndirməsini təmin edirdi. Üzeyir bəyi publisistikaya gətirən onun "cəmiyyətlə üz-üzə, göz-gözə danışmaq", mütərəqqi fikirlərini xalqa mümkün qədər tez çatdırmaq və aşılamaq arzuları olub.

*Ə.ƏLİYEV*
*XQ*

---

Azərbaycanın Özbəkistandakı səfirliyinin nəzdindəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin təşəbbüsü ilə Şarofiddin Tolaqanovun Daşkənddə özbək dilində çap olunmuş "Odlar Yurdu Azərbaycan" kitabının təqdimat mərasimi keçirilib.



# Daşkənddə "Odlar Yurdu Azərbaycan" sevgisi

Əlişir Nəvai adına Milli Kitabxanada keçirilən mərasimdə Özbəkistan Jurnalistlər İttifaqının sədri Xolmurad Salimov tanınmış jurnalist Şarofiddin Tolaqanovun yaradıcılığı haqqında məlumat verib, onu Azərbaycan sevdalısı olan jurnalist kimi xarakterizə edib.

Daha sonra çıxış edən Azərbaycanın Özbəkistandakı səfiri Hüseyn Quliyev bildirib ki, Şarofiddin Tolaqanov Odlar yurdunu sevən bir jurnalistdir, səfirliyimizlə daim əməkdaşlıq edir, bir neçə dəfə ölkəmizdə səfərdə olub, işğaldan azad edilmiş torpaqlarımıza gedib, ermənİ vandalizmini öz gözləri ilə görüb. Bu səfərlərin nəticəsində yaranan kitab artıq ortadadır. Səfir nəşrdə Azərbaycan xalqı, dövlətçilik tarixi, mədəniyyəti, incəsənəti, ədəbiyyatı, milli bayramları, hüzn günləri, ümummilli lider Heydər Əliyev, Azərbaycan Prezidenti İlham Əliyev, Birinci vitse-prezident Mehriban xanım Əliyeva, mədəniyyət mərkəzi olan Şuşa, Qarabağ, torpaqlarımızın erməni işğalından azad olunması, Azərbaycan–Özbəkistan tarixi, mədəni əlaqələri haqqında geniş məlumatların verildiyini də qeyd edib.

Özbəkistanın UZA Milli İnformasiya Agentliyinin direktoru Abdusaid Kuçimov Azərbaycanla Özbəkistan arasında mədəni əlaqələrin tarixindən, şair və yazıçılarımızın, alimlərimizin dostluğundan danışıb, Azərbaycan və özbək xalqlarının böyük oğlu, özbək ədəbiyyatının klassikinə çevrilən Maqsud Şeyxzadənin əsərləri haqqında söhbət açıb. O, Şarofiddin Tolaqanovun "Odlar Yurdu Azərbaycan" kitabının son illərdə Azərbaycan haqqında Özbəkistanda yaranan ən yaxşı əsər olduğunu vurğulayıb.

Əlişir Nəvai adına Milli Kitabxananın direktoru Umida Taşbayeva, yazıçı Tulkin Eşbek, jurnalist İslam Zakirov və başqaları Şarofiddin Tolaqanovu peşəkar bir jurnalist və dost kimi xarakterizə ediblər.

Sonda Şarofiddin Tolaqanov əməkdaşlığa, yaradılan şəraitə və təqdimata görə Azərbaycanın Özbəkistandakı səfirliyinə, səfirliyin nəzdindəki Azərbaycan Mədəniyyət Mərkəzinə və Əlişir Nəvai adına Milli Kitabxanaya minnətdarlıq edib.

*Qulu KƏNGƏRLİ,*
*XQ-nin Türküstan müxbiri*

**Daşkənd**

---

Zülfiyyə – 110



# Özbəklərin bahar qızı

## Şair Zülfiyyə Lənkəranın Fəxri vətəndaşı olmuşdu

**"Özbəkistanın bahar qızı" adlandırılan tanınmış şair Zülfiyyə İsrailova 1915-ci il martın 14-də Daşkənddə dəmirçi ailəsində dünyaya göz açıb. Beynəlxalq Cəvahirləl Nehru, "Nilufər" mükafatları, Həmzə adına Özbəkistan Dövlət Mükafatı laureatı olub.**

Onun zərif ruhlu yaradıcılığı başdan-başa söz rəsmlərindən ibarətdir. Növbəti ad günlərindən birində yazan gəlişini rəssam kimi təsvir edib:

***Yenə bahar gəlib!***
***Bahar dünyası,***
***Badam güllərinin süd rəngləriylə.***
***Quşların pərvazı, yelların nazı,***
***Dünyanın müqəddəs çiçəkləriylə.***

"Həyat səhifələri" adlı ilk şeirlər kitabı hələ 17 yaşında ikən çapdan çıxmış Zülfiyyə özünün parlaq həyat səhifələri ilə tezliklə sovetlər birliyinin və Şərqin ən populyar şairlərindən olub. Özbəkistanın xalq şairi, Sosialist Əməyi Qəhrəmanı adlarına layiq görülüb. Onun poeziyası Şərq və Qərb ənənələri zəminində formalaşıb yüksək mərhələyə çatan sənətdir. Özü qeyd edirdi ki, böyük Nəvainin həssas qəzəlləri, Füzulinin poemaları, Puşkinin billur misraları, Bayronun üsyankar şeirləri, Lermontovun təsirli poeziyası şairə güclü təsir göstərib və yaradıcılığında silinməz izlər buraxıb.

Yuxarıdakı şeir parçasından göründüyü kimi, qardaş xalqın xanım şairinin poetik nəfəsi bizim ədəbi ruhumuza çox yaxındır. Azərbaycan poeziyasının Özbəkistanda təbliğində də onun xidmətləri var, şairlərimizin, o cümlədən M.Dilbazi, Mədinə Gülgün, Nigar Rəfibəyli və Hökumə Billurinin xeyli əsərini özbəkcəyə uyğunlaşdırıb. Onun şeirlərinini isə Ələkbər Ziyatay, İlyas Tapdıq, Mirvarid Dilbazi dilimizə çeviriblər. "Torpağa səcdə" kitabı Bakıda nəşr olunub.

Xalq şairi Mirvarid Dilbazi həmkarının yaradıcılığından bəhs edərkən deyib: "Onun əsərlərinin ən böyük məziyyəti onların obrazlılığındadır. Onun mövzuları müxtəlif, boyaları rəngarəng, poeziyası nikbindir. Bu nikbin poeziya insanı yüksəlməyə, vüqarlı yaşamağa, mətanətli olmağa çağırır. Zülfiyyə vətənpərvər, insanpərvər şairdir".

Mirvarid xanımın bacısı – yazıçı Yaqut Dilbazinin Özbəkistanın məşhur xanım şairinin yaradıcılığından bəhs edən "Zülfiyyənin şeirləri Azərbaycan dilində" məqaləsi də onun poeziyasına verilən yüksək dəyərin elmi ifadəsidir. Ədəbiyyatşünas, professor Pənah Xəlilov isə Zülfiyyənin poeziyasını yüksək dəyərləndirərək yazırdı: "Bu lirikada yalnız ona məxsus fərdi duyğular və düşüncələr var. Bu duyğular taleyin zərbəsinə məruz qalmış nakam qadınların, ömrünü ailəsinə, ümidini qələminə bağlamış anaların könül aləmini təmsil edir".

Zülfiyyənin erkən vəfat etmiş ömür-gün yoldaşının ölümünə yazdığı şeir onun sevgi duyğularını qısaca belə təcəssüm etdirir:

***Sən göz işığımda, ürək odumda,***
***Necə ki, mən sağam, bil sən də sağsan.***
***Gecə yuxumdasan, gündüz yadımda...***
***Yox... Məndən sonra da yaşayacaqsan!***

...1979-cu ildə Özbəkistan ədəbiyyatı və incəsənəti günlərində qonağımız olan nümayəndə heyətinin tərkibində o da vardı. Azərbaycanın şəhər və rayonlarına da unudulmaz görüşlərə yollanıb. Elə o günlərdə Zülfiyyəyə "Lənkəranın fəxri vətəndaşı" adı verilib. Növbəti ildə isə Özbəkistanda keçirilən analoji bayramda Azərbaycanın Xalq şairi Mirvarid Dilbazi Özbəkistanın Xalq şairinə onun mis üzərində döyülmüş portretini hədiyyə edib. O isə cavab olaraq deyib:

***Dostlarımın təmiz eşqi hər axşam-səhər***
***Mənim ürək məhnum oldu bir dəniz qədər.***
***Tapdım orda bu dostluğa qol-qanad verən***
***Ürəyimə yaxın, doğma adamları mən.***

Zülfiyyənin epik yaradıcılığı da olduqca geniş və rəngarəngdir. O, özbək ədəbiyyatında "Ona Fərhad deyirdilər", "İki yoldaş", "Müşairə", "Vadi ulduzları", "Nəğməli qələm" və digər poemaların müəllifi kimi tanınır. "Müşairə" poeması isə Asiya və Afrika tərəqqipərvər yazıçılarının 1956-cı ildə Hindistanda keçirilən konfransının təəssüratları əsasında qələmə alınıb. Poemada xalqlar dostluğu, insanpərvərlik kimi ideyalar tərənnüm olunur. "Nəğməli qələm" poeması isə böyük şair və alim Musa Aybəkin xatirəsinə həsr olunub və burada onun ədəbi obrazı yaradılıb. Şair-tərcüməçi Zülfiyyə bir çox libretto, oçerk və publisistik əsərlər müəllifi kimi də şöhrət qazanıb...

Zülfiyyə xanım Lənkəranın Fəxri vətəndaşı olandan sonra burada yeni doğulan neçə-neçə qıza onun adı verilib. Zülfiyyələr onun adını yaşatdığı kimi, Azərbaycan–Özbəkistan ədəbi əlaqələrindən bəhs edilən də də qardaş xalqın "Bahar qız"ı ehtiramla anılır.

*Əli NƏCƏFXANLI*
*XQ*

---

# "Ər quyusu" – gülüş çeşməsi



**Azərbaycan kinematoqrafiyasında 90-cı illərin həyat tərzi, ailə-məişət qayğıları və insan münasibətlərini əks etdirən maraqlı filmlərimiz kifayət qədərdir. Belə uğurlu ekran işlərindən biri də "evdəqalmış" damğası vurulan qızların taleyindən bəhs edən "Ər quyusu"dur.**

Filmdə əsas motiv kimi qızların ailə həyatı qurmaması və məhz bu səbəbdən yaranan mənəvi-psixoloji problemlər ön plana çəkilib. 6 qızı olan və sadəcə oğul övladı dünyaya gətirmək üçün ümidini falçılara bağlayan ananın, həmçinin qızlarının ərə getməməsinə görə həmkəndlilərinin məsxərə obyektinə çevrilən atanın dramı böyük bir faciə kimi göstərilir.

Filmin ssenari müəllifi və quruluşçu rejissoru olan Səidə Haqverdiyeva ilə həmsöhbət olduq. Söhbət zamanı məlum oldu ki, Səidə xanım bu filmi anasının istəyi ilə çəkib:

– Filmdə baş verən əhvalatlar olmuş hadisəyə əsaslanaraq çəkilib. Bütün bu hadisələri anam mənə danışardı. O, hər zaman istəyirdi ki, gördüyü, eşitdiyi hər mövzu ekranlaşdırılsın. Mən də onun arzusunu ürəyində qoymayıb, belə bir ssenari yazdım. Düzünü deyim ki, filmi çəkməyə ehtiyat edirdim. Amma həmin vaxt şərait elə gətirdi ki, bu işi görmək mənim öhdəmə düşdü. Bu, mənim ilk cəsarətli addımım idi. Nəzəriyyəni bilsəm də, bu mövzuda heç bir təcrübəm olmamışdı. Peşəkar komanda ilə filmin çəkilişlərinə başladıq. Xronometrajı 95 dəqiqə olan filmin çəkilişləri Tərtər, Cəlilabad, Şamaxı, eləcə də Bakıda aparıldı. Beş günə bu ekran işini ərsəyə gətira bildik. Filmi ilk dəfə anamla izlədim. Onun təəssüratları mənim üçün çox maraqlı idi. Anam o filmə baxanda çox gülmüşdü. Mən özüm də indi filmi izləyəndə gülürəm. Bir tərəfdən də filmdə olan nöqsanları görürəm. Düşünürəm ki, kaş, bu sahədə bir az da təcrübəm olaydı və daha yaxşı iş ortaya qoya biləydim. Film "You tube" kanalında da var. Hərdən yazılan şərhləri də açıb oxuyuram. O qədər xoş sözlər, fikirlər var orada. İzləyicilər filmin davamının çəkilməsini istəyirlər. Bu barədə bir müddət düşündüm. Hətta ssenari də hazır idi. Sonra qərara aldım ki, bu film elə burada da bitməlidir və ardını çəkmədim.

Xatırladaq ki, "Ər quyusu" 2016-cı ildə çəkilib. 2017-ci ildə isə Nizami Kino Mərkəzində təqdimatı keçirilib. Ailə-məişət mövzusunda çəkilən tammetrajlı bədii filmin quruluşçu operatoru Rəşad Qarayev, bəstəkarı Vüqar Camalzadə, quruluşçu rəssamı İqbal Əliyev, rejissoru Jalə Rəhimli, operatoru Elvin Mustafayev, rəssamı Cavid Hüseynov, geyim üzrə rəssamı Əfşan Əsədovadır.

Gülməli hadisələrlə zəngin olan filmdə rolları Əməkdar artistlər Sevinc Sarıyeva, Aybəniz Bağırova, Ülviyyə Əliyeva, Məhərrəm Qurbanov, Cavid Telman, Rəsmiyyə Nurməmmədova, Könül Şahbazova, Elnur Əliyev, Elxan İsmayılov, Zemfira Əbdülsəmədova, Hüsniyyə Əhmədova, Vüsal Hüseynov və Gülnarə Abdullayeva ifa edirlər.

*Fidan SALMANOVA*
*XQ*

# Ukrayna böhranı: Savaş meydanda, barış dalandadır



**Səudiyyə Ərəbistanın Ciddə şəhərində Ukraynanın cəbhənin bütün təmas xətti boyu 30 günlük atəşkəsə razı olmasından sonra Vaşinqton artıq Rusiya rəsmiləri ilə danışıqlara başlayıb.**

Xatırladaq ki, Ciddədə qəbul edilən birgə bəyanatda qeyd olunur ki, Kiyev 30 günlük atəşkəsə və Vaşinqtonla faydalı qazıntılar üzrə saziş imzalamağa hazırdır. Bunun müqabilində ABŞ Ukrayna ilə hərbi yardım və kəşfiyyat mübadiləsini dərhal bərpa edəcəyinə söz verib.

Vaşinqton Kiyevi atəşkəsə razı salandan sonra eyni təkliflə Moskvaya müraciət edib. Dünən ABŞ-nin milli təhlükəsizlik müşaviri Mayk Uolts rusiyalı həmkarı ilə telefonla danışıb.

Prezident Tramp isə Ağ evdə jurnalistlərə deyib ki, "Moskva Ukrayna ilə atəşkəslə bağlı müsbət siqnallar göndərir". Dövlət başçısı, eyni zamanda, Moskvadan tez cavab gözlədiyini vurğulayıb: "Tezliklə öyrənəcəyik, müsbət mesajlar alıram, amma müsbət mesajlar heç nə demək deyil".

ABŞ Prezidenti, həmçinin qeyd edib ki, vəziyyət çox ciddidir və münaqişə Üçüncü dünya müharibəsinə səbəb ola bilər: "Bu vəziyyətə ABŞ-ın keçmiş prezidenti Co Baydenin səriştəsizliyi səbəb olub".

Yeri gəlmişkən, Ukrayna böhranının qismən də olsa həllinə ümidlər artır. BMT-nin Baş katibi A.Quterreş vurğulayıb ki, Rusiya–Ukrayna münaqişəsində atəşkəs əldə edilə bilsə, dünya birliyi bunu yalnız alqışlayacaq.

Bu arada Rusiya Prezidenti Putin Kursk vilayətindəki komanda məntəqələrindən birində müşavirə keçirib. Kremlin sözçüsü Peskov isə qeyd edib ki, Kursk əməliyyatı son mərhələyə qədəm qoyur.

Ukraynada Avropa sülhməramlı kontingentinin yerləşdiriləcəyi barədə məlumatlar yayılıb. Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova brifinqdə bildirib ki, Moskva üçün istər xarici kontingent, hərbi bazalar, istərsə də sülhməramlı əməliyyatlar olsun, hər hansı bayraq altında digər dövlətlərin silahlı qüvvələrinin Ukraynada yerləşdirilməsi tamamilə qəbuledilməzdir. Onun sözlərinə görə, hətta bu cür təşəbbüslərin müzakirəsi belə münaqişənin həllinə kömək etməyən təxribat xarakterli addımdır.

Rusiya rəsmilərinin mediaya bir sıra açıqlamaları, təəssüf ki, atəşkəsin hələ də üfüqdə görünmədiyindən xəbər verir. Belə ki, dünən Rusiya Prezidentinin köməkçisi Yuri Uşakov deyib ki, Moskva Kiyev ilə müvəqqəti atəşkəs ideyasını dəstəkləmir, münaqişənin uzunmüddətli nizamlanmasının tərəfdarıdır. "Bizim məqsədimiz ölkəmizin qanuni maraqlarını və narahatlıqlarımızı nəzərə alan dayanıqlı sülh nizamlanmasına nail olmaqdır. Biz buna çalışırıq".

O əlavə edib ki, hazırkı vəziyyətdə "sülh prosesini təqlid edən hər hansı addımları" zəruri hesab etmir. Qlobal mediaya sızan bəzi informasiyalara görə, Rusiya Ukraynanın 4 vilayətini, Donetsk və Luqanskdan başqa, Zaporojye və Xersonu da özünə ilhaq etməklə atəşkəsə razılıq verə biləcəyini bildirib.

Rusiyanın 2014-cü ildə ələ keçirdiyi Krım isə danışıqlar predmeti deyil. Moskva bu barədə eşitmək belə istəmir.

***Məsaim ABDULLAYEV***
***XQ***

# Avropa kimdən və nədən müdafiə olunur?

**Avropa İttifaqında müdafiə məsələləri uzun illər, əsasən, NATO çərçivəsində müzakirə olunurdu. Lakin 5 mart 2025-ci ildə Yunanıstanın Baş naziri Kiriakos Mitsotakisin Avropa Xalq Partiyasına Avropanın müdafiə xərclərinin artırılması üçün çağırışı Qərb alyansında mühüm dəyişikliklərin baş verdiyinə işarə edir. Xüsusilə, ABŞ-ın NATO və Avropa təhlükəsizliyi ilə bağlı mövqeyinin qeyri-müəyyənləşməsi Aİ ölkələrini öz təhlükəsizlik strategiyalarını yenidən nəzərdən keçirməyə vadar edir.**



Son illərdə NATO-nun ABŞ-a bağlılığı barədə suallar artır. Avropa İttifaqı isə öz müdafiə qabiliyyətini gücləndirmək üçün müxtəlif təşəbbüslər irəli sürür. Avropa Komissiyasının irəli sürdüyü beş yeni maliyyələşdirmə təşəbbüsü Aİ-nin NATO-dan kənarda öz təhlükəsizlik strategiyasını formalaşdırmaq niyyətini ortaya qoyur. Bunlar, xüsusilə müdafiə sənayesinin inkişaf etdirilməsi, hərbi tədqiqat və inkişaf layihələrinə investisiyalar və Aİ-nin vahid müdafiə siyasətinin gücləndirilməsidir.

Yunanıstan tarixən müdafiə xərclərinə yüksək vəsait ayıran Aİ üzvlərindən biridir. Aralıq dənizindəki enerji resursları uğrunda mübarizə və regiondakı geosiyasi risklər Afina üçün güclü müdafiə siyasətini vacib edir. Mitsotakisin çağırışı da məhz bu kontekstdə başa düşülməlidir. Avropanın müdafiə siyasətində daha müstəqil olmağa yönəlməsi, NATO və ABŞ ilə münasibətlərin gələcəyinə də təsir edə bilər. Əgər Aİ öz hərbi gücünü artırmaqda uğurlu olarsa, bu, NATO çərçivəsindəki tarazlığı dəyişdirə və alyans daxilində yeni bir güc bölgüsünə gətirib çıxara bilər. Avropa artıq təhlükəsizlik baxımından yalnız ABŞ-dan asılı olmaq istəmir. Mitsotakisin çağırışı və Avropa Komissiyasının yeni maliyyələşdirmə planları qitənin gələcəkdə daha müstəqil müdafiə strategiyası formalaşdırmağa çalışdığını göstərir. Bunun uğur qazanıb-qazanmayacağını isə Aİ ölkələrinin siyasi iradəsi və ortaq təhlükəsizlik strategiyasına nə dərəcədə sadiq olmaları müəyyən edəcək.

Məsələyə tarixi aspektdən baxsaq görərik ki, "qoca qitə" uzun illər təhlükəsizlik məsələlərində əsasən ABŞ və NATO-nun çətiri altına sığınsa da, Avropa dövlətlərinin vahid hərbi gücə malik olması ideyası yeni deyil. İkinci dünya Müharibəsindən sonra Qərbi Avropa ölkələri təhlükəsizliklərini təmin etmək üçün ABŞ və NATO-ya güvəndilər. Lakin bu dövrdə Avropanın özünümüdafiə qabiliyyətinin artırılması da müzakirə olunurdu. 1950-ci illərdə Avropa Müdafiə Cəmiyyəti (EDC) çərçivəsində Pleven planı irəli sürüldü. Fransa Baş naziri Rene Pleven tərəfindən 1950-ci ildə təklif edilən bu planın əsas məqsədi Avropa ordusu yaratmaq və ABŞ-dan asılılığı azaltmaq idi. Plan Almaniyanın yenidən silahlanması məsələsini də həll etmək üçün nəzərdə tutulmuşdu. Çünki İkinci dünya müharibəsindən sonra Almaniya silahsızlaşdırılmışdı və Fransa başda olmaqla bir çox Avropa dövləti onun hərbi gücünün yenidən bərpa olunmasına ehtiyatla yanaşırdı. Pleven planı çərçivəsində Avropa Müdafiə Cəmiyyəti yaradılmalı və bu birlik vahid komandanlığa tabe olmalı idi.

Lakin 1954-cü ildə Fransa parlamenti bu təşəbbüsü rədd etdi və Pleven planı baş tutmadı. Bu uğursuzluğun bir neçə səbəbi var idi. Birincisi, Fransa siyasi elitası öz ordusunun Aİ çərçivəsində tam inteqrasiya olunmasına və milli təhlükəsizlik siyasətinin xarici təsir altına düşməsinə qarşı idi. Bununla yanaşı, ABŞ və NATO-nun Avropanın təhlükəsizliyində mühüm rol oynadığına görə, bəzi dövlətlər yeni bir hərbi birlik yaratmağın alyansın gücünü böləcəyi qənaətində idilər. Böyük Britaniya bu prosesə qoşulmadı və Avropanın müdafiə inteqrasiyasına qarşı ehtiyatlı mövqe sərgilədi. Fransa daxilində də Pleven planı ilə bağlı konsensus yox idi. Planın həyata keçirilməsi Fransanın öz hərbi nəzarətindən imtina etməsi anlamına gəlirdi ki, bu da milli maraqlara uyğun deyildi.

Bu uğursuzluqdan sonra Avropa ölkələri müdafiə siyasətində NATO-ya güvənməyə davam etdilər və Avropa Müdafiə Cəmiyyəti ideyası bir müddət unuduldu. Pleven planının uğursuzluğundan sonra Avropa dövlətləri təhlükəsizlik strategiyalarını əsasən NATO çərçivəsində formalaşdırmağa davam etdilər. 1990-cı illərdən etibarən isə Avropa İttifaqı tədricən müdafiə və təhlükəsizlik məsələlərində daha aktiv rol almağa başladı. 1998-ci ildə Böyük Britaniya və Fransa arasında Sent-Malo razılaşması Avropa Birliyinin müdafiə qabiliyyətini artırmaq üçün yeni imkanlar yaratdı. Bu razılaşma Aİ çərçivəsində hərbi əməkdaşlığın genişləndirilməsi üçün mühüm addım idi. 2003-cü ildə Avropa Təhlükəsizlik və Müdafiə Siyasəti çərçivəsində ilk müstəqil Aİ hərbi əməliyyatları həyata keçirilməyə başladı. 2017-ci ildə Permanent Structured Cooperation (PESCO) layihəsi Avropa İttifaqı daxilində müdafiə sahəsində əməkdaşlığı daha da gücləndirdi. Buna baxmayaraq, NATO hələ də Avropanın əsas hərbi alyansı olaraq qalır. ABŞ-ın NATO-dakı rolu zamanla dəyişsə də, Avropa ölkələri üçün alyansın təmin etdiyi kollektiv müdafiə sistemi həlledici olaraq qalmaqdadır. Bununla belə, son dövrlərdə Aİ-nin müdafiə xərclərini artırmaq və ABŞ-dan daha az asılı olmaq təşəbbüsləri Avropanın təhlükəsizlik arxitekturasının gələcəyinə dair yeni müzakirələrə yol açır.

Avropanın müdafiə siyasətində daha müstəqil olmağa yönəlməsi, NATO və ABŞ ilə münasibətlərin gələcəyinə də təsir edə bilər. Əgər Aİ öz hərbi gücünü artırmaqda uğurlu olarsa, bu, NATO çərçivəsindəki tarazlığı dəyişdirə və alyans daxilində yeni bir güc bölgüsünə gətirib çıxara bilər.Bununla belə, Aİ ölkələri arasında fikir ayrılıqları mövcuddur. Xüsusilə, Şərqi Avropa dövlətləri ABŞ-ın NATO-dakı liderliyini qorumaqda maraqlıdır. Polşa və Baltikyanı ölkələr Rusiya təhlükəsi qarşısında Vaşinqtonun hərbi dəstəyinə etibar edirlər. Digər tərəfdən, Fransa və Almaniya kimi dövlətlər isə daha müstəqil Avropa müdafiə strategiyasına üstünlük verirlər.

Mitsotakisin son çağırışı və Avropa Komissiyasının yeni maliyyələşdirmə planları, Pleven planının uğursuzluğundan 70 il sonra Avropanın öz təhlükəsizliyini təmin etmək üçün yenidən ciddi addımlar atmaq istəyini göstərir. Bu dəfə uğur qazanıb-qazanmayacağı isə Aİ ölkələrinin siyasi iradəsindən və qlobal geosiyasi proseslərdən asılı olacaq.

***Şəbnəm ZEYNALOVA,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Qırğızlar və taciklər də "Əsrin müqaviləsi" imzaladılar

## *23 il davam edən münaqişə başa çatdı*





**Postsovet məkanında tarixi hadisə baş verdi. Martın 13-də Bişkekdə danışıqlar zamanı Qırğızıstan və Tacikistanın prezidentləri Sadır Japarov və Emoməli Rəhmon Qırğız Respublikası və Tacikistan Respublikası arasında dövlət sərhədi haqqında tarixi saziş imzaladılar. Bununla da 23 il davam edən, silahlı toqquşma və itkilərlə müşayiət olunan sərhəd münaqişəsi sona çatdı. İndi prosedura əsasən, bu saziş iki ölkənin parlamentlərinə baxılmaq üçün təqdim ediləcək. Qanun layihəsi deputatlar tərəfindən ratifikasiya olunduqdan sonra yenidən dövlət başçılarının imzalanması üçün təqdim olunacaq.**

Qırğızıstanla Tacikistan arasında 972 kilometrlik sərhəd bölgəsi uzun müddət mübahisəli olaraq qalırdı. 101 il əvvəl, yəni 1924-cü ildə Orta Asiyanın ayrı-ayrı dövlətlərə bölünməsindən sonra sərhəd elə çəkilmişdi ki, o təkcə məskunlaşan ərazilərdən deyil, həm də sərhədyanı rayonların sakinlərinin evlərindən keçirdi. Bu proses anklavlar yaradaraq, etnoqrafik və iqtisadi reallıqlara nəzərə almırdı. Eyni zamanda, delimitasiyası resurslara çıxışla bağlı münaqişələrə səbəb oldu. SSRİ-nin dağılmasından sonra vəziyyətin pisləşməsi yerli qırğızlarla taciklər arasında çoxsaylı toqquşmalara gətirib çıxartdı və 2022-ci ildə iki yüzdən çox insanın həyatına son qoyan və əhalinin kütləvi təxliyəsinə səbəb olan silahlı münaqişə ilə nəticələndi. Silahlı münaqişə zamanı Suqd və Batken rayonlarının sərhədyanı ərazilərinin infrastrukturuna xeyli maddi ziyan dəydi.

Bu hadisələrdən sonra iki ölkənin hakimiyyət orqanları sərhədlərin delimitasiyası prosesini sürətləndirmək qərarına gəliblər. 23 il davam edən danışıqlardan sonra Bişkek və Düşənbə sərhəd haqqında razılığa gəldilər və nəhayət, əraziləri mübadilə edərək, onu birləşdirdilər və işarələdilər. Martın 13-də sənədin imzalanmasından və birgə bəyanatın qəbulundan əvvəl tərəflər danışıqlar apardılar. Görüş zamanı siyasi və iqtisadi sahədə ikitərəfli əlaqələr, o cümlədən təhsil və mədəni-humanitar sahələrdə əməkdaşlıq məsələləri müzakirə edildi. Bundan sonra iki ölkə arasında sərhəd haqqında saziş iki ölkənin parlamentlərində ratifikasiya prosedurundan keçməlidir və prezidentlər tərəfindən imzalandıqdan sonra qanunlar qüvvəyə minəcək.

Yenilənmiş məlumatlara görə, Qırğızıstan-Tacikistan sərhədinin ümumi uzunluğu 10684 kilometrdir ki, bunun da 519,9 kilometri 2011-ci ilə qədər yeni razılaşdırıldı, 486,94 kilometri isə son üç ildə müəyyən edildi. Qırğız prezidenti Japarov əmin olduğunu bildirdi ki, müqavilənin imzalanması təkcə hər iki ölkənin deyil, bütün regionun təhlükəsizliyinin möhkəmlənməsinə töhfə verəcək. O qeyd etdi ki, saziş əməkdaşlıq və mehriban qonşuluq üçün möhkəm zəmin yaradır. Prezident Japarov vurğuladı ki, bundan sonra da Qırğızıstan və Tacikistan arasındakı sərhəd qardaş xalqlar arasında əbədi dostluq sərhəddi olacaq.

Sənədi imzaladıqdan sonra prezidentlər 2021-ci ildən bağlı qalan ümumi sərhədi videobağlantı vasitəsilə dərhal rəsmi olaraq açdılar. Nəzarət-keçid məntəqələri ilə yanaşı, hava hərəkəti və avtobus marşrutları tezliklə bərpa olunacaq. Düşənbə ilə Bişkek arasında hava hərəkəti bərpa edildikdən sonra ilk uçuş martın 14-də baş tutacaq. Həmçinin Tacikistanın Suqd vilayətinin inzibati mərkəzi Xucənddən Qırğızıstanın paytaxtına və əks istiqamətdə aviareys açılacaq. Xatırladaq ki, Bişkek və Düşənbə arasında hava əlaqəsi 2021-ci ilin mayında sərhəddə baş verən silahlı münaqişədən sonra kəsilmişdi.

***S.ELAY***
***XQ***

# "Qərbi Azərbaycan marafonu" Gəncədən keçir



**Gəncə Şəhər İcra Hakimiyyətinin, Qərbi Azərbaycan İcmasının və YAP Gəncə şəhər təşkilatının birgə təşkilatçılığı ilə Gəncə Dövlət Filarmoniyasında "Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bizim tariximiz təsdiqləyir" mövzusunda konfrans keçirilib.**

Tədbirdə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Türkiyənin Gəncədəki Baş konsulu Recep Öztop, Gürcüstanın Gəncədəki Baş konsulu Kaxaber Abdaladze, YAP Gəncə şəhər təşkilatının sədri Bayram Aslanov, Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərov, İcmanın İdarə Heyəti sədrinin müavini, Milli Məclisin deputatı Hikmət Babaoğlu, millət vəkilləri Musa Quliyev, Pərvin Kərimzadə, Naqif Həmzəyev, QAİ-nin Gəncə şəhər üzrə nümayəndəsi Mübariz Yusifov, idarə, müəssisə, təşkilat rəhbərləri və ziyalılar iştirak ediblər.

Rəsmilər əvvəlcə ulu öndər Heydər Əliyevin şəhərin mərkəzi Meydanında ucaldılan abidəsini ziyarət edib, önünə gül dəstələri qoyublar. Sonra filarmoniyanın foyesində Qərbi Azərbaycana həsr olunmuş dekorativ tətbiqi sənətə və fotosərgiyə baxıblar.

Konfransda Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Ulu öndər Heydər Əliyevin və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. İcmanın 2 illik fəaliyyəti ilə bağlı Qərbi Azərbaycan Televiziyası tərəfindən hazırlanmış film nümayiş olunub.

Niyazi Bayramov qədim Nizami yurdunda Qərbi Azərbaycanla bağlı belə tədbirin keçirilməsinin önəmindən söz açıb. O bildirib ki, bu gün cənab Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə Qərbi Azərbaycana Böyük Qayıdış ideyasının həyata keçirilməsi istiqamətində mühüm işlər görülür. Bu baxımdan Qərbi Azərbaycan İcmasının fəaliyyəti və qəbul edilən "Qərbi Azərbaycana Qayıdış Konsepsiyası" böyük əhəmiyyətə malikdir.

Əziz Ələkbərov "Qərbi Azərbaycan İcmasının məqsəd və hədəfləri, qayıdış uğrunda mübarizə" mövzusunda çıxışında icmanın yaranma tarixçəsi, bu günə qədər görülən işlər və qarşıda duran məsələlər barədə danışıb. Bildirib ki, son 200 ildə ata-baba yurdlarından zorla çıxarılan Qərbi azərbaycanlıların geri qayıdışı mütləq şəkildə təmin olunmalıdır.

"Qərbi Azərbaycan həqiqətləri, ulu öndər Heydər Əliyev və Prezident İlham Əliyevin Qərbi Azərbaycana qayıdış uğrunda apardıqları mübarizənin tarixi əhəmiyyəti" mövzusunda danışan Musa Quliyev Qərbi Azərbaycandakı yurd yerlərimizdən, doğma torpaqlara qayıdışın vacibliyindən bəhs edib.

Hikmət Babaoğlu "İndiki Ermənistandan zorla çıxarılmış azərbaycanlıların Qərbi Azərbaycana qayıdışı regionda qalıcı sülhün təminatı kimi" mövzusunda danışaraq bildirib ki, soydaşlarımızın geri qayıdışı regionda qalıcı sabitliyin olmasında mühüm rol oynayacaq.

Daha sonra Bayram Aslanov "Qərbi Azərbaycan toponimlərinin dəyişdirilməsinin siyasi və sosial təsirləri", Mübariz Yusifov "Qərbi Azərbaycan İcmasının Gəncə şəhəri üzrə nümayəndəsinin fəaliyyət istiqamətləri barədə hesabat xarakterli icmal", Gəncə şəhərində yaşayan Qərbi Azərbaycan kökənli gənclər adından Sevinc İsgəndərova isə "Azərbaycanlıların tarixi vətənlərinə qayıdış hüquqlarının bərpası və Qərbi Azərbaycan həqiqətlərinin təbliğində gənclərin rolu" mövzularında çıxış ediblər.

Sonda bir qrup Qərbi Azərbaycan kökənli şəxslərə müraciətləri əsasında Qərbi Azərbaycan İcmasına üzvlük vəsiqələri və döş nişanları təqdim olunub.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri,***

**Gəncə**

# REQUEST FOR EXPRESSIONS OF INTEREST (CONSULTANT SERVICES – SELECTION OF FIRMS)

**Country:** Azerbaijan

**Name of Project:** “Construction of the Main Irrigation Canal from the Maiden Tower Reservoir Project”

**Name of the Beneficiary:** Azerbaijan State Water Resources Agency, Administration of Facilities under Construction PLE

**Name of the Assignment:** Procurement Support and Work Supervision Consulting Services

**Mode of Financing:** Installment Sale and IsDB Grant

**Financing No:** AZE 1024

The Government of Azerbaijan represented by the Ministry of Finance for the benefit of the Azerbaijan State Water Resources Agency, Administration of Facilities under Construction PLE has received financing from the Islamic Development Bank toward the cost of the “Construction of the Main Irrigation Canal from the Maiden Tower Reservoir Project” and intends to apply part of the proceeds for Consultant Services.

The services include the following tasks ensuring full consistency with the TOR.

• Finalize a work plan in consultation with the Client for various tasks after commence of the assignments;

• Review the hydraulic, structural, electro-mechanical, geological, and geotechnical design; and site investigation reports (including basic information and infrastructure inventory), survey reports (including environmental, social impact, and land acquisition and resettlement assessments) and site investigation reports (including basic information and infrastructure inventory),

• Review the engineering geological conditions of the project area; compilation of geological maps and sites based on the available data, maps, and aerial surveys such as regional geological maps, regional geological cross sections and seismic-tectonic maps;

• Prepare bidding documents for contracts to be awarded during project implementation using IsDB’s Standards.

• Perform the role of engineer for construction supervision of contractors’ works for compliance with specifications, drawings, and bill of quantities.

• Review all contract documents including plans/drawings, and Technical Specifications, to identify potential conflicts in the provisions, details, as well as lack of or insufficient information for the contractor to perform its contractual obligations;

• Review each of the contractors’ work schedule and method statement; equipment and plant schedule; site organization and personnel deployment plan; plan for establishment of construction camp; and any other plan or schedule that may be required in the execution of the work and ensure conformity with specifications, Contractual obligations as well as applicable norms and regulations;

• Review any subsequent modification or update to the contractors’ work plans and schedules that may be required in the execution of the work to ensure conformity with specifications, contractual obligations and applicable norms and regulations;

• Review the contractor’s method statement and work program to ensure conformity with the Environmental Management Plan (EMP), and other safeguard regulations (Including resettlement, gender, and other social safeguard issues);

• Monitor and supervise the execution of field tests and sampling, including soil compaction, concrete sampling, and others and maintain quality control records of all field tests and sampling;

• Supervise the work of the contractor and report to the client on progress of work and any deficiencies noted during construction and recommend remedial action;

• To ensure oversight of the implementation of smart monitoring and control systems, including SCADA.

• Inspect and evaluate the contractors’ used materials installations, plant and equipment including type, origin and specifications, etc. for conformity with contractual obligations, specifications and applicable norms and regulations;

• Review site management and site safety plans for conformity with contractual obligations and applicable regulations and laws, including disposal of used materials;

• Assist the EA in the assessment of claims and disputes from the contractors;

• Review and recommend approval of the contractors’ working drawings and as-built drawings and quality control records;

• Hold weekly and monthly field meetings with the contractors to review progress of work against plans and schedules; identify problems areas; review field test and sample schedules; and make projections of work for the following period; Review and endorse contractors’ progress interim and final payment certificates, requests for contract variations, and other technical solutions as needed;

• Review and confirm final delivery-acceptance act referred to the construction process accomplishment;

• Review and approve contractors’ quality assurance mechanism and safety procedures;

• Carry out measurement of works and agreement of quantities with contractors, and deal with any claims of the contractors as per procedures described in the conditions of contracts;

• Ensure that the project is constructed, operated and maintained in strict conformity with the technical specifications and rules governing technical operation and requirements of alienation lines, and all applicable laws and regulations, including Environmental and social development regulations;

• Prepare Final Payment Certificates, Taking Over Certificates, and Performance Certificates, to the timing of, and as required by, the contracts, and advising the Employer on the release of all contractors' securities and retentions; and monitor performance of the Contractor during the Defects Notification Period.

• Supervise the implementation of and monitoring compliance with IEEs and LARPs.

• Assist the Client in preparing and/or updating project implementation schedule and advising critical activities and the critical path of activities in the schedule;

• Assist the Client in conducting project performance monitoring and evaluation in terms of achievement of outcome and outputs target indicators;

• Assist the Client to develop a contract management system to ensure that records and data are stored systematically and cross-referenced with the financial accounts of the project. The system must allow safekeeping of procurement documentation for easy retrieval and referencing, with adequate paper trails in accordance with generally accepted standards. The contract management system must also be designed to support loan disbursement, reporting, and accounting requirements of the project;

• Prepare operational and maintenance (O&M) manual for the irrigation networks to be constructed under the project, including the methodology principles for calculation of the materials, technical and human resources required for operation and maintenance separately, taking into account the list of the measures to be implemented and their periodicity.

• Assist the Client in selecting and supervising various consultants for establishing and implementing the demonstration and training of innovative, climate-smart agricultural and irrigation technologies. Oversee, monitor and report the implementation progress of demonstrations and training of farmers and stakeholders in innovative and climate-smart agricultural production technologies.

The Azerbaijan State Water Resources Agency, Administration of Facilities under Construction PLE now invites eligible consulting firms (“Consultants”) to indicate their interest in providing the services. Interested Consultants must provide specific information which demonstrates that they are fully qualified to perform the services (brochures, description of similar assignments, experience in similar conditions, availability of appropriate skills among staff, etc.).

**The shortlisting criteria are:**

• Company information: name, status, address, telephone number, facsimile number, year of establishment, contact person for the project, turnover for the previous 3 (three) years (2022-2023-2024) with an average of USD 4.0 million, number of permanent staff and part-timers, fields of expertise;

• Consulting firm is expected to have extensive experience in design and construction of irrigation systems/water structures and appurtenant structures, hydraulic structures, irrigation systems, provided that;

o One specific experience in design/design review and construction supervision of irrigation & drainage canal with at least USD 4.0 million consultancy contract amount (in case of a JV formation, the Lead Member shall provide)

• Consulting firm should be aware of local legislation in the field of design and construction.

• Consulting firm should have experience in similar type and size of the projects financed by the ISDB or other IFIs, with proven knowledge of FIDIC basis contracts and / or MDB procurement process.

• Letters of Recommendation for all submitted previous experiences from previous Employers shall be attached.

• A list of ongoing assignments including the start and end dates and the personnel involved.

• The Consultant Company or its technical staffs must have right for performance of technical supervision according to Rules of technical supervision works in Republic of Azerbaijan (Agency for construction affairs) Law of Azerbaijan. This means that the Consultant company can employ or commit to employ engineers with license for construction supervision of category or obtain or commit to obtain license for own company.

• Form of association (sub-contractor/joint venture) for the execution of the contract(s), if the case may be, and identification of the leading company. Same information shall be submitted for the leading company and the associate companies.

The selection criteria for the short-listing are:

| | |
|---|---|
| **• General Experience** | **20 points** |
| **• Average Annual Turnover** | **10 points** |
| **• International Experience** | **10 points** |
| **• Specific Experience** | **60 points** |
| *- Supervision* | *45 points* |
| *- Design (irrigation systems)* | *15 points* |
| **Total points** | **100** |

* Minimum number of points necessary to be retained: 75 points

** Key Experts will not be evaluated at the shortlisting stage.

The attention of interested Consultants is drawn to Paragraphs, 1.23, and 1.24 of the Guidelines for Procurement of Consultant Services under Islamic Development Bank Project Financing (the “Procurement Guidelines”), setting forth IsDB’s policy on conflict of interest.

Consultants may associate with other firms to enhance their qualifications, but should indicate clearly whether the association is in the form of a joint venture and/or a sub-consultancy. In the case of a joint venture, all the partners in the joint venture shall be jointly and severally liable for the entire contract, if selected.

A consultant will be selected in accordance with the Quality and Cost-Based Selection (QCBS) procedure among shortlisting from IsDB’s Member Countries (MCs) method set out in the Procurement Guidelines.

Interested consultants may obtain further information at the address above during office hours **09:00 to 17:00 (local time).**

Expressions of interest must be delivered in a written form to the address below (in person, or by mail, or by fax, or by e-mail) by 03 April 2025.

Azerbaijan State Water Resources Agency, Administration of Facilities under Construction PLE

Attention: Mr. Fuad Abishev, Deputy Chairman of the Board 69 A Moscow Ave, Baku, Azerbaijan, AZ1012, 5th floor

Tel: +994 50 2229397

Fax: +994 12 4935165

E-mail: fuad.abishev@toom.gov.az

**Important note:** Participants may obtain TOR digitally published in isdb.org and dgmarket.com websites.

# “Böyükşor Avtonəqliyyat” ASC-nin 2024-cü il dekabrın 31-nə maliyyə vəziyyəti haqqında hesabatı

**(min manatla)**

| AKTİVLƏR | Cari dövr | Əvvəlki dövr |
|---|---|---|
| **Uzunmüddətli aktivlər** | | |
| Qeyri-maddi aktivlər | 38,4 | 45,2 |
| Torpaq, tikili və avadanlıqlar | 1416,1 | 1322,2 |
| **Cəmi uzunmüddətli aktivlər** | 1454,5 | 1367,4 |
| **Qısamüddətli aktivlər** | | |
| Ehtiyatlar | 0,6 | 0,6 |
| Qısamüddətli debitor borcları | 25,1 | 34,9 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 361,6 | 348,6 |
| **Cəmi qısamüddətli aktivlər** | 387,3 | 384,1 |
| **Cəmi aktivlər** | **1841,8** | **1751,5** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | |
| **Kapital** | | |
| Ödənilmiş nominal (nizamnamə) kapitalı | 1154,7 | 1154,7 |
| Kapital öhdəlikləri | 242,0 | 192,8 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 342,3 | 332,7 |
| **Cəmi kapital** | 1739,0 | 1680,2 |
| **Qısamüddətli öhdəliklər** | | |
| Qısamüddətli faiz ödənişləri yaradan öhdəliklər | 33,2 | - |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 54,3 | 59,1 |
| Sair qısamüddətli kreditor borcları | 15,3 | 12,2 |
| **Cəmi qısamüddətli öhdəliklər** | 102,8 | 71,3 |
| **Cəmi öhdəliklər** | 102,8 | 71,3 |
| **Cəmi kapital və öhdəliklər** | **1841,8** | **1751,5** |

## Maliyyə fəaliyyətinin nəticələri haqqında hesabat

| | | |
|---|---|---|
| Satış | 604,2 | 567,1 |
| Sair əməliyyat gəlirləri | 2,9 | 2,1 |
| İşçi heyəti üzrə xərclər | (112,5) | (98,5) |
| Amortizasiya xərcləri | (29,0) | (27,0) |
| Sair əməliyyat xərcləri | (32,4) | (27,8) |
| Əməliyyat mənfəəti (zərəri) | **433,2** | **415,9** |
| Maliyyə xərcləri | (5,4) | - |
| Vergidən əvvəl mənfəət (zərər) | **427,8** | **415,9** |
| Mənfəət vergisi | (85,5) | (83,2) |
| Hesabat dövrünün xalis mənfəəti (zərəri) | **342,3** | **332,7** |

**MÜSTƏQİL AUDİTORUN HESABATI**

**“Böyükşor Avtonəqliyyat” ASC-nin rəhbərliyinə**

**Müsbət rəy**

Biz, “Böyükşor Avtonəqliyyat” ASC-nin 2024-cü il dekabrın 31-nə olan maliyyə vəziyyəti haqqında hesabatından, maliyyə fəaliyyətinin nəticələri haqqında hesabatından, kapitalda dəyişikliklər haqqında hesabatından və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkəti haqqında hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatının auditini aparmışıq.

Bizcə, əlavə edilmiş maliyyə hesabatları cəmiyyətin 2024-cü il dekabrın 31-nə maliyyə vəziyyətini, habelə, maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini maliyyə hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərində düzgün və ədalətli təsəvvür yaradır.

**Rəy üçün əsaslar**

Biz, auditi Beynəlxalq Audit Standartlarına uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətimiz əlavə olaraq hesabatımızın “Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti” bölməsində təsvir edilir.Biz ,maliyyə hesabatlarının auditinə aid olan etik normalarla “Etika Məcəlləsi”nin tələblərinə uyğun olaraq cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə uyğun yerinə yetirmişik. Bizcə, əldə etdiyimiz audit subutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Əsas audit məsələləri**

Əsas audit məsələləri bizim peşəkar mühakiməmizə görə hesabat dövrünün maliyyə hesabatlarının auditində ən əhəmiyyətli məsələlərdəndir. Bu məsələlər maliyyə hesabatlarının auditi baxımından və maliyyə hesabatlarına dair rəyimizin formalaşdırılmasında bütövlükdə nəzərə alınmış və biz bu məsələlərə aid ayrılıqda rəy vermirik.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik ,maliyyə hesabatlarının, Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq hazırlanmasına, düzgün təqdim edilməsinə , rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ yaranmadığı halda, cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə rəhbərlik məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər cəmiyyətin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyırlar.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını təqim etməkdir. Kafi əminlik, əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, Beynəlxalq Audit Standartlarına uyğun aparılmış audit onu həmişə aşkarlasın. Təhriflər ,dələduzluq və ya səhvlər nəticəsində yarana bilər, ayrılıqda, yaxud məcmu olaraq istifadəçilərin təqdim etdikləri maliyyə hesabatları əsasında qəbul olunmuş iqtisari qəraqrlarına təsir etmək ehtimalı yarandığı halda, əhəmiyyətli hesab olunur.

“Cavid-Audit” MMC-nin direktoru – auditor Ş.M.Məmmədov

Auditor rəyi 12 fevral 2025-ci il tarixdə tərtib edilmişdir.

Ünvan-Bakı şəhəri, AZ1029, Böyükşor şossesi, 2062-ci məhəllə.

# “Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyəti

## “ F5 Networks” lisenziyalarının satın alınması üçün

# AÇIQ TENDER ELAN EDİR

“Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyətinin “ F5 Networks “ lisenziyalarının satın alınması üçün açıq tenderində iştirakçılar arzu.qasimli@azal.az elektron poçt ünvanına yazılı müraciət etməklə prosedurun şərtlər toplusunu əldə edə bilərlər.

Təkliflərin təqdim olunması üçün son tarix 3 aprel 2025-ci il saat 17.00-dır.

Prosedur üzrə əlaqələndirici şəxs – Arzu Qasımlı, mütəxəssis, arzu.qasimli@azal.az, iş – (+99412) 4972600 daxili 6989.

# “Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyəti

## işçi kreslolarının satın alınması məqsədilə

# AÇIQ TENDER ELAN EDİR

“Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyəti işçi kreslolarının satın alınması üçün açıq tenderində, iştirakçılar imran.k.mammadov@azal.az elektron poçt ünvanına yazılı müraciət etməklə prosedurun şərtlər toplusunu əldə edə bilərlər.

Təkliflərin təqdim olunması üçün son tarix 24 mart, 2025-ci il, saat 17.00-dəkdir.

Prosedur üzrə əlaqələndirici şəxs – İmran Məmmədov. Mütəxəssis imran.k.mammadov@azal.az.

Əlaqə nömrəsi – (+99412) 497 26 00, daxili 5803.

# “Neftmaştəmir” ASC səhmdarlarının nəzərinə!

28 aprel 2025- ci il saat 11.00-da “Neftmaştəmir” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Ümumi yığıncağın gündəliyi:

1. Ümumi yığıncağın gündəliyinin təsdiq edilməsi.
2. Səhmdar cəmiyyətin 2024-cü ilin yekunları ilə əlaqədar maliyyə-təsərrüfat fəaliyyətinin hesabatı və cəmiyyətin 2024-cü il üzrə illik hesabatlarının təsdiqi.
3. Müəssisənin gəlir və zərəri haqqında məlumat.
4. Digər məsələlər.

Ümumi yığıncaqda bütün səhmdarların iştirakı vacibdir.

Eyni zamanda səhmdarların nəzərinə çatdırırıq ki, nağdsız hesablaşmalar haqqında Azərbaycan Respublikası Qanununun 3.4.4 -cü bəndinə uyğun olaraq bank rekvizitlərinizin, şəxsiyyət vəsiqənizin surətlərini ASC-nin mühasibatlığına bilavasitə, yaxud neftmashtemir@mail.ru elektron poçt ünvanına təqdim edəsiniz.

Əlaqə telefonları – (012) 550 27 86; (012) 550 -3-3 00.

İclasın keçiriləcəyi ünvan – Bakı şəhəri, Sabunçu rayonu, Zabrat-1 qəsəbəsi, Oktyabr küçəsi 52. “Neftmaştəmir” ASC-nin iclas otağı.

*“Neftmaştəmir” ASC-nin direktoru*

# Həssas qruplara qayğı artır

**Sosial Xidmətlər Agentliyinin və Sosial Dəstək Mərkəzinin fəaliyyətinə həsr olunmuş infosessiyada əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev “Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023–2026-cı illər üçün Dövlət Proqramı”nın icrası sahəsində aparılan ardıcıl işlərin önəmini qeyd edib.**



Müzakirələrdə sosial xidmətlərin əhatəsinin genişlənməsi, həssas qrupların sosial xidmətlərə əlçatanlığının artırılması, bu sahədə ixtisaslı kadr potensialının formalaşdırılması innovativ həllərin tətbiqinin və s. əsas hədəflərdən olduğu bildirilib. Ötən il agentliyin 21 müəssisəsində 3 min 356 nəfərə xidmət göstərildiyi, 15 min 800 nəfərin reabilitasiya ilə əhatə olunduğu qeyd edilib. Son bir ildə agentliyin 4 min 500-dən çox tənha ahıl və əlilliyi olan şəxsə evlərində xidmət göstərdiyi, 271 repatriantla reabilitasiya işi apardığı diqqətə çatdırılıb. Məişət zorakılığından zərər çəkmiş, penitensiar müəssisələrdən azad olmuş şəxslər və digər həssas qruplara göstərilən xidmətlərdən, övladlığagötürmə və “Himayədar ailə” qayğı modelinin tətbiqi sahələrində görülən işlərdən də bəhs olunub.

Bildirilib ki, hazırda Bakı və Sumqayıt şəhərlərində, Abşeron rayonunda 5 sosial xidmət mərkəzi fəaliyyət göstərir. Bu il paytaxt və bölgələrdə daha 5 belə mərkəz, bir sıra bölgələrdə isə günərzi qayğı mərkəzləri yaradılacaq. Qurulmaqda olan “Sosial işin idarə edilməsi” elektron sistemi bu il istifadəyə veriləcək. İnfosessiyada Sosial Dəstək Mərkəzinin şəhid ailələri, dövlət uşaq müəssisələrinin məzunları, ahıl və əlilliyi olan şəxslər, digər həssas qruplarla bağlı həyata keçirdiyi layihələrdən bəhs olunub.

Daha sonra gender əsaslı məişət zorakılığı hallarının qarşısının alınması tədbirləri çərçivəsində mərkəzin apardığı işlər diqqətə çatdırılıb. Sosial Dəstək Mərkəzinin reinteqrasiya yönümlü tədbirlərini davam etdirdiyi vurğulanıb. Qurumun çətin tərbiyə olunan uşaqlarla sosial pedaqoji işin təşkili, valideynlik bacarıqlarının artırılması ilə bağlı çoxfunksiyalı müdaxilə, aztəminatlı ailələrin övladlarının təhsilinə dəstək yönümlü layihələrdən bəhs olunub.

Qeyd edilən sahələrdə görülən işlər və qarşıda duran vəzifələr ətraflı müzakirə edilib.

***Zərifə HÜSEYNOVA***
***XQ***

# “VİSİON PARTNERS “MMC-nin nizamnamə kapitalının azaldılması haqqında BİLDİRİŞ

Bakı şəhəri, Nəsimi rayonu, Neftçilər prospekti 145 nömrəli ünvanın 4-cü mənzilində yerləşən “VİSİON PARTNERS “MMC-nin (VÖEN–1406923031) nizamnamə kapitalının azaldılması barədə Azərbaycan Respublikası Mülki Məcəlləsinin 105.2. maddəsinə əsasən təsisçi tərəfindən qərar qəbul edilmişdir.

Cəmiyyətin nizamnamə kapitalı əlli (50) min manatdan 500 manata qədər azaldılmışdır.

“VİSİON PARTNERS “MMC-nin təsisçisi: WAHEED ANJUM

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 56 (30750) 14 mart 2025-ci il, cümə

İdman

## Avropada “Qızıl dubl”



**Albaniyanın Tirana şəhərində keçirilən 23 yaşadək qadın güləşçilərin Avropa çempionatında Azərbaycan komandası tarixi nəticə qazanıb.**

Qadın güləşçilərimiz U-23 çempionatları tarixində ilk dəfə 2 qızıl medal qazanıblar. Elnurə Məmmədova 53, Günay Hümbətova 59 kiloqram çəkidə fəxri kürsünün ən yüksək pilləsində yer alıblar. İndiyədək Avropa çempionatlarında ən yaxşı nəticə 1 çempionluq olub. Budəfəki yarışda Elnurə Məmmədova və Günay Qurbanova milli üçün “Qızıl dubl” ediblər.

Tiranada komandamızın digər üzvü Əsmər Cankurtaran (50 kq) 3-cü yeri tutub.

## Peşəkar Çövkən Liqasında yeni mövsümün ilk turu




**Azərbaycan Respublikası Atçılıq Federasiyasının təşkilatçılığı ilə Peşəkar Çövkən Liqasında yeni mövsümün açılış mərasimi və ilk turun oyunları təşkil edilib.**

İlk turda “Sərhədçi” “Buta Qolden”i 3:0, “Omar” liqaya yeni qatılan “Xəzər”i 5:1 hesabı ilə üstələyib. “Polad” və “Elit” kollektivləri arasında qarşılaşma isə qolsuz bərabərliklə başa çatıb. İkinci turda “Şirvan” “Atilla”nı 8:1 hesabı ilə məğlub edib. “Embavud” “Qarabağ” komandasına 7, “Zəfər” isə “Ağstafa Dilbaz”a 10 top fərqlə qalib gəlib.

Qeyd edək ki, Peşəkar Çövkən Liqasında növbəti turun oyunları martın 18-19-da keçiriləcək. Liqa noyabrın 26-dək davam edəcək.

## Avropa çempionatında bürünc medal



**Azərbaycan millisi Xorvatiyanın Osiyek şəhərində keçirilən güllə atıcılığı üzrə Avropa çempionatında 3-cü yeri tutub.**

Pnevmatik tapançadan 10 metr məsafəyə atəşaçma üzrə kişilərin komanda yarışında Ruslan Lunyov, Elvin Astanov və Vladislav Kalmıkovdan ibarət yığma iştirak edib. Yığmamız bürünc medal uğrunda Almaniya kollektivini məğlub edib.

*LA ZAD*
*XQ*

✓ *Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Sosial Xidmətlər Agentliyi tərəfindən Adilov Zamiq Musa oğlunun adına verilmiş şəhid ailəsi üzvünün 014525 nömrəli vəsiqəsi itdiyi üçün etibarsız sayılır.*

Hər daşın altında bir tarix yatır

# Xankəndinin təbii və tarixi-mədəni abidələri



**Xankəndini dörd bir yandan daim başı qarlı, sıx meşəli hündür dağlar, sıldırım yarğanlı dərələr, bol sulu çaylar, yerin təkindən qaynayıb çıxan bulaqlar əhatə edir.**

Ərazidəki yer-yurd adları – toponimlər bu təbii zənginliyin, onun həqiqi sahiblərinin kimliyinin tarixi möhürüdür: Üçbulaq, Fətəli xan səngəri, Məhəmməd ağanın qoruğu, Yağlıbulaq yaylağı, Ağa körpüsü, Əylis meşəsi, Çinar bulağı, Qarqar çayı və s. Bu yer adlarının hərəsinin özünəməxsus məna çaları, etimologiyası haqqında yaddaşlarda əbədi izi qalmış əfsanələr, rəvayətlər, nağıllar var.

### “Qırxqız” dağı

Belə rəvayətlərin biri də şərq ətəklərində Xankəndi şəhəri yerləşən, Qarabağ dağ silsiləsinin ən hündür zirvələrindən olan (2 min 629 m) Qırxqız haqqındadır. Rəvayətdə deyilir: “Bir gün 40 nəfər qız o zirvədəki “Qızlar bulağı” adlanan və insana bənzərsiz gözəllik bəxş edən çeşmədən su içməyə qalxırlar. Onların hər biri güclü və yaraşıqlı bir oğlanı sevirmiş. Bulaq başında olarkən qızlara xəbər çatır ki, sevdikləri oğlanlar döyüşdə həlak olublar. Məhəbbət oxu daşa dəyən nakam qızlar özləri də elə həmin yerdə bir-bir daşa dönürlər. Bundan sonra ora “Qırxqız” adlandırılır”.

Bu əhvalat Qarabağ savaşlarında həlak olmuş nişanlı könül ortaqlı igidlərimizin taleyi ilə də səsləşir.

### “Xan bağı” karvansarası

Xankəndidə tarixi abidələrin sayı da az deyil. Ötən əsrin 30-cu illərinə qədər fəaliyyətini davam etdirmiş mehmanxana tipli “Xan bağı” karvansarası XIX əsrin yadigarlarından idi. Bu milli mehmanxana Qarqar çayının sol yaxasında, Şuşa–Ağdam yolunun üstündə, Malıbəyli körpüsünün yaxınlığında inşa edilmişdi. Tarixi abidə hündür və



yoğun gövdəli beşbarmaq çinar ağaclarının sərin kölgəsində, suyu bumbuz, dişgöynədən bir bulağın iki addımlığında idi.



Gorusdan Yevlax səmtinə, Aşağı Qarabağdan Zəngəzura tərəf gəlib-gedənlər çox vaxt dayanacaq məntəqəsi rolu oynayan bu karvansarada gecələyirmişlər. Burda qonaqlara yüksək səviyyədə xidmət göstərilirmiş. Karvansarada geniş və səliqəli yataq otaqları, yeməkxana, çayxana, bərbərxana, ayrıca musiqi salonu var idi. Hər gün bura xanəndələr və çalğıçılar dəstəsi dəvət olunurmuş, bəzən də təntənəli musiqi məclisləri qurulurmuş. Karvansaranın həyətində buxxana, nalbəndxana, dəmirçixana, topdansatış bazarı fəaliyyət göstərirmiş. Çapar atlarının dincəlməsi üçün meydança da düzəldilibmiş.

### Xankəndi kurqanları

Şəhərdə və onun ətrafında qədim tarixin yadigarları olan kurqanlar da var. Bu ərazilərdə 1890-cı ildə alman əsilli tədqiqatçı-müəllim Emil Resler, 1938-ci ildə isə Azərbaycanda arxeologiya elminin banilərindən olan Yakov Hummel qazıntı-axtarış işləri aparıblar.

İndiki Xankəndi şəhərində aşkar edilmiş kurqan eramızdan əvvəl III minilliyin əvvəllərinə – ilk Tunc dövrünə və Kür–Araz mədəniyyətinin ilk mərhələsinə aid edilir. Kurqan ailəvi və ya qəbiləyə məxsus dəfn yeri olub. Burada insan cəsədlərinin qalıqları ilə yanaşı, daş kürzlər, mis, xəncər tiyələri, daş həvəngdəstə, ox ucları, sümük alətlər, qızıl muncuq və asmalar, eləcə də heyvan sümükləri aşkar olunub.

Xankəndinin qərb qurtaracağında – Kərkicahan kəndində yerli sakinlər yer şumlayarkən müxtəlif arxeoloji əşyalar tapdıqdan sonra (1938) Azərbaycan Elmlər Akademiyası Y.Hummelin rəhbərliyi ilə bura ekspedisiya göndərib. Qazıntı aparılan yerdə heç bir dəfn əlaməti görünməyib, tunc əşyalar, baltalar, toppuzlar, kiçik borular, məftil parçası, birbuynuzlu heyvan və bir quş fiquru, bir neçə balıqqulağı, altı kiloqrama qədər müxtəlif formalı əqiq muncuq yığılmış böyük bir gil küp tapılıb.

Həmin yerdən 200 metr aralıda aparılan qazıntı zamanı 3 daş qutu, 1 kult süxuru və 1 torpaq qəbir aşkar edilib. Daş qutulardan qara gildən, sümükdən, dəmir və obsidiandan düzəldilmiş qablar çıxıb.

Erməni vandallarının 30 illik faciəli münaqişə və qanlı savaşlar dövründə Qarabağın dağlıq hissəsində xalqımıza məxsus mədəni irsin yer üzündən silinməsi ilə bağlı vəhşilikləri Xankəndidə və onun ətrafında daha dağıdıcı olub. Hazırda işğalçılardan və separatçılardan təmizlənmiş Xankəndi şəhərinin tarixində yeni dövr başlanıb. Bu ərazidə Azərbaycan xalqına məxsus mədəni irsin bərpası istiqamətində zəruri iş aparılır.

***Vasif QULİYEV,***
***tədqiqatçı-jurnalist***

HAVA

## Buludlu, yağmursuz və dumanlı cümə



Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, martın 14-də Bakıda və Abşeron yarımadasında hava dəyişkən buludlu olacaq. Əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə zəif duman olacaq. Mülayim cənub-şərq küləyi əsəcək. Gecə 5-10°, gündüz 15-20° isti olacaq. Atmosfer təzyiqi 765 mm civə sütunundan 762 mm civə sütununa enəcək, nisbi rütubət gecə 70-80, gündüz 60-65 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 5-10°, gündüz 21-26°, dağlarda gecə 3-8°, gündüz 15-20° isti olacaq.

*QQ ASIMOV*
*XQ*

Sağlamlıq

## Reyhan – böyrəyə dərman

**Hindlilərin fikrincə, reyhan müqəddəs bitkidir. Onlar inanırlar ki, reyhan ailələri şər qüvvələrdən qorumaq və uğur gətirmək qabiliyyətinə malikdir. Minilliklər boyu reyhandan xalq təbabətində istifadə edilib. Bu bitkinin çox mühüm müalicəvi xassəsi var: O, böyrəklərin işini yaxşılaşdırır.**



Reyhan böyrəklərdə daş yaranması riskini azaldır, sidik turşusunun səviyyəsini azaltmağa, qan dövranını təmizləməyə kömək edir. Hindistanlı tədqiqatçıların fikrincə, reyhan böyrəklərdəki daşları təmizləyə bilər, çünki o, kalsium oksalat kristallarının yaranması prosesini dayandıra bilir.

Reyhandan stresi aradan qaldıran çay dəmləmək olar. Bunun üçün bir fincan çaya bir neçə reyhan yarpağı və ya reyhanın qurudulmuş yarpaqlarının bir çay qaşığı qədər tozunu əlavə edin və 5–6 dəqiqə dəmlədikdən sonra için.

Reyhanın daha bir faydalı xassəsi ondan ibarətdir ki, onun yarpaqlarında bakteriyaların inkişafını dayandıra bilən birləşmələr var. Buna görə ağız boşluğuna qulluq etmək üçün ondan istifadə etmək məsləhətdir. Reyhan yarpağının tərkibindəki mikrobları öldürən maddələr dişlərin kariyesini və ağız boşluğunda xoşagəlməz qoxunu aradan götürməyə kömək edir.

***Z.HÜSEYNLİ***
***XQ***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3373
SİFARİŞ 538
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV
Çapa imzalanmışdır 00:00